İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ İYİRMİ ÜÇÜNCÜ KİTAB

## OKTYABR 2022 - NOYABR 2022

AZƏRNƏŞR
BAKI - 2022

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR ✸ NİTQLƏR

BƏYANATLAR ✸ MÜSAHİBƏLƏR

MƏKTUBLAR ✸ MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2022

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2022, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Qazaxıstan Respublikasına işgüzar səfəri, səfər çərçivəsində Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə toplantısının plenar iclasında iştirakına dair materiallar, toplantıda geniş çıxışı verilmişdir.

Kitabda dövlət başçısının Rusiya Federasiyası, Özbəkistan, Gürcüstan, Albaniya, Əlcəzair və Serbiya respublikalarına rəsmi və dövlət səfərlərinə, həmçinin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfərinə, bu səfər zamanı Prezident İlham Əliyevlə birlikdə Zəngilan Beynəlxalq Hava Limanının açılışı mərasimində iştirakına aid materiallar toplanmışdır.

Çoxcildliyin bu cildində Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibəti ilə keçirilmiş tədbirdə geniş tarixi çıxışı da yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Ə $\frac{0801000000}{M – 651(07) – 2022}$** **BBK - 32**

© Azərnəşr, 2022

## QAZAXISTAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*12 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə toplantısında və MDB dövlət başçılarının iclasında iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Nursultan Nazarbayev adına Beynəlxalq Hava Limanında dövlət başçımızı Qazaxıstanın Baş Naziri Əlixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ŞAHBAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*Astana*

*12 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Astanada Pakistan İslam Respublikasının Baş Naziri Şahbaz Şərif ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Səmərqənddəki görüşdən bir ay sonra Astanada keçirilən bu görüşün ölkələrimiz arasında əlaqələrin dinamikliyini bir daha göstərdiyini bildirdi.*

*Dövlət başçımız ilə Səmərqənddəki görüşünü məmnunluqla xatırladan Baş Nazir Şahbaz Şərif Prezident İlham Əliyevi Pakistana səfərə dəvət etdi.*

*Azərbaycan Prezidenti Pakistana səfər etmək niyyətində olduğunu bildirdi və öz növbəsində, Baş Nazir Şahbaz Şərifi ölkəmizə səfərə dəvət etdi.*

*Pakistanın Baş Naziri Azərbaycana məmnuniyyətlə səfər etmək niyyətində olduğunu söylədi.*

*Şahbaz Şərif Pakistan xalqına göstərdiyi yardıma görə dövlət başçımıza təşəkkürünü ifadə etdi və ölkəsinin baş vermiş selin nəticələrindən hələ də əziyyət çəkdiyini bildirdi.*

*Baş Nazir Şahbaz Şərif keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar Pakistanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyini qeyd etdi.*

*Dövlət başçımız Pakistanın mövqeyinə görə təşəkkürünü bildirdi, Azərbaycanın da Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini daim dəstəklədiyini vurğuladı.*

*Baş Nazir Şahbaz Şərif Azərbaycanın bu ədalətli mövqeyinə görə minnətdarlığını ifadə etdi.*

*Dövlət başçımız Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üzrə ölkəmizin təkliflərini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, əgər Ermənistan tərəfindən siyasi iradə nümayiş olunarsa, tezliklə sülh müqaviləsi imzalana bilər. Görüş əsnasında Azərbaycan–Pakistan–Türkiyə üçtərəfli əməkdaşlığının önəmi vurğulandı. Bu çərçivədə əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti qeyd olundu.*

*Ölkələrimiz arasında hərbi-texniki, ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi məsələlərinə də toxunuldu və bu istiqamətdə müzakirələr aparıldı.*

## ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN VI ZİRVƏ TOPLANTISININ PLENAR İCLASINDA İŞTİRAK

*Astana*

*13 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) VI Zirvə toplantısının plenar iclasında iştirak etmişdir.*

*Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Əvvəlcə plenar iclasın gündəliyi qəbul edildi.*

*Sonra Küveytə AQEM-ə üzv dövlət statusu verildi. Beləliklə, Küveyt AQEM-in 28-ci üzv dövləti oldu. Türkmənistan isə AQEM-ə müşahidəçi qismində qoşuldu.*

*AQEM-in sədri Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev çıxış edərək, V Zirvə toplantısından ötən dövrdə görülmüş işlər barədə məlumat verdi.*

*Daha sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin iclas iştirakçılarına video-müraciəti nümayiş olundu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Mən ilk növbədə, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə toplantısına dəvət və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Prezident Tokayevin Azərbaycana son uğurlu rəsmi səfəri zamanı ikitərəfli gündəliyin cari məsələləri ilə bağlı səmərəli müzakirələr apardıq.

Azərbaycan Qazaxıstanda Prezident Tokayevin rəhbərliyi ilə aparılan siyasi və sosial-iqtisadi islahatları dəstəkləyir.

Hörmətli həmkarlar, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbə nəticəsində 2 il əvvəl Azərbaycan öz torpaqlarını Ermənistan işğalından azad etdi, 30 il davam edən Qarabağ münaqişəsinə son qoydu, ədaləti bərpa etdi və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərin-

dən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin icrasını özü təmin etdi.

Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğal zamanı şəhər və kəndlərimiz, mədəni və dini abidələrimiz, məscidlərimiz məqsədli şəkildə dağıdılıb, təhqir və talan edilib. Məscidlərdən heyvan saxlamaq üçün tövlə kimi istifadə olunurdu. Təəssüf ki, 30 il ərzində biz erməni cəmiyyətinin bu cür vandalizmə qarşı heç bir etirazını eşitmədik, əksinə, bu dağıntılar, erməni vandallar və hərbi cinayətkarlar təqdir edilir və qəhrəmanlaşdırılırdılar.

Ermənistan Azərbaycanın mülki əhalisinə və hərbçilərinə qarşı sistemli şəkildə müharibə cinayətləri törədib. Birinci Qarabağ müharibəsindən bəri 3900-ə yaxın Azərbaycan vətəndaşı itkin sayılır. Onların əksəriyyəti işgəncələrə məruz qalıb, öldürülüb və kütləvi məzarlıqlarda basdırılıb. Biz işğaldan azad edilmiş iki kənddə bu il kütləvi məzarlıqlar aşkar etmişik.

Ermənistan Azərbaycana itkin düşənlərin taleyi və kütləvi məzarlıqların dəqiq yerləri barədə məlumat təqdim etməlidir. Biz iki ilə yaxındır ki, bu məlumatı tələb edirik, ancaq Ermənistan hökuməti bunu Azərbaycanla bölüşməkdən imtina edir və bununla da özünü Ermənistanın əvvəlki rejimlərinin cinayətkar liderləri ilə assosiasiya edir.

Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İlkin hesablamalara görə, Ermənistan işğal zamanı 1 milyondan çox mina basdırıb. İkinci Qarabağ müharibəsinin başa çatmasından keçən iki il ərzində 250-dən çox Azərbaycan

vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il vaxt və 25 milyard ABŞ dolları lazımdır. Minalardan təmizlənmə ilə paralel, indi Azərbaycan həm də işğaldan azad olunmuş ərazilərdə öz resursları hesabına genişmiqyaslı quruculuq işləri aparır. Biz həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. Böyük Qayıdış proqramı artıq başlanıb.

Qarabağ münaqişəsinin həll olunmasına baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törətməkdə davam edir, bunlardan sonuncusu isə bu ilin sentyabr ayında törədildi. Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-həmlə əməliyyatına başlamağa məcbur oldu. Bütün bu təxribatlara görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində 1 milyondan çox azərbaycanlının 30 il ərzində əziyyət çəkməsinə, misli görünməmiş vəhşiliyə, yüzlərlə şəhər və kəndimizin dağıdılmasına baxmayaraq, Azərbaycan Ermənistana qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünün tanınması əsasında sülh sazişi imzalamağı təklif edib.

Hörmətli həmkarlar, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci

ilin ilk 9 ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb.

Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir.

2019-cu ildən bəri Azərbaycan üzv ölkələrin yekdil qərarı əsasında dünyada BMT-dən sonra ən böyük beynəlxalq struktur olan «Qoşulmama Hərəkatı»na sədrlik edir. Sədrliyimiz yenə də yekdil qərar əsasında daha bir il, 2023-cü ilin sonuna qədər uzadılıb.

Biz «Qoşulmama Hərəkatı» çərçivəsində həmrəyliyi gücləndirmək, bu Hərəkatın siyasi çəkisini və qlobal nüfuzunu artırmaq üçün böyük səylər göstəririk. Azərbaycan Hərəkatın bu məqsədlə təsisatlanması ideyasını fəal şəkildə təşviq edir. Bu baxımdan «Qoşulmama Hərəkatı»nın Azərbaycanın təşəbbüsü ilə yaradılmış Parlament Şəbəkəsi və Gənclər Təşkilatı qeyd edilməlidir. Biz COVID-19-dan sonrakı dünya ilə bağlı fikir mübadiləsi aparmaq və Hərəkatın mövqeyini formalaşdırmaq məqsədilə «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin növbəti il üçün yüksək səviyyəli iclasının keçirilməsini təklif etmişik. Sağ olun.

* * *

*Sonra digər dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.*

*Plenar iclasda AQEM-in tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi planları müzakirə olundu.*

*Növbəti iki ildə – 2022–2024-cü illərdə də AQEM-ə Qazaxıstan sədrlik edəcək.*

*Sonda Astana Bəyannaməsi və digər sənədlər qəbul edildi.*

*Əsas məqsəd və istiqamətləri Asiyada sülhün və təhlükəsizliyin təmin edilməsi üçün çoxtərəfli yanaşmaları inkişaf etdirməklə əməkdaşlığı gücləndirmək olan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə toplantısı AQEM-in çağırılması barədə təşəbbüsün 30-cu ildönümünə həsr edildi və Qazaxıstanın sədrliyi ilə keçirildi.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Astana*

*13 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin VI Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİ İLƏ GÖRÜŞ

*Astana*

*13 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 13-də Astanada İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur.*

*Görüşdən məmnunluğunu ifadə edən Prezident Seyid İbrahim Rəisi Azərbaycan Respublikasının İran İslam Respublikasının qonşuları sırasında ölkəsi üçün çox vacib tərəfdaş olduğunu diqqətə çatdırdı. Ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin səviyyəsindən məmnunluğunu bildirən İran Prezidenti qeyd etdi ki, İranın Azərbaycanla əməkdaşlığı hərtərəfli inkişaf etdirmək üçün ciddi niyyəti vardır.*

*Prezident İlham Əliyev Azərbaycanın Xəzər dənizində və Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdiyini vurğuladı.*

*Dövlət başçımız xüsusilə Xəzəryanı ölkələr arasında münasibətlərin dostluq əsasında inkişafından razılığını ifadə etdi.*

*Azərbaycanın müstəqil xarici siyasət həyata keçirdiyini vurğulayan Prezident İlham Əliyev bu il sentyabrın 12–13-də Ermənistanın regional vəziyyəti gərginləşdirmək istiqamətində təxribatlar törətdiyini diqqətə çatdırdı. Hazırda Cənubi Qafqazda sülh quruculuğu proseslərinin getdiyini söyləyən dövlət başçımız bildirdi ki, Azərbaycan irəli sürdüyü 5 prinsip əsasında Ermənistanla sülh müqaviləsinin imzalanmasını təklif edib. Dövlət başçımız Ermənistan tərəfindən siyasi iradə göstəriləcəyi təqdirdə, bu istiqamətdə irəliləyişə nail olmağın mümkünlüyünə inandığını qeyd etdi.*

*Görüşdə İranla Azərbaycan arasında Ağbənd körpüsünün açılışının həm rəmzi, həm də böyük praktiki əhəmiyyətinin olduğu qeyd edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparıldı.*

# QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ GÖRÜŞ

*Astana*

*13 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 13-də Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olmuşdur.*

**Kasım-Jomart Tokayev:** Hörmətli İlham Heydər oğlu, mən Sizə ilk növbədə, buraya səfər etdiyinizə, Zirvə toplantısının işində iştirak etdiyinizə, yekun nəticələrə nail olunmasına verdiyiniz müsbət töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Sözsüz ki, mən bunu dəyərləndirirəm. Siz, necə deyərlər, buna vaxt ayırmısınız.

Bizim ikitərəfli qarşılıqlı münasibətlərimizə gəlincə, gözəl Bakı şəhərinə səfərim zamanı göstərilən qonaqpərvərliyə görə təşəkkürümü bildirməkdən başlamaq istərdim.

Zənnimcə, bizim danışıqlar məhsuldar, maraqlı olub və deməliyəm ki, xaricdə siyasi, iqtisadi dairələrin diqqətini cəlb edib. Buna görə də Azərbaycanı müttəfiqimiz, strateji tərəfdaşımız hesab edirik, daim bu xəttə sadiq qalacağıq. Azərbaycan təkcə öz

regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır. Düşünürəm ki, bizim ortaq cəhətlərimiz çoxdur və ən müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmindəyik. Biz bu barədə Bakıda ətraflı danışmışıq.

Bu gün gündəlikdə Orta Dəhlizin inkişafı məsələsi durur. Dünən mənim Türkiyə Prezidenti ilə danışıqlarım oldu. O da həmçinin müvafiq qurumların rəhbərlərinin Bakıda keçirilmiş görüşünə dəfələrlə istinad etdi. Təbii ki, onlar bu iş formatının davam etdirilməsinə hədəflənib. Bizim tərəfimizdən hər hansı bir problem olmayacaq, əksinə, biz də bunda maraqlıyıq. Mən açıq çıxışlarımda Orta Dəhliz adlandırılan Trans-Xəzər marşrutu barədə həmişə danışmışam.

Bizim müxtəlif sahələrdə, o cümlədən humanitar sahədə ənənəvi əlaqələrimiz var və bunların hamısı davam edəcək. Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin adını daşıyan küçəni paytaxtımızda daha görkəmli yerə köçürməyin vacibliyindən danışmışıq. Yer müəyyənləşdirilibdir. Mən onu bəyənmişəm. Bu sadəcə, vaxt məsələsidir.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Kasım-Jomart Kemeleviç! Əvvəla, dəvətə görə təşəkkür edirəm. Qardaş Qazaxıstanda yenidən olmağıma çox şadam. Həmçinin keçirilmiş Zirvə toplantısının yaxşı nəticələri münasibətilə Sizi təbrik etmək istərdim. Bu, Qazaxıstanın beynəlxalq arenada oynadığı rolun və ölkənizin yüksək nüfuzunun daha bir nümayişidir.

Həmçinin sabah daha bir Zirvə toplantısı olacaq. Başa düşürəm ki, Sizin qrafikiniz nə dərəcədə gərgindir və bu mühüm hadisələrə hazırlıqla bağlı məsələlər çox vaxt aparır. Odur ki, görüşmək fürsətinə görə şadam.

Sizə Heydər Əlirza oğlu Əliyevin xatirəsinə dərin ehtiramınıza görə təşəkkür etmək istərdim. Biz Sizinlə bu barədə danışdıq. Mən qəbul edilmiş qərarlara görə minnətdaram, həmçinin Azərbaycana Sizin rəsmi səfərinizi və bizim görüşümüzü, danışıqlarımızı, həm ikitərəfli gündəlik, həm də regional problemlər üzrə hərtərəfli fikir mübadiləmizi səmimiyyətlə xatırlayıram. Zənnimcə, Sizin səfərinizdən sonra yaxşı nailiyyətlər, nəticələr var – biz indi bu barədə danışacağıq – həm nəqliyyat sahəsində, həm də digər sahələrdə. Orta Dəhlizin inkişafı ilə bağlı məsələlər zamanın hökmüdür. Yaxşı ki, həm Qazaxıstan, həm Azərbaycan buna hazır idi, çünki bizim ölkələrdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb və bu çox böyük həcmdə yükləri artıq bu gün daşımağa imkan verir. Lakin düşünürəm ki, gələcək infrastruktur planlarımızın əlaqələndirilməsi zamanı biz Trans-Xəzər marşrutunun buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə bundan sonrakı işləri sinxronlaşdıra bilərik. Bu bizim ölkələrin və xalqların marağında, uzunmüddətli maraqlarda, qonşuluğumuzdakı ölkələrin maraqlarında olacaq. Yəni bu mövzunun çox ciddi davamı olacaq.

Digər bütün məsələlər üzrə isə, Siz qeyd etdiyiniz kimi, bizim ölkələr müttəfiqdir, strateji tərəfdaşdır. Bu müttəfiqlik ortaq köklərə və ümumi maraqlara

əsaslanır. Sizi Zirvə toplantısının uğurla keçirilməsi münasibətilə bir daha təbrik etmək və qonaqpərvərliyə görə təşəkkür etmək istərdim.

* * *

*Görüşdə energetika, nəqliyyat-logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Həmçinin Azərbaycan–Türkiyə–Qazaxıstan üçtərəfli formatda keçirilən görüşlərin davam etdirilməsi barədə fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Astana*

*13 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 13-də Astanada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.*

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydər oğlu, Sizinlə bugünkü tədbir çərçivəsində indi görüşmək fürsətinə görə çox şadam. Biz Sizinlə müntəzəm olaraq görüşürük və həmişə nədənsə danışmağa mövzu var. Çünki çox müxtəlif istiqamətlər üzrə kifayət qədər geniş qarşılıqlı fəaliyyət mövcuddur. Rusiya Azərbaycanın aparıcı iqtisadi-ticari tərəfdaşlarından biri kimi qalmaqdadır və əmtəə dövriyyəsi artır. Məncə, ötən il 14 faiz artıb, bu ilin ilk 7 ayı ərzində 7 faizdən çox artıb. Bizim iqtisadi operatorlar Azərbaycan iqtisadiyyatına 4,5 milyard dollar sərmayə yatırıblar.

Hökumətlərarası birgə Komissiyanın həmsədrləri müntəzəm görüşürlər. İşlər sizin təklif etdiyiniz plan üzrə gedir. Düşünürəm ki, 2024-cü il də daxil olmaqla, sizin tərəfinizdən təklif olunmuş bir sıra

perspektivli, maraqlı layihələr üzrə gedir. Təbii ki, biz regionda vəziyyətin nizamlanması ilə bağlı məsələləri də həmişə diqqətdə saxlayırıq. Ümidvaram ki, bu məsələlər üzrə bir daha danışmaq fürsətindən də istifadə edəcəyik və mövqelərimizi dəqiqləşdirəcəyik.

**İ l h a m Ə l i y e v:** Vladimir Vladimiroviç, Sizi yenidən görməyimə çox şadam. Siz tamamilə haqlısınız, biz müntəzəm görüşürük, demək olar, bu yaxınlarda Sankt-Peterburqda, o görüşə qədər isə ötən ay Səmərqənddə. Bizim münasibətlər nə dərəcədə dinamik inkişaf etsə də, Siz dediyiniz kimi, bir çox məsələlər üzrə mövqelərimizi dəqiqləşdirməyə həmişə ehtiyac var. Biz ölkələrimiz arasında münasibətlərin inkişaf etməsinə görə çox şadıq. Fikrimcə, bu münasibətlər ən yüksək səviyyəyə – müttəfiqlik, qarşılıqlı fəaliyyət səviyyəsinə çatıb və biz bir çox məsələlər üzrə fəal surətdə irəliləyirik. Siz qeyd etdiniz və mən təsdiqləmək istəyirəm ki, iqtisadi-ticari əlaqələr üzrə əmtəə dövriyyəsində artım var. İndi müəyyən etdiyimiz və bundan əvvəlki görüşlərdə razılaşdırdığımız layihələr bizə qarşılıqlı ticarəti daha da artırmaq imkanı verəcək. Həmçinin nəqliyyat, energetika sahələrində və humanitar sahədə əməkdaşlıqla bağlı məsələlər. Biz bütün istiqamətlər üzrə müsbət dinamika görürük. Lakin hər bir görüşdə biz regionumuzda təhlükəsizliyə, sülhə nail olmaq məsələlərindən yan keçmirik. Bu gün də bu barədə danışacağıq. Biz uzunmüddətli sülhə hədəflənmişik və hesab edirik ki, nəhayət, bu sülhə nail olmaqdan ötrü

öz tərəfimizdən kifayət qədər konstruktiv tezislər təklif etmişik.

Beləliklə, görüşmək fürsətinə görə bir daha təşəkkür edirəm. Əminəm ki, bu görüş də çox məhsuldar olacaq. Sağ olun.

## QEYRİ-RƏSMİ NAHARDA İŞTİRAK

*Astana*

*13 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Astanada MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş qeyri-rəsmi naharda iştirak etmişdir.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*Astana*

*14 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir.*

*İclasda iştirak edən dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.*

*Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev iclası açıq elan etdi.*

*MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Sergey Lebedev gündəlikdə duran məsələlər barədə məlumat verdi.*

*Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Sağ olun, hörmətli Kasım-Jomart Kemeleviç!

Mən əvvəlcə, bizim regionda yaranmış vəziyyətlə bağlı həmkarlarımı məlumatlandırmaq istərdim.

Həmkarlarım yaxşı bilirlər ki, Azərbaycanın ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalı dövründə mən bu mövzunu MDB çərçivəsində heç vaxt müzakirəyə çıxarmırdım. Çünki münaqişənin nizamlanması mövzusu ilə ATƏT-in Minsk qrupu məşğul olurdu, o, mandata sahib idi. Təəssüf ki, 28 il ərzində Minsk qrupunun nəticəsi sıfıra bərabərdir. İndi göründüyü kimi, bu qurumun başlıca məqsədi münaqişənin nizamlanması yox, onun dondurulması idi. Danışıqların aparılması münaqişənin hələ uzun illər həll olunmaması üçün yalnız pərdə idi. Beləliklə, münaqişə həll olundu. Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, o cümlədən hər bir ölkənin özünümüdafiə hüququna malik olmasını nəzərdə tutan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq münaqişəni özü həll etdi.

Münaqişədən sonrakı vəziyyət müxtəlif cür inkişaf edir. Buna görə də həmkarlarımı son dövrlər ərzində baş verənlərlə bağlı məlumatlandırmaq istərdim. Sentyabrda – demək olar, bir ay bundan əvvəl Azərbaycan–Ermənistan sərhədi ərazisində silahlı toqquşmalar baş verdi. Bu silahlı toqquşmaların səbəbləri bəllidir – Azərbaycana münasibətdə terror, ilk növbədə, mina terroru və snayper terroru davam edir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın 250-dən çox vətəndaşı

əsasən işğal dövründə basdırılmış minaların partlaması nəticəsində ya həlak olub, ya da ciddi xəsarət alıb. Bizim tərəfimizdən Ermənistan istehsalı olan piyada əleyhinə 1400 mina aşkarlanıb. Bu minalar 2021-ci ildə Laçın rayonu ilə sərhəd ərazidə basdırılıb. Həmçinin Azərbaycanın bir hərbi mövqeyindən digərinə aparan yollar minalanıb. Silahlı toqquşmalar davam edib, aktiv faza maksimum 8 saat çəkib. Bəzilərinin hesab etdiyi kimi, Azərbaycan Ermənistan ərazisini işğal etmək niyyətində olmayıb. Nə bir şəhər, nə də bir kənd işğal olunmayıb. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində – mən bunu xüsusi vurğulamaq istərdim – məhz Rusiya tərəfi atəşkəs təklifi ilə çıxış etdi, bəziləri bunu başqa ölkələrə aid edirlər ki, bu da tamamilə əsassızdır. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində silahlı toqquşmalar, artıq dediyim kimi, dayandırıldı.

Oktyabrın 6-da «Avropa siyasi birliyi»nin yeni platforması çərçivəsində Praqada Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti, Ermənistanın baş naziri və Azərbaycan Prezidentinin iştirakı ilə dördtərəfli görüş təşkil olundu. Görüşdə bir neçə saat davam edən danışıqlar nəticəsində Ermənistan–Azərbaycan sərhədi yaxınlığında Ermənistan ərazisinə Avropa İttifaqının 40 nəfərdən ibarət mülki missiyasının göndərilməsi barədə qərar qəbul olundu. Sonradan bizə məlum oldu ki, onların sayı 50 nəfər olacaq. Onlar orada azı 2 ay olacaqlar. Bu missiyanın məqsədi, gördüyümüz kimi, tərəflərə sərhədlərin çəkilməsində, delimitasiya ilə bağlı mə-

sələlərin müəyyənləşdirilməsində kömək göstərməkdir. Bu səbəbdən biz buna razılıq verdik. Bu missiyanı Azərbaycan tərəfinə göndərmək barədə də cəhdlər oldu, ancaq bizim tərəfimizdən bu cəhdlər qətiyyətlə rədd edildi. Buna görə də missiya Ermənistan ərazisində, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının məsuliyyət zonasında yerləşəcək. Dünən Avropa nümayəndələrinin birinci qrupu bu missiyanın yerləşdirilməsini müəyyənləşdirmək üçün Ermənistana gedib.

Təəssüf ki, Azərbaycan dördtərəfli görüşün, o cümlədən Fransa Prezidentinin iştirakı ilə keçirilməsinə razılıq verməsinə baxmayaraq – Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyəti yoxdur, bəli, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın vasitəçilik missiyası var idi, lakin Qarabağ münaqişəsi nizamlandığına görə Minsk qrupunun xidmətinə heç bir ehtiyac yox idi, özü də bu xidmətlər, artıq dediyim kimi, əgər belə demək mümkündürsə, faydadan daha çox ziyan gətirən xidmətlər idi, Minsk qrupu heç bir iş görməyib, ərazimizin bir santimetr torpağı belə, azad edilməmişdi – Azərbaycan xoş məram göstərərək, Fransa Prezidentinə bu görüşdə iştirak etməyə icazə verdi. Avropa İttifaqı Şurasının Prezidentinin iştirakına gəlincə, bildiyiniz kimi, Brüsseldə artıq bir neçə üçtərəfli görüş keçirilib və prinsipcə, biz Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması işində Avropa İttifaqının səylərini həmişə dəstəkləmişik. Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş məramа baxmayaraq, Praqadakı

görüşdən, demək olar, bir həftə sonra Fransa Prezidenti təhqiramiz, qəbuledilməz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Bu bəyanatlar mətbuatda var, hər kəs onlarla tanış ola bilər. Bu bəyanatlarda o, Azərbaycanı dəhşətli müharibə törətməkdə günahlandırıb, bununla da faktları manipulyasiya edərək, Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib. Azərbaycan beynəlxalq səviyyədə tanınan öz ərazisində müharibə aparırdı. Qarabağ bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Biz özünümüdafiə hüququndan istifadə edərək, ərazi bütövlüyümüzü güc hesabına bərpa etdik.

Daha sonra bəyan edildi ki, Fransa heç vaxt Ermənistanı atmayacaq. Bu, ikitərəfli münasibətlər məsələsidir. Həmçinin Rusiya Federasiyasının ünvanına «Rusiya Azərbaycan oyununu oynadı» kimi qərəzli bəyanatlar səsləndirildi. Böyük ölkənin Prezidentinə küçə leksikonundan istifadə etməyin nə dərəcədə siyasi nəzakətə uyğun olmasını qoy Fransa ictimaiyyəti müəyyən etsin. Biz isə öz tərəfimizdən belə bəyanatları qəti surətdə pisləyirik, rədd edirik və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük.

Bundan başqa, Fransanın Xarici İşlər naziri Azərbaycanın əleyhinə yalan bəyanatlar verib, Fransa Senatı və aşağı palata İkinci Qarabağ müharibəsi dövründə qondarma «Dağlıq Qarabağ»ı tanıyan qətnamələr qəbul edibdir. Baxmayaraq ki, hətta Ermənis-

tan özü onu tanımayıb. Bizə məlumdur ki, noyabrın ortalarına Fransa Senatında Azərbaycan əleyhinə növbəti qətnamə hazırlanır. Beləliklə, təəssüf ki, Fransanın indiki rəhbərliyi əvvəlkilərdən fərqli olaraq – mənim isə Prezident Şirakla da, Prezident Sarkozi ilə də, Prezident Ollandla da kifayət qədər sıx ünsiyyət qurmaq imkanım var idi və münasibətlər kifayət qədər ölçülüb-biçilmiş, kifayət qədər mehriban idi və Fransada müəyyən erməni diasporu amilinə baxmayaraq, biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini balanslaşdırılmış qəbul edirdik – mahiyyət etibarilə bütün bunların üstündən xətt çəkdi. Buna görə də istərdim ki, həmkarlarımı bu vəziyyət barədə məlumatlandırım.

Daha sonra Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildi. Özü də birinci hücumdan sonra Fransa Prezidenti telefonda mənə vəd verdi ki, bunun təkrarlanmaması məqsədilə tədbir görüləcək. Lakin bunun doğru olmadığı ortaya çıxdı. Birinci vandalizm aktından və səfirliyin binasına soxulmaq cəhdindən sonra Azərbaycan səfirliyinin qarşısında qoyulmuş mühafizə götürüldü. Çox güman ki, bu, erməni tərəfi ilə razılaşdırılıb. Mühafizə götürülən kimi, ikinci basqın cəhdi oldu, təhqiramiz yazılar oldu, Azərbaycan səfirliyinə hücum edən özündən çıxmış radikalların izdihamı oldu. Bu, qətiyyən yolverilməzdir və bütün diplomatik konvensiyaların pozulması deməkdir.

Deməliyəm ki, həmçinin Ermənistan tərəfindən Azərbaycanın Livandakı və ABŞ-dakı səfirliklərinə qarşı da təxribatlar törədilib. Sonuncu təcavüz ak-

tının, terrorun da – Azərbaycanın ABŞ-dakı səfirliyinin avtomobilinə odlu silahdan atəş açılmasının görüntüləri var. Biz ABŞ-ın, Fransanın və Azərbaycanın terrora məruz qala biləcək diplomatik missiyasının mövcud olduğu digər ölkələrin hökumətlərini məsuliyyətli olmağa və beynəlxalq öhdəliklərini yerinə yetirməyə çağırırıq. Bizdə heç bir şübhə yoxdur ki, terror və vandalizm aktları Ermənistan tərəfindən təşkil edilib. Mən nə üçün bunu deyirəm? Çünki ötən əsrin 90-cı illərində erməni xüsusi xidmət orqanları tərəfindən 32 terror aktı – metroda, avtobuslarda, bərələrdə və qatarlarda partlayışlar törədilib. Bu terror aktları nəticəsində 2000-dən çox dinc azərbaycanlı həlak olub.

Postmünaqişə vəziyyətinin digər aspektlərinə gəldikdə, indi biz azad edilmiş ərazilərin bərpası ilə fəal məşğul oluruq. Hər şey dağıdılıb, görüntülər dərc edilib, arzu edənlər tanış ola bilərlər. 10000 $km^2$ ərazidə, demək olar, bir salamat bina qalmayıb, 67 məsciddən 65-i dağıdılıb. Müsəlmanların müqəddəs yerlərinin təhqir edilməsi, məscidlərdə donuz və inək saxlanılmasına dair görüntüləri internetdən də əldə etmək olar. Bütün bunlar Azərbaycan xalqına və bütün müsəlman dünyasına qarşı ifrat dərəcədə nifrətdən xəbər verir. Bunu ancaq belə başa düşmək olar.

Daha bir məqamı da qeyd etmək istərdim ki, 2020-ci ilin noyabrında Rusiya Federasiyasının vasitəçiliyi ilə üçtərəfli Bəyanat qəbul edilib. Azərbaycan bəyanatın bütün müddəalarını yerinə yetirir, o cümlədən Ermənistandan Qarabağa maneəsiz girişi təmin edir. Ermənistan bəyanatın özünə aid

hissəsini icra etmir. Məhz Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz girişi təmin etmir, halbuki bu onun hüquqi öhdəliyidir, həmçinin Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini indiyədək çıxarmayıb. Biz hələ ki, səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var. 2020-ci ilin noyabr Bəyanatının bu iki vacib bəndi icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq.

Sonda Qarabağ ermənilərinin taleyi barədə. Praqa görüşündə bu məsələ üzrə fikir mübadiləmiz oldu. Bizim mövqemiz aydın və dəqiqdir. Qarabağ Azərbaycandır. Qarabağın erməni əhalisinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək. Biz öz daxili məsələlərimizi heç bir tərəflə müzakirə etməyə hazırlaşmırıq. Praqa görüşünün yekunlarına əsasən də başa düşdüyüm qədər, bu mövzu dördtərəfli görüşün bütün iştirakçıları arasında hər hansı fərqli şəkildə qəbul edilməyib.

Diqqətinizə görə çox sağ olun. Mən həmkarlarımı baş vermiş hadisələr haqqında məlumatlandırmağı zəruri hesab etdim, çünki baş verənlər barədə müxtəlif versiyalar dolaşır. İstədim ki, siz bizim versiyamızı və yeganə həqiqi versiyanı mənim özümdən eşidəsiniz. Çox sağ olun.

**Kasım-Jomart Tokayev:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

* * *

*Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.*

*İclasda çıxış edən MDB İcraiyyə Komitəsinin sədri – icraçı katibi Sergey Lebedev MDB Dövlət Başçıları Şurasına sədrliyin Qırğızıstana keçdiyini bildirdi.*

*Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev «Mir» Teleradio Şurasının sədri Radik Batırşini MDB-nin diplomu ilə təltif etdi.*

*İclasda MDB-nin icraçı katibi vəzifəsinin adı dəyişdirilərək baş katib adlandırıldı. MDB İcraiyyə Komitəsinin sədri–icraçı katibi Sergey Lebedev baş katib vəzifəsinə seçildi.*

*Daha sonra sənədlər imzalandı.*

*Bununla da Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclası başa çatdı.*

## MDB DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Astana*

*14 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Astanada MDB dövlət başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri oktyabrın 14-də başa çatdı.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Nursultan Nazarbayev adına Beynəlxalq Hava Limanında dövlət başçımızı Qazaxıstanın Baş Naziri Əlixan Smailov və digər rəsmi şəxslər yola saldılar.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Bartın vilayətindəki mədəndə baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2022-ci il*

## İKİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ «QARABAĞIN BƏRPA, YENİDƏNQURMA VƏ İNKİŞAFI» – «REBUİLD KARABAKH» SƏRGİSİNİN VƏ 27-ci AZƏRBAYCAN BEYNƏLXALQ İNŞAAT SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Hörmətli xanımlar və cənablar!

Sizi sayca ikinci olan Azərbaycan Beynəlxalq «Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı» – «Rebuild Karabakh» Sərgisinin və 27-ci Azərbaycan Beynəlxalq İnşaat Sərgisinin açılışı münasibətilə salamlayıram.

Builki sərgi işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, milli iqtisadiyyata sürətli inteqrasiyası və dayanıqlı inkişafı, habelə bu istiqamətdə faydalı işgüzar əlaqələrin qurulması baxımından önəmlidir.

Qarabağ tarixən Azərbaycanın inkişaf etmiş bölgələrindən olub. Bu ərazilərin 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalması ilə barışa bilməyən Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi ədaləti – ərazi bütövlüyünü bərpa etdi. Şanlı Qələbənin əldə edilməsində birlik və həmrəylik göstərən xalqımız artıq öz Vətəninə, doğma Qarabağa bu torpaqlarda əbədi yaşamaq üçün qayıdır.

Postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, burada dayanıqlı məskunlaşma, habelə bölgənin yenidən ölkəmizin inkişaf etmiş guşəsinə çevrilməsi qarşıda duran ən mühüm məqsədlərdəndir.

Azərbaycan bütün gücünü bu ali məqsədin uğurla reallaşdırılmasına yönəldibdir. İşğaldan azad olunmuş ərazilərdə təhlükəsiz yaşayışın təmini, şəhər, qəsəbə və kəndlərin tikintisi, strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması, yerli və xarici dəyər zəncirlərinə inteqrasiya, habelə ətraf mühitin bərpası istiqamətində qabaqcıl nümunələr yaradılır. Zəngəzur dəhlizi layihəsinin reallaşdırılması isə regionu mühüm nəqliyyat-ticarət qovşağına çevirəcək. Bir sözlə, işğaldan azad edilmiş ərazilər sürətli şəkildə bərpa olunur, Böyük Qayıdışla bağlı hədəflərimiz uğurla reallaşdırılır.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri aparıcı biznes dairəsi ilə birgə əməkdaşlığa, dövlət–özəl tərəfdaşlığının, habelə regionda sabitliyin və inkişafın qorunmasına mühüm zəmin yaradır. Bu əsasda artıq ikinci dəfə təşkil edilən, müasir ideyalar, innovativ həllər və səmərəli təşəbbüslərlə zəngin olan «Rebuild Karabakh» Sərgisi faydalı işgüzar mühitin yeni modelini yaradacaqdır. Sərgi çərçivəsində qabaqcıl biznes subyektlərini yaranmış fürsətlərdən faydalanaraq, ərazilərimizin bərpasına dəstək olan bütün səylərini və yaradıcı ideyalarını bir araya gətirməyə dəvət edirəm. Əminəm ki, «Rebuild Karabakh» Sərgisi məhsuldarlığına və əldə olunmuş nəticələrə görə

maraqlı məqamlarla yadda qalacaq, sərgi çərçivəsində keçirilən görüşlər, müzakirələr və yeni təşəbbüslər işgüzar əlaqələr üçün əlverişli platforma olacaq, Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması naminə göstərilən bütün səylərin və təşəbbüslərin uğurla gerçəkləşməsinə öz töhfəsini verəcəkdir.

Bir daha hər birinizə səmərəli işgüzar günlər diləyir, sərginin işinə uğurlar arzulayıram.

Qarabağ Azərbaycandır!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2022-ci il*

## CƏBRAYIL VƏ QUBADLI RAYONLARINA SƏFƏR

*19 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl və Qubadlı rayonlarına səfər etmişlər.*

*Oktyabrın 19-da Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli–Cəbrayıl hissəsi istifadəyə verildi.*

*Dövlət başçısı açılışda iştirak etdi.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına Şükürbəyli–Cəbrayıl–Hadrut avtomobil yolunun texniki göstəriciləri və görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Dördzolaqlı yolun hərəkət hissəsinin eni 14 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Yolun üzərində yerləşən 6 körpünün tikintisi başa çatıbdır.*

*Məlumat verildi ki, həmçinin yol boyunca 45 dairəvi suötürücü boru, 49 ehtiyat keçid borusu, 25 düzbucaqlı suötürücü, 7 düzbucaqlı heyvan keçidi tikilib, 366 metr uzunluğunda beton, 1620 metr daş istinad divarları çəkilib, 18 avtobus dayanacağı quraşdırılıb. Bu yol Azərbaycan Respublikası Prezidentinin 2021-ci*

*il 29 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində inşa olunubdur.*

**«Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksinin layihəsi ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl rayonu ərazisində yaradılacaq «Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksinin layihəsi ilə tanış olmuşlar.*

*Dövlət başçısı və xanımı reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyranın buraxılması mərasimində də iştirak etdilər.*

*Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya kompleksdə görüləcək işlərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, Şirvan Milli Parkından gətirilmiş 18 baş ceyran Cəbrayıl rayonu ərazisinə fərdi reintroduksiya olunub. Proses bu il və gələn il də davam etdiriləcək.*

*Azərbaycan ərazisində ceyranların sayının kritik həddə azalması təhlükəsi nəzərə alınaraq, ceyran populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 2003-cü ildə Şirvan Milli Parkı yaradılıb.*

*Həyata keçirilən intensiv mühafizə tədbirləri nəticəsində Azərbaycanda ceyranların populyasiyası bərpa edilib. İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin – ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022–2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulubdur.*

**«Azərişıq» ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Cəbrayılda «Azərişıq» ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı yarımstansiya və İdarəetmə Mərkəzinin təməlini qoydu.*

*İnşa olunacaq Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq «Cəbrayıl» yarımstansiyasından qidalanacaq. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə olan tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçıya çatdırılmasında abonent məmnunluğunu təmin edəcək.*

*«Cəbrayıl şəhər» 35/0,4 kilovoltluq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi ilə «Hadrut» qovşaq yarımstansiyası arasında əlaqələndirmə xətləri çəkilməklə dairəvi təchizat sxemi yaradılacaq. «Qubadlı şəhər» 35/0,4 kilovoltluq yarımstansiyanı mərkəzlə birləşdirəcək ikidövrəli kabel xəttinin çəkilməsi Cəbrayıl və Qubadlı şəhərlərinin qarşılıqlı enerji mübadiləsinə imkan verəcək.*

*Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə istismar imkanına malik olacaq.*

### 330/110 kilovoltluq «Cəbrayıl» qovşaq yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da 330/110 kilovoltluq «Cəbrayıl» qovşaq yarımstansiyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, 4 ay əvvəl təməli qoyulmuş yarımstansiyada böyük həcmdə torpaq, tikinti-quraşdırma işləri görülüb, yeraltı kommunikasiyalar üçün kanallar inşa edilib, 330 və 110 kilovoltluq açıq paylayıcı qurğularda işlərin çox hissəsi yekunlaşıb, Rəqəmsal İdarəetmə Mərkəzinin binası tikilibdir.*

*«Cəbrayıl» qovşaq yarımstansiyasının əhəmiyyəti barədə məlumat verən Baba Rzayev bildirdi ki, Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı elektrik enerjisi ilə təchizatını təmin etmək, həyata keçiriləcək meqalayihələrin tələbatını qarşılamaq, Cəbrayıl–Naxçıvan–Ağrı(Türkiyə) yarımstansiyaları, oradan isə Türkiyənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq mümkün olacaq. O cümlədən İranla müştərək tikilmiş «Xudafərin» və «Qız qalası» su-elektrik stansiyalarında, həmçinin alternativ və bərpa olunan enerji mənbələrində və kiçik su-elektrik stansiyalarında istehsal ediləcək enerjini Azərbaycanın ümumi enerji sisteminə ötürmək üçün 330 kilovoltluq «Cəbrayıl» yarımstansiyasının tikilməsi olduqca mühüm hadisədir.*

*Bir çox dövlətlərin marağında olduğu və beynəlxalq əhəmiyyət kəsb edən Azərbaycan–Türkiyə–Avropa ölkələrarası beynəlxalq layihənin reallaşdırılması üzrə 3 mərhələdən ibarət planlaşdırma aparılıb. Bunun üçün birinci mərhələdə istismar müddətini keçən və işğaldan azad edilmiş ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq «Ağcabədi» və «İmişli» yarımstansiyalarının genişləndirilərək tam yenidən qurulması və «Ağcabədi» yarımstansiyasından 132 kilometr, «İmişli» yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksəkgərginlikli elektrik verilişi xəttinin çəkilməsi nəzərdə tutulub. Artıq «Ağ-*

*cabədi» yarımstansiyasından Cəbrayıla 330 kilovolt-luq xəttin çəkilməsinə başlanılıb.*

*Eyni zamanda, Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyasında işlərin böyük hissəsi görülüb.*

*İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün «Cəbrayıl» qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə, muxtar respublikaya 255 kilometr uzunluğunda iki-dövrəli elektrik verilişi xətti çəkiləcək və 330 kilo-voltluq «Naxçıvan» yarımstansiyası tikiləcək.*

*Üçüncü mərhələdə Azərbaycan, Naxçıvan, Türki-yə və Avropa enerji qovşağının yaradılması üçün muxtar respublikanın qardaş ölkəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirmək üçün əlavə Av-ropa enerji standartlarına uyğun 400 kilovoltluq çe-virici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr uzunluğunda ikidövrəli elek-trik verilişi xətti çəkiləcək. Bununla da böyük strate-ji əhəmiyyətə malik layihə reallaşdırılacaq.*

*Tədbirdə Azərbaycan enerji sisteminin ixrac və tranzit perspektivləri haqqında təqdimat nümayiş olundu. Bildirildi ki, Prezident İlham Əliyevin 2022-ci ilin 6 ayının yekunlarına həsr olunmuş müşavirədə ölkənin elektrik enerjisi üzrə ixrac potensialının 1000 meqavatdan 5000 meqavata çatdırılması barə-də tapşırığına uyğun olaraq, «Azərenerji» tərəfindən müvafiq araşdırmalar aparılıb, ilkin razılaşmalar əl-də edilibdir.*

## QUBADLIDA ZABUXÇAY VƏ BƏRGÜŞADÇAY SU ANBARLARININ LAYİHƏLƏRİ İLƏ TANIŞLIQ

*19 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qubadlı rayonu ərazisində yaradılacaq Zabuxçay və Bərgüşadçay su anbarlarının layihələri ilə tanış olmuşdur.*

*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlət başçısına layihələr barədə məlumat verdi.*

*Bildirildi ki, bu layihələr Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın 21-ci iclasında Zabux çayının Həkəri çaya birləşdiyi yerdən aşağı hissədə su anbarının yaradılması və magistral boru kəmərinin tikintisi məqsədilə verilmiş tapşırıqların icrası olaraq ASC tərəfindən hazırlanıb.*

*ASC tərəfindən Türkiyə Respublikasının «Suyapı» məsləhətçi şirkəti dəvət edilərək, Zabux çayının Həkəri çaya birləşdiyi yerdən aşağı hissədə su anbarının və ondan ayrılacaq magistral kanalların (Laçın–Qubadlı–Zəngilan) yaradılması məsələsi üzrə müvafiq araşdırmalar aparılaraq təkliflər hazırlanıbdır.*

*Araşdırmalar əsasında layihələrdə nəzərdə tutulan ümumi ərazisi 12100 hektar olan əkin sahəsinə sa-*

*niyədə 6,18 kubmetr suyun mütəmadi verilməsi üçün tutumu 26,7 milyon kubmetr olan su anbarının yaradılması daha münasib hesab edilib. Su anbarının hündürlüyü 40 metr, uzunluğu 615 metr olan torpaq benddən yaradılması təklif edilib.*

*Zabux çayının suyunun yeni su anbarında tənzimləməklə uzunluğu 49 kilometr olan polad boru xətti ilə Qubadlı və Zəngilan rayonlarında yerləşən torpaq sahələrinə verilməsi, eyni zamanda, layihədə subasar zonadan avtomobil yolunun kənarlaşdırılaraq yeni yolun çəkilməsi və bəndyanı su-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur.*

*Nəticə etibarilə Qubadlı və Zəngilan rayonları ərazisində «Dost Aqro» şirkətinin 1900 hektar, «Azərsun» MMC-nin 3300 hektar, «AzərAqrar» şirkətinin 2500 hektar, «Aqrovay» şirkətinin 2700 hektar, «Dost Ziraat Heyvandarlıq» şirkətinin 1700 hektar əkin sahəsi suvarma suyu ilə təmin oluna bilər.*

*Bərgüşadçay su anbarının yeri isə topoqrafik və mürəkkəb geoloji şərait nəzərə alınmaqla, ən optimal variant olaraq Qubadlı şəhərindən yuxarıda – Bəxtiyarlı kəndinin yaxınlığında yaradılması təklifi qəbul edilib.*

*Ümumi sututumu 67 milyon kubmetr olan bu su anbarı vasitəsilə Qubadlı rayonu ərazisində 12000 hektar sahənin suvarma suyu ilə təmin edilməsinin və açıq kanal, yaxud təzyiqli boru vasitəsilə «Qız qalası» hidroqovşağından su götürəcək magistral kanalın qidalandırılması üçün isə saniyədə 10 kubmetr suyun verilməsinin mümkünlüyü müəyyən edilib. Su anbarından suyun təzyiqli boru kəməri ilə veriləcəyi halda*

*ümumi gücü 30 meqavat olan 3 su-elektrik stansiyasının quraşdırılması mümkün olacaqdır.*

**«Azərişıq» ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qubadlıda «Azərişıq» ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı yarımstansiya və İdarəetmə Mərkəzinin təməlini qoydu.*

*Qubadlı şəhərində inşa ediləcək Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq «Qubadlı» yarımstansiyasından qidalanacaq. Mərkəz Qubadlı şəhərinin elektrik enerjisinə tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarə edilməsini həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində müasir dispetçer idarəetmə sistemi və rəqəmsal şəbəkə modeli tətbiq ediləcək.*

*«Qubadlı şəhər» 35/0,4 kilovoltluq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi ilə «Cəbrayıl şəhər» 35/0,4 kilovoltluq yarımstansiya əlaqələndirmə xətləri qurulmaqla, «Hadrut» qovşaq yarımstansiyaları arasında dairəvi təchizat sxemi təmin ediləcək. Eyni zamanda, «Qubadlı şəhər» və «Cəbrayıl şəhər» 35/0,4 kilovoltluq yarımstansiyaları arasında nəzərdə tutulmuş ikidövrəli kabel xəttinin çəkilməsi ilə Qubadlı və*

*Cəbrayıl şəhərlərinin qarşılıqlı enerji mübadiləsi təmin olunacaq.*

*Qubadlı Rəqəmsal İdarəetmə Mərkəzində «yaşıl enerji» mənbələrinin qurulması nəzərdə tutulub. Mərkəzin dispetçer idarəetmə sistemi həm mərkəzləşdirilmiş, həm də müstəqil funksional rejimlərdə işləmək imkanına malik olacaq.*

## Qubadlı şəhərinin baş planı ilə tanışlıq, İşğal və Zəfər muzeyləri Kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Qubadlı şəhərinin baş planı ilə tanış olmuş, İşğal və Zəfər muzeyləri Kompleksinin təməlini qoymuşlar.*

*Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlət başçısına və xanımına Qubadlı şəhərinin baş planı barədə məlumat verdi.*

*Bildirildi ki, baş plan bu sahədə böyük təcrübəyə malik İsveçrənin «S.A.Partners» şirkəti və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.*

*Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tap-*

*dığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.*

*Baş planın əsasında insanların yenidən təbiətlə qovuşması, komfortlu qonşuluq ərazilərinin təşkili, canlı rayon mərkəzi və sakit hərəkət strategiyaları dayanır. Qubadlının təbii imkanları nəzərə alınaraq, şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib. Baş planda şəhərin gündəlik həyat dinamikasını təmin etmək üçün müxtəlif zonalar arasında sıx bağlantıların təşkilinə xüsusi önəm verilib və bu məqsədlə əsas mərkəzi hissədə su kanalı boyunca piyada küçəsi, istirahət yerləri və interaktiv məkanlar nəzərdə tutulub. Sənədin başlıca konseptual əsaslarından olan nəqliyyat strategiyası isə aşağı sürətli hərəkət prinsipi üzərində qurulub.*

*Şəhərdə piyada hərəkətinin prioritet olduğu küçələr, ictimai nəqliyyatın mübadilə mərkəzi və parklanma üçün ərazilər müəyyən edilib.*

*Baş plana əsasən, şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaq. Orta mərtə-*

*bəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcək. Şəhərin planlaşdırılması zamanı tətbiq edilmiş su ilə qovuşan və suya həssas şəhər («Sponge city»)yanaşması yağıntıların şəhər mühitinə mənfi təsirinin azaldılmasını, su təchizatı üçün optimal həllərin təşkilini, habelə su ehtiyatlarından səmərəli istifadəni özündə ehtiva edir. Nəticədə şəhərin biomüxtəlifliyi üçün münbit şəraitin yaradılması və Qubadlının gözoxşayan yaşıl bir məkana çevrilməsi nəzərdə tutulur.*

*Şəhər ərazisində ümumi məşğulluğun təmin edilməsi bir neçə istiqamətdə aparılacaq. Yaxın 20 illik perspektiv üçün Qubadlıda bitkiçilik və ekoloji kənd təsərrüfatı, balıqçılıq və balıqyetişdirmə, müasir sənətkarlıq, yüngül sənaye, təbiət əsaslı aqro-turizm və digər sahələrin inkişafı planlaşdırılır. Beləliklə, şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə ediləcək, yaşıl şəhər obrazı yaradılacaq.*

*Qubadlı İşğal və Zəfər muzeyləri Kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək. Bu ərazi çox strateji mövqedədir, əsas yol şəbəkəsinə və nəqliyyat qovşağına yaxındır. Həmçinin Həkəri çayını əhatə edən təbii yaşıllıq zolağının bir hissəsi kompleksin ərazisinin şimal hissəsini təşkil edəcək, bu da öz növbəsində, kompleksin heyrətamiz təbii mühitdə inşasına imkan yaradacaq. Çayın bir hissəsi kompleksin əra-*

*zisindən keçdiyi üçün Zəfər Muzeyi və İşğal Muzeyinin gözəl mənzərəli körpü vasitəsilə simvolik olaraq bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur.*

*Həkəri çayı üzərində salınmış Laləzar körpüsü kimi bir çox qədim körpülər və Qubadlı ərazisində aşkarlanmış daş qoç fiqurlarında təsvir olunan spiralvarı buynuzlar layihə konsepsiyasının əsas ilham mənbəyini təşkil edir. İşğal Muzeyinin binası kiçik çayın sağ sahilindən yüksələn spiralvarı yoldan başlanır. Bu yol binanın sahəsi boyunca spiral şəklində fırlanır, sonra çayın üzərindən davam edərək, gözəl mənzərəli körpüyə çevrilir və çayın sol sahilində Zəfər Muzeyinə birləşərək, spiralvarı pilləkəndə tamamlanır.*

*Qubadlı İşğal Muzeyinin interyeri binanın spiralvarı forması ilə səciyyələnir. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaqdır. Muzeydə işğala qədər Qubadlıda əhalinin gündəlik həyatı, şəhərin işğalı və həmin hadisələrin şahidlərinin xatirələri, dağıdılmış irs və işğaldan sonra ərazinin məruz qaldığı vandallıq əyani olaraq nümayiş etdiriləcək. Muzey binasının sonuncu mərtəbəsində isə ziyarətçilərin istirahəti üçün yaşıllıqlardan ibarət terras təşkil olunacaq.*

*Zəfər Muzeyinin interyeri də dairəvi formada olacaq. Birinci mərtəbədə yerləşən sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılmış Zəfərə, o cümlədən «Dəmir yumruq» əməliyyatına həsr olunacaq. İkinci mərtəbədə vizual texnologiyalar vasitəsilə Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirən və qəhrəmanlarımız haqqında məlumatların təqdim olunduğu ekspozisiya yara-*

*dılacaq. Həmçinin muzeydə müxtəlif sərgilərin keçirilməsi üçün xüsusi zal fəaliyyət göstərəcək. Buradan ziyarətçilər həm pilləkənlə, həm də lift vasitəsilə üst mərtəbədə yerləşən və müxtəlif mədəni tədbirlərin təşkili üçün nəzərdə tutulan açıq səma altındakı amfiteatra qalxa biləcəklər.*

*Bu muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən, haqq səsimizi dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İşğal və Zəfər muzeyləri Kompleksinin təməlini qoydular.*

## ZƏNGİLAN RAYONUNDA AĞALI KƏND ORTA MƏKTƏBİNİN ŞAGİRD-MÜƏLLİM KOLLEKTİVİ VƏ SAKİNLƏRLƏ GÖRÜŞ

*19 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan rayonunda olmuşlar.*

*Dövlət başçısı və xanımı Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşdülər.*

*Dövlət başçısı Ağalı kənd məktəbində təhsil alan şagirdləri salamladı.*

**İlham Əliyev:** Uşaqlar, gedək məktəbi göstərin mənə.

**Mehriban Əliyeva:** Bəlkə əvvəl şəkil çəkdirək?

**İlham Əliyev:** Şəkil çəkdirək, elə məktəbin önündə.

**Mehriban Əliyeva:** Gəlin şəkil çəkdirək.

**İlham Əliyev:** Gedək, göstərin məktəbinizi, sinif otaqlarına baxaq, görək uşaqlar burada necə oxuyurlar. Sən neçənci sinifdə oxuyursan?

**Şagird:** Altıncı sinifdə.

**İlham Əliyev:** Əvvəl harada oxuyurdun?

**Şagird:** Sumqayıtda 30 saylı tam orta məktəbdə.

**İlham Əliyev:** Bəs sən?

**Şagird:** Mən də Sumqayıtda.

**İ l h a m Ə l i y e v:** Sən də Sumqayıtda. Bəs sən?

**Ş a g i r d:** Mən də Sumqayıtda 15 saylı tam orta məktəbdə.

**D i g ə r ş a g i r d:** Mən Mərdəkanda 181 saylı tam orta məktəbdə.

**İ l h a m Ə l i y e v:** İndi necə? Ağalı kəndi xoşunuza gəlir?

**Ş a g i r d l ə r:** Bəli.

**İ l h a m Ə l i y e v:** Çox gözəl. Uşaqlar həvəslə oxuyurlar?

**M ü ə l l i m ə:** Əlbəttə, çox böyük həvəslə. Ümumiyyətlə, məktəbə gəldikləri vaxt buranı gördükdə inanın ki, o qədər çox gözəl hisslər yarandı. Sevinirdilər ki, çox gözəl məktəbdə təhsil alacaqlar.

**İ l h a m Ə l i y e v:** Uşaqlar gəliblər öz dədə-baba torpaqlarına. İndi görürsünüz, necə də gözəldir sizin doğma torpağınız, Vətəniniz, Ağalı kəndi.

**Mehriban Əliyeva:** Soruşuram, Sumqayıtdan daha gözəldir? Deyir, bəli.

**İ l h a m Ə l i y e v:** Sumqayıt da gözəl şəhərdir, böyük şəhərdir. Amma buranın xüsusi gözəlliyi var, təbiət, hava, iqlim.

**Ş a g i r d:** Bura Sumqayıtdan daha qəşəngdir. Buranın havası daha yaxşıdır.

**İ l h a m Ə l i y e v:** Bax, sizi biz qaytarmışıq, havası da təmizdir, təbiəti də gözəldir, hər tərəf dağlar, meşələr. Burada həyat qaynayacaq. Bir azdan sonra başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynlə-

riniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu yəqin ki, Ağalını heç görməyiblər. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı. Sizin burada olmağınız onu göstərir ki, biz azad edilmiş torpaqları tezliklə abadlaşdıracağıq və bu gün hələ də Sumqayıtda, Bakıda, digər rayonlarda yaşayan keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdacaqlar, burada quracaqlar, yaşayacaqlar, uşaqlar böyüdəcəklər.

**Şagirdlər:** İnşallah.

**İlham Əliyev:** Siz də yaxşı oxuyun. Çünki yaxşı oxumaq təkcə sizin üçün yox, ölkəmiz üçün lazımdır. Çünki sizin kimi uşaqlar gələcəkdə ölkəmizi idarə edəcəklər. Ona görə gərək siz bilikli olasınız, savadlı olasınız, həmişə vətənpərvər olasınız. Vətənpərvər olmaq üçün hər bir Azərbaycan vətəndaşının çox böyük haqqı var. Çünki biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın. Sabah Zəngilanın, Zəngilan şəhərinin azad olunmasının ikinci ildönümüdür. Zaman tez keçir, ancaq artıq böyük quruculuq işləri görülür. Sizin əsas vəzifəniz oxumaqdır, valideynlərin, müəllimlərin sözünə baxmaqdır və gələcəkdə yaxşı vətəndaş olmaqdır.

**Mehriban Əliyeva:** Dərslərdən sonra nə edirsiniz? Burada hava yaxşıdır, yəqin bayırda oynayırsınız, görüşürsünüz. Orada – Sumqayıtdakı məktəbdə qalan dostlarınızla yəqin ki, ünsiyyətiniz var, danışırsınız. Onları da dəvət etmək olar, hərdənbir gəl-

sinlər, sizə dəysinlər. Burada işlər gedir. Haradadır sizin evləriniz? Buradan görünür sizin evlər?

**Ş a g i r d:** Bəli, bizim ev görünür, ikimərtəbəlidir.

**M e h r i b a n  Ə l i y e v a:** Oradakı ikimərtəbəli?

**Ş a g i r d:** Bəli.

**İ l h a m  Ə l i y e v:** Darıxmırsınız burada?

**Ş a g i r d l ə r:** Xeyr.

**M e h r i b a n  Ə l i y e v a:** Gözəl qızlar.

**Məktəbli qız:** Siz daha gözəlsiniz. Hələ də inanmıram ki, Sizinlə görüşürəm, həyəcanlandım.

**M e h r i b a n  Ə l i y e v a:** Azərbaycanın işğaldan azad olunmuş belə bir gözəl yerində belə gözəl qızlarla bir yerdə olmaq mənim də çox böyük arzum idi.

**M ə k t ə b l i  q ı z:** Deyə bilərəm ki, qalereyamdakı fotoların çoxu Sizin şəklinizdir.

**M e h r i b a n  Ə l i y e v a:** Eləmi? Şəkil çəkirsən?

**M ə k t ə b l i  q ı z:** Xeyr, ümumiyyətlə, hərdənbir.

**M e h r i b a n  Ə l i y e v a:** Çalışacağam tez-tez gəlim sizin yanınıza, inşallah.

**İ l h a m  Ə l i y e v:** Gedək kəndin mərkəzinə baxaq.

**S a k i n:** Biz Ağalı sakinləri üçün Sizin sayənizdə çox gözəl, möhtəşəm şərait yaradılıb. Çox sağ olun, var olun həmişə.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı ki, qayıdıblar və qayıdırlar da. Görürəm, uşaqlar da həvəslə, ürəkdən deyirlər, çox sevinirlər ki, burada yaşayırlar. Buraya gələnlər işlə təmin olunublar?

**S a k i n:** Bəli, hörmətli cənab Prezident. «Kapital Bank», «ASAN xidmət».

**İ l h a m  Ə l i y e v**: İşləyirlər orada?

**S a k i n:** Bəli. Xəstəxana, «Gil MED» fəaliyyət göstərir. Çox gözəldir, möhtəşəmdir.

**İ l h a m Ə l i y e v:** Qonaqlar da gəlirlər buraya, xarici nümayəndələr.

**S a k i n:** Xarici qonaqlar da gəlirlər, bəli. Dünyanın ən qabaqcıl ölkələrindən qonaqlarımız olur, çəkilişlər olur. Bu bizi sevindirir.

**İ l h a m Ə l i y e v:** Bəli, bəli, bilirəm. Onlar da görürlər ki, biz artıq qayıtmışıq.

**S a k i n:** Kəndimiz çox gözəldir, çox sağ olun. Hər bir sakin deyir ki, Allah Prezidentimizin canını sağ eləsin.

**İ l h a m Ə l i y e v:** İnşallah, bütün şəhərlər, kəndlər belə olmalıdır.

**S a k i n:** İnşallah, Sizin sayənizdə. Çox sağ olun, hörmətli cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, bu, birinci layihədir, davamı da gəlir.

**D i g ə r s a k i n:** Sizi xoş gördük, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Xoş gördük, necəsiniz?

**S a k i n:** Xoşbəxtəm ki, Sizinlə görüşmək mənə nəsib oldu. 1990-cı ildən mənim üç balam mülki şəhiddir.

**İ l h a m Ə l i y e v:** Allah rəhmət eləsin.

**S a k i n:** Özüm də Zəngilanda müəllim işləmişəm, yoldaşım da. Sizin hamınıza böyük hörmətimiz var.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** Allah ulu öndərimizə rəhmət eləsin, sizləri var eləsin. Siz ki, bizə bu şəraiti yaratmısınız, bu gün biz gəlib burada nəfəs alırıq, çox şükür, ordumuz var olsun. Allah ordumuzu qorusun! Allah

şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** Amin. Sağ olun. Burada yaşayışınız, necədir? Şərait necədir?

**S a k i n:** Yaxşıdır, əladır. Düzü mən hələ ev almamışam.

**İ l h a m Ə l i y e v:** Eviniz yoxdur hələ?

**S a k i n:** Mənə Sumqayıtda ev veriblər, hələ oradayam. İndi deyirlər ki, sizin növbəniz çatanda verəcəyik.

**İ l h a m Ə l i y e v:** Özünüz Ağalıdansınız?

**S a k i n:** Bəli, Ağalıda müəllim işləmişəm.

**İ l h a m Ə l i y e v:** Sizə mütləq ev verilməlidir.

**S a k i n:** Çox sağ olun, Allah razı olsun. Əksəriyyəti mənim şagirdlərimdir.

**İ l h a m Ə l i y e v:** Sizə də hələ verilməyib?

**S a k i n:** Bizə ikimərtəbəli ev verilib.

**İ l h a m Ə l i y e v:** Necədir, razısınız?

**S a k i n:** Çox razıyıq, hər şey yaxşıdır, əladır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, uşaqlar da razıdırlar. Mən soruşuram, uşaqlar, razısınız? Deyirlər, bəli. Sumqayıta qayıtmaq istəmirlər.

**S a k i n:** Ayaqlarım tutulmuşdu, həqiqətən, mən buraya gələndən ayaqlarım bir az açılıb, yeriyə bilirəm. Havası da, suyu da gözəldir.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, gözəldir, doğma torpağı, havası, suyu – hər şeyi.

**M e h r i b a n Ə l i y e v a:** Hər şeyi gözəldir.

**S a k i n:** Siz də hamıdan gözəlsiniz. Allah Sizdən razı olsun.

**M e h r i b a n Ə l i y e v a:** Çox sağ olun.

**S a k i n:** Mehriban xanım, salam, necəsiniz? Xoş gəlmisiniz kəndimizə.

**İ l h a m Ə l i y e v:** Salaməleyküm.

**S a k i n:** Cənab Prezident, Sizinlə görüşmək istəyirəm, olar?

**İ l h a m Ə l i y e v:** Salam, nə var, nə yox, necəsən?

**S a k i n:** Sizinlə fəxr edirik, cənab Prezident! Sizin uğurlu siyasətinizlə fəxr edirik.

**İ l h a m Ə l i y e v:** Necə yaşayırsınız?

**S a k i n:** Gözəl yaşayırıq. Allah Sizə dəyməsin, başımızın üstündən əskik etməsin.

**İ l h a m Ə l i y e v:** Sağ ol.

**S a k i n:** Ümummilli liderimiz Heydər Əliyevə Allah qəni-qəni rəhmət eləsin. Allah Sizə dəyməsin, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Sağ ol. Sən əvvəl harada yaşayırdın?

**S a k i n:** Mən Ağcabədi rayonunda yaşayırdım, burada işləyirəm.

**İ l h a m Ə l i y e v:** Özün bu kənddənsən?

**S a k i n:** Xeyr, Ağcabədi rayonundanam.

**İlham Əliyev:** Burada hansı sahədə işləyirsən?

**S a k i n:** Hazırda «Xan çinar»da ofisiant işləyirəm. Sizə təşəkkür edirəm ki, bizə belə günlər yaşadırsınız. Minnətdarıq, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, sağ ol.

**S a k i n:** Salam, xoş gördük, cənab Ali Baş Komandan, Sizə təşəkkür etmək istəyirəm.

**İ l h a m Ə l i y e v:** Salam, sizinlə görüşmüşdük.

**S a k i n:** Keçən görüşümüzdə Sizə söz verdiyim kimi, burada vətəndaşlarımıza hüquqşünas olaraq

xidmət göstərirəm. Bəli, hazırda prokurorluğa qəbulun birinci mərhələsini keçmişəm. Növbəti mərhələyə hazırlaşıram. İnşallah, xeyirlisi.

**İlham Əliyev:** Burada işləyirsiniz, yoxsa yaşayırsınız?

**Digər sakin:** Yaşayırıq.

**İlham Əliyev:** Ev veriblər?

**Sakin:** Bəli, torpaq sahəli.

**İlham Əliyev:** Razısınız?

**Sakin:** Min şükür.

**İlham Əliyev:** O vaxt burada yaşayırdınız?

**Sakin:** Bəli.

**İlham Əliyev:** Bəs sonra harada yaşayırdınız?

**Sakin:** Bakıda yaşayırdıq.

**İlham Əliyev:** Deyəndə ki, Ağalıya gəlmək olar, bunu necə qarşıladınız? Həvəslə?

**Sakin:** Göz yaşları ilə çıxmışdıq, sevinc göz yaşları ilə qayıtdıq. Bu günümüzə min şükür.

**İlham Əliyev:** Allaha şükür.

**Sakin:** Allah Sizi həmişə var eləsin.

**İlham Əliyev:** Siz harada yaşayırdınız?

**Sakin:** Elə bu kənddə.

**İlham Əliyev:** Bəs işğal dövründə harada yaşayırdınız?

**Sakin:** İşğal dövründə orduda idim, döyüşdə idim. 1996-cı ildə tərxis olub Bakı şəhərində yaşadım.

Şükür Tanrıya, o qədər buranın arzusunda idik, o qədər buranın duasında idik. Allaha min şükür.

**Digər sakin:** Həsrətini çəkirdik. Prezidentimizin sayəsində biz torpaqlarımızda çox gözəl şəraitdə yaşayırıq.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, mən deyirdim ki, biz mütləq qayıdacağıq. Deyirdim ki, öz torpaqlarımıza qayıdacağıq və qayıtdıq. İndi burada yaşayırıq. Sizin də qayıdışınız bunu göstərir ki, keçmiş köçkünlərin hamısı öz doğma torpaqlarına qayıdacaq. Çünki bəziləri hesab edirdilər ki, indi 30 il keçib, heç kim qayıtmaz. Amma baxın, görün, siz də qayıtmısınız.

**S a k i n:** Biz buranın həsrəti ilə yaşayırdıq.

**İ l h a m Ə l i y e v:** Bəli, indi buralar əvvəlkindən də gözəl olub.

**S a k i n:** Çox gözəl olub. İndi müasir şəraitə də uyğunlaşmışıq, çox sağ olun. Allah Sizi var eləsin.

**İ l h a m Ə l i y e v:** Bəli, şərait yaxşıdır. İndi bütün xidmətlər də var.

**S a k i n:** İkinci dəfədir Sizinlə görüşürük. Gözəl Prezidentimizlə fəxr edirik. Mənim oğlum da, yoldaşım da burada xidmət edib.

**İ l h a m Ə l i y e v:** Hərbidə olub?

**S a k i n:** On ildir hərbçidir. Cəbrayılda yaralanmışdı. Sizin sayənizdə bizə burada ev veriblər. Çox minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Burada xoşbəxt yaşayın.

Nə gözəl baladır. Neçə yaşı var?

**S a k i n:** On aylıqdır.

**İ l h a m Ə l i y e v:** Gələcək bax, budur.

**S a k i n:** Bəli. Sizin sayənizdə. Çox sağ olun, hər şeyə görə təşəkkür edirik. Belə gözəlliklərə, bizim qayğımıza qaldığınıza görə çox sağ olun, cənab Prezident. Bizə belə şərait yaratmısınız.

**İlham Əliyev:** Bu uşağa böyüyəndə danışarsınız ki, hansı əziyyətdən keçmisiniz.

**Sakin:** Mütləq. Biz Sizinlə qürur duyuruq. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Doğma Vətənində böyüyəcək.

**Sakin:** Bəli, həqiqətdir.

**Digər sakin:** Yeni Ağalının təməli qoyulan gündən oğlum burada işləyir.

**İlham Əliyev:** İnşaatda işləyir?

**Sakin:** Bəli.

**İlham Əliyev:** Burada vəziyyət necədir, yaxşıdır?

**Sakin:** Yaxşıdır, əladır.

**Müəllimə:** Cənab Prezident, olarmı müəllim kollektivi ilə şəkil çəkdirək?

**İlham Əliyev:** Əlbəttə, çəkdirək. Müəllimlər də Ağalıdandırlar?

**Müəllimə:** Bəli.

**İlham Əliyev:** Necə yaşayırsınız burada?

**Sakin:** Sağ olun, çox yaxşı.

**İlham Əliyev:** İşləyirsinizmi?

**Sakin:** Mən burada işləyirəm.

**İlham Əliyev:** Harada, hansı sahədə işləyirsiniz? Kafedə?

**Sakin:** Bəli, Allah köməyiniz olsun, həmişə var olasınız.

**Digər sakin:** Cənab Prezident, xoş gəlmisiniz!

**İlham Əliyev:** Salam, xoş gördük.

**Sakin:** Hörmətli Prezident, hörmətli Ali Baş Komandan! Siz Azərbaycan xalqının döyüş tarixini yazdınız. Biz Sizin bu işinizlə fəxr edirik.

**İlham Əliyev:** Çox sağ olun.
**Sakin:** Vətən müharibəsi əlilləri adından minnətdaram.
**İlham Əliyev:** Sizin neçə yaşınız var?
**Sakin:** Mənim 76 yaşım var.
**İlham Əliyev:** Burada, Ağalıda yaşamısınız?
**Sakin:** Bəli, bu kənddə rəhbər vəzifədə işləmişəm.
**İlham Əliyev:** Kənddə hansı rəhbər vəzifədə?
**Sakin:** 1977-ci ildə rəhmətlik ulu öndər Heydər Əliyev məni qəbul edib. Burada kolxoz sədri vəzifəsinə təsdiq edib.
**İlham Əliyev:** Hə, kolxoz sədri. Sizə deyəndə ki, Ağalıya qayıtmaq olar, həvəslə qayıtmısınız. İndi Ağalı necədir? Yeni Ağalı xoşunuza gəlir?
**Sakin:** Yeni Ağalı şəhərdir Sizin sayənizdə. Mən şəhidlərin, qazilərin, şəhid analarının, atalarının qarşısında baş əyirəm. Onlara minnətdarıq. Bir də bir söz deyim, gülməyin mənə, seçki komissiyasının sədri Məzahir Pənahova deyin kağız-kuğuzu korlamasın, bizim Prezidentimiz həmişəlik seçilib.
**İlham Əliyev:** Onu özünüz deyərsiniz ona.
Burada 3-4 nəsil ağalılı var. Siz, balaca uşaqlar, gənclər, gəlin elə hamınız ağsaqqalla bərabər şəkil çəkdirək.
**Sakinlər:** Çox sağ olun.
**İlham Əliyev:** Burada xoşbəxt yaşayın. Allah cansağlığı, uzun ömür versin.
Böyüyəndə hansı peşəyə sahib olmaq istəyirsən?
**Uşaq:** Hərbçi.
**İlham Əliyev:** Qəhrəman Azərbaycan hərbçisi.
**Uşaq:** Biz Vətənimizi qorumalıyıq.

**D i g ə r u ş a q:** Mən həkim olmaq istəyirəm.

**İ l h a m Ə l i y e v:** Bəs sən?

**M ə k t ə b l i q ı z:** Hərbçi.

**İ l h a m Ə l i y e v:** Sən də hərbçi olmaq istəyirsən? Maşallah!

**S a k i n:** Cənab Prezident, Sizə bir sözüm var. Siz dünyanın ən birinci Prezidentisiniz.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Həqiqətən, bunu ürəkdən deyirəm, Sizə minnətdaram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Çox təşəkkür edirəm. Uşaqlardan da soruşuram böyüyəndə hansı peşəyə sahib olmaq istəyirsiniz? Deyirlər hərbçi. Bax, bu da sizin işinizdir. Qız da deyir ki, hərbçi olmaq istəyirəm. Vətəni qorumaq istəyirlər.

**S a k i n:** Adam buradan getmək istəmir.

**İ l h a m Ə l i y e v:** Bəli, biz tez-tez sizə qonaq gələcəyik.

**Q a d ı n l a r:** İnşallah, həmişə yolunuzu gözləyirik.

**İ l h a m Ə l i y e v:** Gələcəyin hərbçiləri, sağ olun. Hamınız salamat qalın, burada xoşbəxt yaşayın.

## ZƏNGİLAN BEYNƏLXALQ HAVA LİMANINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*19 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan Beynəlxalq Hava Limanında yaradılmış şəraitlə tanış olmuşlar.*

*«Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov dövlət başçısına və xanımına hava limanı barədə məlumat verdi.*

*Bildirildi ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən geniş gövdəli ağır yük təyyarələrini qəbul edəcək.*

*Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.*

*Müasir dünya tələblərinə cavab verən beynəlxalq hava limanının terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq. Terminal daxilində VIP-zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur. Hava limanında tam avtomatlaşdırılmış hava hərəkatinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş hava hərəkətini idarəetmə qülləsi tikilib.*

*Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib. Bütün sistemlər ICAO və «Eurocontrol»un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçib.*

*Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilib. Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilib. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılıb.*

*Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır.*

*Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci limandır. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.*

## Arximed turbini tipli su-elektrik stansiyasının işə salınması mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Zəngilanda Arximed turbini tipli su-elektrik stansiyasının işə salınması mərasimində iştirak etmişlər.*

*Kənd Təsərrüfatı naziri İnam Kərimov dövlət başçısına və xanımına stansiya barədə məlumat verdi.*

*Bildirildi ki, Zəngilan rayonunun Ağalı kəndində «Ağıllı kənd» layihəsi çərçivəsində keyfiyyətli ekoloji mühitin yaradılması və enerjidən səmərəli istifadə edilməsi üçün dayanıqlı enerji mənbələrinə üstünlük verilib.*

*Bu baxımdan, kəndin dayanıqlı enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində Almaniyanın «Rehart GmbH» şirkəti tərəfindən istehsal olunmuş və hər biri 212 kilovat olmaqla, 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed turbini tipli su-elektrik stansiyası inşa edilib. Üç ədəd generatorun quraşdırıldığı stansiya Ağalı kəndinin elektrik enerjisinə tələbatını tam təmin etmək gücünə malikdir.*

*Arximed qurğusunun digər enerji istehsal sistemləri ilə müqayisədə ən böyük üstünlüyü ondan ibarətdir ki, təzyiqsiz sudan enerji istehsal edə bilir, asan quraşdırılır və iqtisadi baxımdan sərfəlidir.*

*Prezident İlham Əliyev stansiyanı işə saldı.*

*Diqqətə çatdırıldı ki, balıqların Arximed turbinlərinin içindən keçə bilməsi və elektrik enerjisinin balıq ölümünə səbəb olmadan istehsal edilməsi ətraf mühitin qorunması baxımından xüsusi əhəmiyyətə malik-*

*dir. Arximed turbinlərinin istismar müddəti 50–60 il proqnozlaşdırılır.*

**Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak etmişlər.*

*Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlət başçısına və xanımına binanın daxil olduğu yaşayış məhəlləsi barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi sahəsi 2,06 hektar olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Zəngilan şəhərinin mərkəzi küçəsində, məktəb və biznes zonanın yaxınlığında yerləşəcək, şəhərin təsdiq edilmiş ümumi baş planına uyğun olacaq. Bu məhəllədə ümumilikdə 10 bina tikiləcək. Bunlardan 6-sı ikimərtəbəli, 4-ü isə üçmərtəbəli olacaqdır.*

*Məhəllədəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən də istifadə ediləcək.*

*Tədbirdə yaşayış məhəlləsi barədə videoçarx nümayiş olundu.*

*Dövlət başçısı Zəngilan şəhərində ilk yaşayış binasının təməlini qoydu.*

## Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Zəngilan şəhərində məktəb binasının təməlqoyma mərasimində iştirak etmişlər.*

*Elm və Təhsil naziri Emin Əmrullayev dövlət başçısına və xanımına 960 şagird-yerlik tam orta məktəbin binası ilə bağlı məlumat verdi.*

*Bildirildi ki, Zəngilan şəhərinin mərkəzində, yaşayış kompleksinin yaxınlığında inşa olunacaq məktəbin ərazisi 1,6 hektar sahəni əhatə edəcək. Üçmərtəbəli məktəb modul siniflərdən, böyük amfiteatrdan, açıq sinif otaqlarından, oyun, idman meydançalarından və giriş hissədən ibarət olacaq.*

*Prezident İlham Əliyev 2022-ci il sentyabrın 7-də Zəngilan şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.*

*Dövlət başçısı təhsil müəssisəsinin təməlini qoydu.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*Zəngilan*

*20 oktyabr 2022-ci il*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.*

## ZƏNGİLAN BEYNƏLXALQ HAVA LİMANININ AÇILIŞI MƏRASİMİ

*Zəngilan*

*20 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.*

*Dövlət başçıları hava limanında yaradılmış şəraitlə tanış oldular.*

*«Azərbaycan Hava Yolları» QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verdi.*

## «DOST AQROPARK» AĞILLI KƏND TƏSƏRRÜFATI» KOMPLEKSİNİN BİRİNCİ MƏRHƏLƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Zəngilan*

*20 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Zəngilan rayonunda «Dost Aqropark» ağıllı kənd təsərrüfatı» Kompleksinin birinci mərhələsinin açılışı mərasimində iştirak etmişlər.*

*Komplekslə tanışlıq zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.*

**Jurnalist:** Xeyirli-uğurlu olsun.

**İlham Əliyev:** Salam.

**Jurnalist:** Bir il əvvəl gələndə də açılış var idi.

**Rəcəb Tayyib Ərdoğan:** O vaxt daha yeni təməllər qoyulurdu. Baxın, indi necə olub?

**Jurnalist**: Yaşıl sahəyə çevrilib.

**Rəcəb Tayyib Ərdoğan**: Heyvanlar da gətirildi xaricdən. Həm bunları çoxaldırlar, həm də kəsim aparılır. Abdulkadir burada məsul şəxsdir.

**J u r n a l i s t:** Cənab Prezident, kompleks daha da böyüyəcəkmi?

**İ l h a m  Ə l i y e v:** Abdulkadir bəydən asılıdır.

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Rəhbər odur, o necə istəsə, elə də olacaq.

**A b d u l k a d i r:** Təbii ki, böyüyəcək. İnşallah, Laçında davam edəcəyik.

**İ l h a m  Ə l i y e v:** Təbii ki, böyüməlidir. Çünki cəmi bir il ərzində belə böyük işin görülməsi artıq gözəl bir nümunədir.

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** Dünya kənd təsərrüfatına, heyvandarlığa yönəlib artıq. Başqa çarələri yoxdur.

**İ l h a m  Ə l i y e v:** Keçən il biz burada idik. Boş sahə idi, heç nə yox idi. Keçən ilin oktyabr ayında təməlini qoyduq. İndi baxın, bir il keçib, görün nə qədər gözəl işlər görülüb.

**J u r n a l i s t:** Bundan sonra hava limanı harada açılacaq?

**İ l h a m  Ə l i y e v:** Laçında.

**J u r n a l i s t:** Nə zaman açılacaq?

**İ l h a m  Ə l i y e v:** 2024-cü, yaxud 2025-ci ildə ola bilər.

**R ə c ə b  T a y y i b  Ə r d o ğ a n:** O qədər də uzatma.

**İ l h a m  Ə l i y e v:** Çünki orada bir dənə də düz yer yoxdur. Böyük torpaq işləri görməliyik. Uçuş-enmə zolağını salmaq üçün biz dağları kəsirik. Odur ki, əsas vaxt ona gedir. Hələ ki, inşaat işləri başlanılmayıb. Hələ biz bir ildir o dağları kəsə-kəsə gedirik. İnşallah, iki ildən, bəlkə də iki il yarımdan

sonra Laçında da hava limanı olacaq. İnşallah, qardaşım da gələcək, bərabər açacağıq.

*Dövlət başçıları kompleksla tanış oldular.*

*Məlumat verildi ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Hər iki Prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.*

*Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan «Dost Aqropark»ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketləri üzərinə «made in Qarabağ» etiketlərinin ilk nümunələrini vurdular.*

*Dövlət başçıları «Dost Aqropark»ın nəzdində yaradılmış Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etdilər. Açılış mərasimində Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət etdilər.*

*Diqqətə çatdırıldı ki, «Dost Aqropark»ın ikinci və üçüncü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6000 hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olun-*

*muş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda istehsal olunan məhsulların «made in Qarabağ» brendi ilə dünya bazarına çıxarılması üçün Aqromarket də qurulacaq.*

*«Dost Aqropark» türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılmış ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Ötən bir il ərzində «Dost Aqropark»da birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. «Ağıllı kənd təsərrüfatı» texnologiyalarının, sıfır tullantı, bərpa olunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı «Dost Aqropark» ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.*

* * *

*Sonra konsert proqramı təqdim edildi və kompleks barədə videoçarx nümayiş olundu.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdilər.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır.

Əziz qardaşımı və onunla bərabər Azərbaycana gəlmiş bütün türk bacı-qardaşlarımızı səmimiyyətlə salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Bir il bundan əvvəl biz burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada Aqroparkın təməlini qoyduq. Bu gün artıq burada görülmüş işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə–Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Burada qeyd olundu ki, bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağınız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu Aqroparkın açılışını etməyimiz xüsusi məna daşıyır. Bu Aqroparkın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu, birinci özəl sərmayədir. Artıq bu Aqro-

parkın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edildi. Xeyirli-uğurlu olsun!

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı**

Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu Aqroparkın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülmüş işləri, qoyulmuş sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3000 baş cins qaramalın buraya gətirilməsini və bunun, inşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.

Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, qısa vaxtda – iki-iki il yarım ərzində su anbarını da inşa edəcəklərini bildirdi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, inşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.

Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, inşallah, dənələrə çevriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının

dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, inşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

Mən başda İlham qardaşım olmaqla, «Dost Aqropark»ın rəhbərlərinə çox-çox təşəkkür edirəm, onları təbrik edirəm.

İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm.

Gördüyünüz kimi, indi əlimdə qızıl qulplu qayçı var. Bu ikincidir. Hava limanını açarkən bir dənə aldıq, birini də indi aldıq. Aqroparkımız xeyirli olsun.

* * *

*Dövlət başçıları «Dost Aqropark» ağıllı kənd təsərrüfatı» Kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdilər.*

## HORADİZ–AĞBƏND DƏMİR YOLU XƏTTİNİN CƏBRAYIL RAYONUNDAN KEÇƏN HİSSƏSİNDƏ YERLƏŞƏN QUMLAQ STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*Cəbrayıl*

*20 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Horadiz–Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoymuşlar.*

*Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz–Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası barədə məlumat verdi.*

*Bildirildi ki, Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlini Azərbaycan Prezidenti 2021-ci il fevralın 14-də qoyub və layihənin 2023-cü ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur.*

*Dəmir yolu xətti tək xətlidir və ox üzrə uzunluğu 110,4 kilometrdir. Dəmir yolu xətti boyunca 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) fəaliyyət göstərəcək. Layihə çərçivəsində, həmçinin 456 süni mühəndis*

*qurğusu, 70 yoldəyişən, 110,4 kilometr uzunluğunda rabitə və işarəvermə xətti istismara veriləcək. Hazırda dəmir yolu xəttinin 62-ci və 71-ci kilometrləri arasındakı ərazidə torpaq yatağı və süni mühəndis qurğularının tikintisi işləri aparılır. Layihələndirilmə və tikinti işləri minatəmizləmə prosesinə paralel davam etdirilir.*

*Məlumat verildi ki, təməli qoyulan Qumlaq stansiyası ümumilikdə 1,69 hektar ərazini əhatə edir. Stansiya modern üslubda dizayn edilib və platforma, stansiya binası, avtomobil, avtobus və taksi dayanacaqlarından ibarətdir. İstismara verildikdən sonra stansiya gündəlik olaraq 150–200 nəfər sərnişinə xidmət göstərəcək, habelə müvafiq istiqamətlərdə yüklərin səmərəli və təhlükəsiz daşınmasına imkan yaradacaq.*

*Dövlət başçılarına Ələt–Ağbənd–Naxçıvan–Qars dəmir yolu layihəsi barədə də məlumat verildi.*

## «AZƏRBAYCAN–TÜRKİYƏ BEYNƏLXALQ MEŞƏ TƏLİM MƏRKƏZİ», «AĞILLI TİNGÇİLİK» VƏ «DOSTLUQ MEŞƏSİ» KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*Cəbrayıl*

*20 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Cəbrayıl rayonu ərazisində yaradılacaq «Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verdi.*

*Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan–Türkiyə–Qarabağ Tədbirlər Planına uyğun olaraq, bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu tədbirlər çərçivəsində, həmçinin «Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksinin yaradılması nəzərdə tutulub.*

*Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli–Cəbrayıl–Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilib. Ərazi dəniz səviyyəsindən 603 metr yüksəklikdə, Bakı şəhərindən 340 kilometr, Zəngilan Beynəlxalq Hava Limanından 72 kilometr, Füzuli Beynəlxalq Hava Limanından isə 35 kilometr məsafədə yerləşir.*

*Məlumat verildi ki, kompleksdə üç mərtəbədən ibarət Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» yaradılacaqdır. Təlim Mərkəzində türkiyəli mütəxəssislər və beynəlxalq təlimçilər tərəfindən Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və digər region ölkələrinin meşə mütəxəssislərinə təlimlər keçiriləcək. Mərkəzin elektrik təchizatı üçün 180 kilovat gücündə Günəş Elektrik Stansiyasının quraşdırılması planlaşdırılır.*

*«Ağıllı Tingçilik»də qabaqcıl texnologiyalar əsasında istixanalar, toxum saxlama mərkəzi, qapalı kök sistemli ting istehsal sahələri, köçürmə sahələri, kölgələndirmə, soyuducu, qablaşdırma və gübrə anbarları, ting tədarük mərkəzi, təlim zonası, maşın və traktor təlim parkları inşa ediləcəkdir. Burada il ərzində yerli iqlim şəraitinə uyğunlaşdırılmış 2 milyon müxtəlif ting yetişdirilərək, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə fondu torpaqlarında meşələrin salınmasında və yaşıllaşdırma işlərində istifadə olunacaq.*

*Məlumat verildi ki, layihə ərazisində torpaqqazma və doldurma işlərinə bu il iyunun 20-də başlanılıb və layihənin 2024-cü il iyulun 1-də tam yekunlaşdırılmaqla istismara verilməsi nəzərdə tutulur.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkdilər.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan əraziyə 15 baş ceyran buraxdılar.*

*Azərbaycan ərazisində ceyranların sayının kritik həddə azalması təhlükəsi nəzərə alınaraq, ceyran populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 2003-cü ildə Şirvan Milli Parkı yaradılıb və həyata keçirilən intensiv mühafizə tədbirləri nəticəsində ölkəmizdə ceyranların populyasiyası bərpa edilibdir.*

*2021-ci ilin noyabr sayımına əsasən, Şirvan Milli Parkının ərazisində 6228 baş ceyran məskunlaşıbdır.*

*Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir. İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılıb.*

*İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin– ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022–2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.*

*Azad olunmuş ərazilərdə balıq növlərinin populyasiyasının bərpası üçün də davamlı işlər görülür. İki il ərzində Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə balıq körpələrinin buraxılışı təşkil olunub və bu işlər növbəti illərdə də həyata keçiriləcəkdir.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Cəbrayıl*

*20 oktyabr 2022-ci il*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 20-də Cəbrayıl şəhərində rəsmi qarşılanma mərasimi keçirilmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.*

*Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti Azərbaycan Prezidentinə təqdim olundu.*

*Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Cəbrayıl*

*20 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 20-də Cəbrayıl şəhərində rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

*Sonra Azərbaycan və Türkiyə prezidentləri söhbət etdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Cəbrayıl*

*20 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Cəbrayıl şəhərində təkbətək görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Əziz qardaşım, hörmətli Cümhurbaşqanı!

Əziz qonaqlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, «Xoş gəlmisiniz!» – demək mənim üçün böyük şərəfdir. Bu gün biz birlikdə Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Bu onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik. Bu gün Qarabağ və Şərqi Zəngəzur üçün

çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının 2-ci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda – Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başladı, digər qruplaşma isə Şuşaya istiqamət götürdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edildi, Azərbaycan bayrağı qaldırıldı və ondan sonra Ermənistan təslim oldu.

Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam etdi. Bu bizə əlavə güc verdi, bu bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını aldı. Türkiyə–Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə–Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, həm «Dost Aqropark»ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da – «Dost Aqro-

park» özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görülüb. Yolların bir hissəsi artıq hazır vəziyyətdədir – dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulubdur. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumi uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü tikiləcək, onların bir qismi inşa edilibdir. Körpülərin ümumi uzunluğu 12 kilometrdir. Bu ancaq birinci mərhələdə görülmüş və görüləcək işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində Cəbrayıl şəhəri yoxdur, çünki burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerlə yeksan etmişlər. Cəbrayıl şəhərindən bax, bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilibdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə yeksan ediblər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yə-

ni o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.

Bu gün Türkiyə–Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə ilə Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə–Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq eyni zamanda, kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

Əziz qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz

sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.

İkinci Qarabağ savaşından sonra Türkiyə–Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat – bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə–Azərbaycan birliyi, qardaşlığı!

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli nazirlər!

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə salamlayıram!

Əvvəlcə, can Azərbaycanın iki gün əvvəl qeyd etdiyi Müstəqilliyin Bərpası Gününü bir daha təbrik edirəm.

İşğaldan azad edilmiş qədim Azərbaycan torpaqlarında bir il ərzində 2-ci hava limanının açılışında iştirak etmək, 2-ci hava limanını həqiqətən, müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. İndi sağıma, soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədiklərinin həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində onlar nələr törədildiyini bilirlər.

Amma biz bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək, onları dalana dirə-

mək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerlə yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün ayrıca bir iftixar mənbəyidir.

Azərbaycanlı qardaşlarımızın azad edilmiş torpaqlara qayıtmağa başlamaları da bizi həddindən artıq sevindirir. Böyük Qayıdış prosesi çərçivəsində azərbaycanlı qardaşlarımızın «ağıllı kənd» konsepsiyasına uyğun inşa edilmiş Ağalı kəndində məskunlaşmaları ilə Vətən həsrətlərinin, inşallah, başa çatdığını görürük. Ağalı kəndini gördük, oraya bundan sonra kənd deyə bilmərik. Ora artıq müasir bir şəhər kimi inkişaf edir.

Onun yanında «Dost Aqropark»ı gördük, orada kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsin-

də həqiqətən, çox mühüm addım atılmışdır. Bir il əvvəl təməlqoyma mərasiminə gələndə çox fərqli bir ərazi idi. Amma indi kənd təsərrüfatı sahəsində çox ciddi iş görülərək, bu ərazinin necə dirçəldildiyini gördük. Burada təxminən 3000 baş cins qaramalın olması, bu imkanın da dəyərləndirilərək bir tərəfdən, onların kəsimi, digər tərəfdən, bəslənməsi, artırılması – bu istiqamətdə görülən işlərlə bu addım həqiqətən də Böyük Qayıdış layihəsinin həyata keçirilməsidir.

Yolda gələrkən hörmətli qardaşım bəzi məsələləri də mənə izah etdi. Misal üçün, burada ən önəmli məsələ sudur. Su məsələsinə gəldikdə, qısa müddətdə burada su anbarının inşası ilə bu problem də aradan qaldırılacaq. Beləliklə, bu tarlalarda kənd təsərrüfatının inkişafı sayəsində çox ciddi nəticə əldə edəcəklərini söylədilər, həqiqətən, bizim də gördüyümüz və inandığımız budur.

Çox qısa müddətdə burada kənd təsərrüfatı sahəsində də ciddi nəticələrin əldə edilə biləcəyini gördük. Ot bağlamalarının düzülüşü bizə o nəticəni göstərir. Biz də tədbiri ot bağlamalarının üzərində oturaraq izlədik. Buna görə də təbrik edirik. Yəni minaların yerini artıq bunlar alıb. İnfrastruktur problemini tamamilə aradan qaldırmağa çalışırlar. Zənn edirəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır. Burada da «Cengiz», «Kalyon» şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar atılıbdır. Ötən səfərimdən bir il sonra burada

asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının həqiqətən, böyük bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, «yaşıl enerji» və «ağıllı şəhərlər» olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır. Artıq həmrəylik əsasında atdığımız addımlar var. Bunları inkişaf etdirərək, daha mühüm və nəhəng layihələri birlikdə həyata keçirməyə hazırıq. Təbii ki, daha mühüm addımlardan biri olan – Cəbrayılda təməlini qoyduğumuz «Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksi də həmrəyliyimizin rəmzidir.

Hörmətli media nümayəndələri, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq–Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcəkdir.

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad etdi, 30 ildir verilməyən

haqqını geri aldı. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan–Ermənistan və Türkiyə–Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da «Heydər Əliyev ili» olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.

Sözlərimi bu düşüncələrlə yekunlaşdırarkən şəxsən mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə xüsusilə millətim adından minnətdarlığımı ifadə edir, təşəkkürümü bildirirəm.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan–Türkiyə qardaşlığı!

**Səfər başa çatdı**

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri oktyabrın 20-də başa çatdı.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Zəngilan Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yola saldı.*

## BİNƏLİ YILDIRIMI, ŞAMİL AYRIMI VƏ OĞUZHAN DƏMİRÇİNİ XƏSTƏXANADA ZİYARƏT

*21 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Mərkəzi Klinik Xəstəxanasına gələrək, ölkəmizdə səfərdə olarkən yol qəzası keçirmiş Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Binəli Yıldırıma, millət vəkili Şamil Ayrıma və mühafizəçi Oğuzhan Dəmirçiyə baş çəkmişdir.*

*Dövlət başçımız xəsarət alanlarla söhbət etdi, onların tezliklə sağalmalarını arzuladı.*

*Binəli Yıldırım, Şamil Ayrım və Oğuzhan Dəmirçi qəza yerindən operativ olaraq helikopterlə Bakıya xəstəxanaya çatdırılmalarına və onların dərhal tibbi müayinədən keçirilərək, müalicə almalarına görə dövlət başçısına və tibb heyətinə dərin minnətdarlıqlarını bildirdilər.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ BAĞDAD AMREYEV İLƏ GÖRÜŞ

*21 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyevi qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli Bağdad Kultayeviç, Azərbaycanda olmağınızdan istifadə edərək sizi dəvət etdim ki, ilk növbədə, bizim təşkilatın baş katibi qismində işlədiyiniz illərə görə təşəkkürümü bildirim və sizi Azərbaycanın yüksək mükafatı – «Dostluq» ordeni ilə təltif edim. Siz bu təltifə layiqsiniz. Siz Türk Dövlətləri Təşkilatının baş katibi kimi, bizim birliyimizin möhkəmləndirilməsi işində mühüm rol oynamısınız və bunu davam etdirirsiniz. Biz sizinlə dəfələrlə görüşmüşük – həm siz Azərbaycanda səfərdə olanda, həm də beynəlxalq tədbirlər çərçivəsində. Mən həmişə görürdüm ki, siz həqiqətən, bütün türkdilli dövlətlərin sıx birləşməsini istəyirsiniz. Təsadüfi deyil ki, sizin sədrliyiniz dövründə bu qurum təşkilata çevrilib, öz adını dəyişib. Buna görə əminəm ki, bu, təkcə adın dəyişməsi deyil, həm də inkişaf vektorunun dəyişməsidir. Ona görə ki, fikrimcə, bizim təşkilatın üzvləri olan bütün ölkələrdə birliyi möhkəmləndirməyin zəruri olmasını başa düşürlər.

Siz bilirsiniz ki, mən bizim təşkilat çərçivəsində, həmçinin ikitərəfli formatda əməkdaşlığa həmişə çox diqqətlə yanaşmışam. Türk Dünyası ölkələri ilə əlaqələrin, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Təsadüfi deyil ki, hətta mənim və qardaş ölkələrin dövlət başçılarının səfərlərinin son xronologiyasına baxsaq, bizim bu məsələyə əlavə dinamizm verdiyimizi görmək olar.

Bütün türkdilli ölkələrlə münasibətlər bizim üçün prioritetdir. Əminəm ki, qarşıdakı Səmərqənd Zirvə görüşü bizim birliyimizi bir daha təsdiq edəcək. Xüsusən indiki geosiyasi vəziyyətdə biz qarşılıqlı dəstəyin, dövlətlərimizin müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsinin, əməkdaşlığımıza konkret məzmun verməyin zəruriliyini nəzərə alaraq, ümumi maraqlar ətrafında daha sıx birləşməliyik. Hesab edirəm ki, bu halda gələcək illərdə qarşılıqlı siyasi fəaliyyətlə bərabər, təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi sahəsində əməkdaşlıq əsas istiqamətlərdən biri olacaq.

Dünya dəyişir, o, artıq dəyişib, buna görə yeni təhdidlər və yeni çağırışlar, necə deyərlər, artıq qapını döyür. Düşünürəm ki, iqtisadi əməkdaşlıqla bərabər, nəqliyyat, humanitar və başqa sahələrdə əməkdaşlıq prioritetlərdən biri olacaq. Öz tərəfimdən demək istəyirəm ki, Azərbaycan Türk Dünyasının birliyini möhkəmləndirmək üçün bundan sonra da nə mümkündürsə edəcək. Bu, əcdadlarımızın böyük irsidir. Təəssüf ki, tarixin müxtəlif mərhələlərində Türk Dünyası fraqmentləşdirilib və hələ də bizim diqqə-

timizi və sıx birgə siyasətimizi tələb edən məsələlər mövcuddur. Lakin Türk Dünyası dövlətləri milli dövlətlər çərçivəsində artıq birləşiblər.

Əlbəttə, Türk Dünyası Türk Dövlətləri Təşkilatının üzvləri olan milli dövlətlərin sərhədlərindən qat-qat genişdir. Buna görə də əminəm ki, bizim humanitar əlaqələrimizə, insanlar arasında, geniş dünya coğrafiyasında yaşayan türkdilli xalqların nümayəndələri ilə əlaqələrə gələcəkdə də ehtiyac olacaq. Hər halda, Azərbaycanda öz tərəfimizdən bizim təşkilatımıza daxil olan ölkələrin birliyini möhkəmləndirmək üçün hər şeyi edəcəyik, dünyanın müxtəlif ölkələrində yaşayan qardaşlarımızı – on milyonlarla qan qardaşlarımızı – dəstəkləyəcəyik. Təkcə Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların sayı Azərbaycanda yaşayanlardan xeyli çoxdur, bir neçə dəfə çoxdur. Buna görə də onların təhlükəsizliyi, hüquqları, salamatlığı bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Biz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlılara, həmçinin bizim qardaş türk dövlətlərinin digər xalqlarının dövlət sərhədi hüdudlarından kənarda yaşayan çoxsaylı nümayəndələrinə kömək etmək, onların inkişafı, onların Azərbaycan dilini, Azərbaycan ənənələrini, Azərbaycan mədəniyyətini qoruyub saxlamaları, azərbaycançılıq prinsiplərinə sadiq olmaları və öz tarixi Vətəni ilə əlaqələri heç vaxt kəsməmələri üçün əlimizdən gələni edəcəyik. Həmçinin mən bunu da bilirəm ki, Türk Dövlətləri Təşkilatının bütün rəhbərləri bu və ya digər ölkələrdə onların qardaşlarının hüquqları-

nın necə təmin edilməsinə böyük əhəmiyyət verirlər. Buna görə də düşünürəm ki, qarşıdakı illərdə biz Türk Dövlətləri Təşkilatı çərçivəsində bu mövzunu – taleyin hökmü ilə Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrin hüdudlarından kənarda yaşayan qardaşlarımızın hüquqları, təhlükəsizliyi, milli identikliyi məsələlərini çox ciddi müzakirə etməliyik.

Biz bu mövzuları sizinlə bu və ya digər dərəcədə müzakirə etmişik və mən həmişə sizin timsalınızda öz türk köklərinə dərindən bağlı olan bir insan görmüşəm. Mənim üçün bu çox mühüm amildir, ona görə ki, biz hamımız öz köklərimizi yadda saxlamalı və ölkələrimizi yaxınlaşdırmağa çalışmalıyıq. Türk Dünyası dünya miqyasında çox böyük potensiala, coğrafiyaya, nəqliyyat yollarına, enerji resurslarına, insan potensialına, intellektual potensiala malik olan böyük ailədir, böyük sərvətdir. Buna görə birlik bizim gücümüzdür.

Mən layiq olduğunuz bu mükafatı böyük məmnuniyyətlə sizə təqdim edirəm. Öz adımdan, Azərbaycan xalqı adından və sizin bütün dostlarınız adından sizə təşəkkürümü bildirmək, cansağlığı, firavanlıq və gələcək uğurlar arzulamaqla bu mükafatı təqdim etmək istəyirəm.

**B a ğ d a d A m r e y e v:** Çox sağ olun.

* * *

*Azərbaycan Prezidenti İlham Əliyev «Dostluq» ordenini Bağdad Amreyevə təqdim etdi.*

**B a ğ d a d  A m r e y e v:** Bu mükafatı bizim türk xalqlarının görkəmli liderindən, türk xalqlarının birliyinə çox böyük şəxsi töhfə vermiş insandan qəbul etmək böyük şərəfdir. Həqiqətən, Siz dediyiniz kimi, mən türk xalqlarının birliyinin möhkəmlənməsinə, bizim ortaq gələcəyimizin bazasının yaradılmasına töhfə vermək üçün bütün qüvvəmi sərf edirəm. Bu illər ərzində mən Sizin rəhbərliyinizlə, bizim liderlərin rəhbərliyi ilə və öz komandamla birlikdə çox möhkəm təməl yaratmaq üçün maksimum səy göstərmişik. Bu illər ərzində Sizin rəhbərliyinizlə həqiqətən, türk birliyi infrastrukturunu yaratmağa nail olmuşuq. Siyasi əməkdaşlıq reallığa çevrilib, iqtisadi əməkdaşlıq, nəqliyyat sahəsində və iqtisadiyyatın digər sahələrində əməkdaşlıq inkişaf edir. Mədəni-humanitar əməkdaşlıq münasibətlərimizin əsasıdır. Təhlükəsizlik sahəsində də əməkdaşlığa başlamışıq. Bu yaxınlarda ölkələrimizin təhlükəsizlik şuraları rəhbərlərinin görüşünü keçirmişik. Bizim xüsusi xidmətlərimiz işləyir. Bu sahə üçün yaxşı baza yaratmışıq. Ölkələrimiz arasında həm ikitərəfli əsasda, həm də artıq daha geniş əsasda hərbi-texniki əməkdaşlığı və hərbi əməkdaşlığı nizamlamışıq.

**MACARISTAN PREZİDENTİ
XANIM KATALİN NOVAKA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi və xoş arzularımı çatdırıram. Dinamik inkişaf edən Azərbaycan–Macarıstan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Yüksək səviyyəli siyasi əlaqələrimiz iqtisadi, ticari, enerji, humanitar və digər sahələrdə səmərəli qarşılıqlı faydalı əməkdaşlığımız ilə müşayiət olunur.

İnanıram ki, strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi, beynəlxalq strukturlar, xüsusilə də Avropa İttifaqı çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi istiqamətində səylərimizi xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 oktyabr 2022-ci il*

## GÜRCÜSTANA İŞGÜZAR SƏFƏR

*24 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Gürcüstana işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini Gürcüstanın Xarici İşlər naziri İlya Darçiaşvili və digər rəsmi şəxslər qarşıladılar.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Mçxeta*

*24 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 24-də Muxrani sarayında Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü keçirilmişdir.*

*Gürcüstanın Baş Naziri dövlət başçımızı qarşıladı.*

*Sonra rəsmi foto çəkdirildi.*

*Görüşdə Azərbaycan–Gürcüstan əlaqələrinin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## MUXRANİ SARAY KOMPLEKSİNDƏ MƏDƏNİ PROQRAMIN TƏQDİMATINDA İŞTİRAK

*Mçxeta*

*24 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili oktyabrın 24-də Muxrani saray kompleksində təqdim olunmuş mədəni proqramda iştirak etmişlər.*

*Mədəni proqramda gürcü xalqının milli adət və ənənələri nümayiş etdirildi. Tədbirdə Gürcüstanın milli musiqisi və rəqsləri, gürcü mətbəxinin nümunələri, o cümlədən şirniyyatları təqdim olundu.*

*Prezident İlham Əliyev və Baş Nazir İrakli Qaribaşvili milli gürcü rəqslərinə baxdılar.*

## «QARABAĞ XANLIĞININ İRSİ» SƏRGİSİ İLƏ TANIŞLIQ

*Mçxeta*

*24 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili oktyabrın 24-də Muxrani sarayında «Qarabağ xanlığının irsi» sərgisi ilə tanış olmuşlar.*

*Sərgidə «Qarabağ xanlığı. Tarixi və mədəni kimlik» kitabı təqdim edildi.*

*Sərgidə nümayiş olunan fotolar «Qarabağ xanlığı. Tarixi və mədəni kimlik» kitabından seçilərək götürülmüş artefaktlar əsasında hazırlanıb. Onların arasında Qarabağ xanlığına aid edilən bayrağın məlum olan ilk təsvirini, Qarabağ xanları sülaləsində qorunmuş Şah İsmayılın qalxanı, qədim xalçaları, Sərdar məscidinin və onun fasadının dekorasiya plitələrini, həmçinin XIX əsr Şuşa şəhərinin görüntülərini, XIX əsrin sonu – XX əsrin əvvəllərində Sərdar xan sarayının fasadını və daxili görünüşünü, XIX əsrə aid at yəhərini, iki tar və üçsimli kamançanı əks etdirən fotolar, Mirzə Qədim İrəvaninin müəllifi olduğu Hüseynqulu xan Qacarın, Fətəli şah Qacarın portretləri xüsusi maraq doğurur.*

*Müəlliflər qrupunun rəhbəri professor Eldar Nadiradze olan «Qarabağ xanlığı. Tarixi və mədəni kimlik» adlı kitabda isə XIX əsrdə çar Rusiyasının Qarabağda həyata keçirdiyi hərbi və elmi ekspedisiyaları zamanı toplanılmış və hazırda Gürcüstan Milli Muzeyinin fondlarında saxlanılan, Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın rəsmi yer alıb. Bu artefaktlar muzeyin arxivinə təhvil verildikdən sonra müəyyən səbəblərdən heç vaxt açılmayıb və 100 ildən artıq bir dövrdə arxivdə kataloqlaşdırılmadan saxlanılıb.*

*Çox nadir mədəni irsimizin göstəricisi olan nəşrdə kataloqlaşdırılmış bu kolleksiya Azərbaycan tarixinin ayrılmaz hissəsi olan Qarabağ xanlığına, onun zəngin mədəni irsinə beynəlxalq marağın artmasına töhfə verəcək.*

*Kitab Azərbaycan, rus, ingilis, fransız və ərəb dillərində nəşr olunub.*

# GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Mçxeta*

*24 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili oktyabrın 24-də mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Gürcüstanın Baş Naziri İrakli Qaribaşvilinin bəyanatı

Cənab Prezident!

Hörmətli dostlar, qonaqlar!

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi burada səmimiyyətlə salamlayıram. Cənab Prezidentə təşəkkür edirəm ki, bu gün Gürcüstana səfərə gəlib.

Ölkələrimiz arasında olan mehriban qonşuluq münasibətləri və strateji tərəfdaşlıq, o cümlədən əməkdaşlığımızın gündəliyi Sizin səfərinizin əhəmiyyətini vurğulayır. Onu da vurğulamaq istəyirəm ki, Azərbaycanla Gürcüstanın bu qədər yaxın olmasında Sizin töhfəniz çox böyükdür. Bizim ölkələrimiz arasın-

da misilsiz dostluq əlaqələri və sıx münasibətlər vardır. Həmin münasibətlər tarixi əlaqələrimizə və qarşılıqlı hörmətə əsaslanır. Əminəm ki, mövcud əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə daha da yüksək səviyyəyə qalxacaqdır.

Bu gün bizim çox vacib görüşümüz oldu, müxtəlif məsələləri müzakirə etdik və ölkələrimiz arasında sıx tərəfdaşlığı bir daha vurğuladıq. Biz hazırda dünyada baş verən prosesləri müzakirə etdik və razılığa gəldik ki, bu gün Ukraynada baş verən hadisələr məhz danışıqlar yolu ilə həll edilməlidir.

Onu da nəzərdən keçirdik ki, dünyada baş verən hadisələr yalnız sülh və sabitlik yolu ilə həll olunmalıdır. Bu həm bizim regionumuz, həm də xalqlarımız üçün vacibdir.

Bununla yanaşı, biz regional vəziyyəti, Azərbaycan və Ermənistan arasında olan təmasları, iki ölkə arasında sülh prosesini nəzərdən keçirdik. Şəxsən mən və bizim hökumətimiz ümidvarıq ki, sülh siyasətini həyata keçirmək üçün əlimizdən gələni edəcəyik. Regionumuzdakı mehriban qonşuluq əlaqələri heç bir əməkdaşlıq formatına zidd deyil, bunu yalnız gücləndirəcəyik və əminəm ki, biz bir yerdə çox işlər görə bilərik.

Cənab Prezident, Sizin Cənubi Qafqazda əməkdaşlıq formatının yaradılması barədə Praqada irəli sürdüyünüz təşəbbüsü də dəstəkləyirəm.

Biz iqtisadiyyat, enerji, nəqliyyat məsələlərini nəzərdən keçirdik. Gürcüstan Azərbaycan üçün önəmli ölkədir və Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır. Biz artıq reallaşdırdığımız mühüm layihələri

nəzərdən keçirdik. Bunlar tarixi layihələrdir – Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu və Orta Dəhliz. Bizim həyata keçirdiyimiz layihələr bundan sonra da inkişaf etdiriləcək və onları daha da sürətləndirmək əzmindəyik.

Mən Sizin atanızdan, ölkənizin ümummilli liderindən sitat gətirmək istəyirəm. Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Gürcüstanda, Tbilisidə olanda demişdi: «Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır». Bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək.

Cənab Prezident, bir daha təşəkkür edirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Baş Nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Baş Nazir, ölkənizə dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm. Biz Gürcüstanın bu gözəl yerində görüşürük, çox gözəl mənzərəli yerlərdir. Eyni zamanda, külək sanki Bakı küləyidir. Bu onu göstərir ki, külək də bu gün bizim burada olmağımızı alqışlayır. Yəni mən həqiqətən, özümü evimdəki kimi hiss edirəm. Mən yenidən Gürcüstanda olmağımdan çox məmnunam.

Cənab Baş Nazirlə bizim görüşlərimiz tez-tez keçirilir. Təkcə keçən il hörmətli cənab Qaribaşvili iki

dəfə Azərbaycanda səfərdə olub. Eyni zamanda, beynəlxalq təşkilatların keçirdiyi tədbirlər çərçivəsində də biz daim görüşürük. Əminəm ki, bugünkü səfər Gürcüstan və Azərbaycan arasındakı dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək. Bu münasibətlər çox dərin ənənələr üzərində qurulub. Əsrlərboyu xalqlarımız dostluq, qardaşlıq, mehriban qonşuluq şəraitində yaşamışlar. Dövlətlərarası əlaqələr də bu möhkəm təməl üzərində qurulubdur.

Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz, demək olar ki, müttəfiqlik səviyyəsinə qalxıbdır. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birimizi dəstəkləyirik, həm də ikitərəfli formatda. Bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütövlükdə Avropa üçün xüsusi əhəmiyyət daşıyır. Cənab Baş Nazir qeyd etdiyi kimi, bu gün bir çox məsələlər müzakirə olundu. Hələ müzakirələr davam edəcək. Əlbəttə ki, bölgədə gedən proseslər, təhlükəsizliklə bağlı olan məsələlər müzakirələrin mərkəzində idi. İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətlə və Ermənistanla Azərbaycan arasında sülh danışıqlarının gedişatı ilə bağlı mən Baş Naziri məlumatlandırdım. Biz hesab edirik ki, Qarabağ münaqişəsi başa çatandan sonra vaxt gəlib çatıb ki, Azərbaycan və Ermənistan sülh müqaviləsi imzalasınlar. Hər halda, bizim niyyətimiz bundan ibarətdir. Biz 5 əsas prinsipdən ibarət təkliflərimizi Ermənistan tərəfinə təqdim etdik. Ümid edirəm ki, Ermənistan tərəfi də siyasi iradə göstərərək, beynəlxalq birlik tərəfindən tanınmış

bu əsas təməl prinsipləri əsasında Azərbaycanla sülh müqaviləsini imzalayacaqdır. Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək və əməkdaşlıq üçün imkanlar yaranacaqdır. Bu gün söhbət əsnasında Gürcüstan–Azərbaycan–Ermənistan arasında məsləhətləşmələrin başlanması haqqında fikir mübadiləsi apardıq. Əgər Ermənistan tərəfi də buna hazırdırsa, biz buna hazırıq.

O ki qaldı ikitərəfli gündəliyimizə, ticarət dövriyyəmizin artması bizi sevindirir. Bu ilin 9 ayında qarşılıqlı ticarət dövriyyəsi 1 milyard dollara yaxınlaşıb. Əlbəttə, Azərbaycanın sərmayəsi ilə həyata keçirilən layihələr bizim əməkdaşlığımızı daha da gücləndirir. Azərbaycan Gürcüstana 3 milyard dollardan çox sərmayə qoyub. Bu sərmayə qarşılıqlı faydalı sərmayədir, çünki hər iki tərəfin maraqlarına cavab verir. Əlbəttə, biz bu gün gələcək enerji siyasətimizlə bağlı geniş fikir mübadiləsi apardıq. Baş Nazir də qeyd etdiyi kimi, həyata keçirilmiş layihələr artıq uğurla fəaliyyətdədir. Biz yeni layihələr haqqında düşünürük. Biz dünya bazarlarına qaz ixracatını artırmaq fikrindəyik. Bu il 22 milyard kubmetr ixracımız olacaq, gələn il daha da artacaq. Bu ilin iyul ayında Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Memorandumda göstərilir ki, növbəti 5 ildə Azərbaycan Avropaya qaz ixracını iki dəfə artıracaq. Yəni bizim niyyətimiz bundan ibarətdir, imkanlarımız da buna çatır.

Beləliklə, biz planlaşdırırıq ki, 2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard

kubmetrə çatacaq. Əlbəttə, bununla əlaqədar görüləcək işlər həm ikitərəfli formatda müzakirə olundu, həm də gələcək müzakirələrə ehtiyac vardır. Eyni zamanda, gələn il Bakı–Tbilisi–Ceyhan neft kəməri xətti ilə ixrac artırılacaq. Biz bununla bərabər, hazırda istismarda olmayan Bakı–Supsa neft kəmərindən də istifadə etmək istəyirik. Bu barədə də danışmışıq. Mən bizim planlarımız haqqında cənab Baş Naziri məlumatlandırdım. Buna da böyük ehtiyac və böyük potensial vardır.

Həyata keçiriləcək yeni layihə elektrik enerjisi ilə bağlıdır. Azərbaycan çalışır ki, öz elektrik enerjisini dünya bazarlarına ixrac etsin. Əlbəttə, təbii ki, bizim ixrac istiqamətimiz Gürcüstandan keçir.

Təkcə azad edilmiş torpaqlarda 10 giqavatt gücündə bərpa olunan enerji növlərindən istifadə etmək olar. Xəzər dənizində isə bu rəqəm 157 giqavatta çatır. Yəni bu, beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş rəqəmdir və bu çox böyük rəqəmdir. Əlbəttə, bu enerjini istehsal etmək və ixrac etmək bizim növbəti illərdəki vəzifəmizdir. Gürcüstan və Azərbaycan digər sahələrdə olduğu kimi, bu sahədə də fəal əməkdaşlıq edəcək. Yəni bir sözlə, bölgəmizin iqtisadi potensialını artırmaq üçün çox gözəl imkanlar var – enerji resursları, nəqliyyat dəhlizləri.

Onu da bildirməliyəm ki, Gürcüstanla Azərbaycan arasında yükdaşımaların həcmi bu il 75 faiz artıbdır. Bildirmək istəyirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun ötürmə qabiliyyətini biz 5 milyon tona çatdırmaq fikrindəyik. Bu məqsədlə bu il və gələn il bu layihəyə Azərbaycan tərəfindən əlavə sərmayə qoyula-

caq. Artıq bütün sərmayələr hazırdır və biz bu prosesə start vermişik. Çünki dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına böyük ehtiyac vardır. Yeni nəqliyyat yolları həm geosiyasi vəziyyətlə bağlı, həm də bütövlükdə yol boyunca yerləşən bütün ölkələrin maraqlarına cavab verir. Ona görə Bakı–Tbilis–Qars dəmir yolunun ötürmə qabiliyyətinin 5 milyon tona çatdırılması, eyni zamanda, Gürcüstan limanlarından istifadə edərək, Orta Asiyadan və bütövlükdə Asiyadan Qərb istiqamətinə və əks istiqamətə ötürülən yüklərin həcminin artırılması artıq yeni reallıq yaradır. Biz buna hazır olmalıyıq. Mən bildirməliyəm ki, biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona çatdırmaq istəyirik. Artıq bütün göstərişlər verildi və vəsait də ayrılacaq. Ona görə Gürcüstanla Azərbaycan arasında nəqliyyat sahəsində sıx koordinasiya aparılmalıdır. Çünki bizim birgə layihələrimiz eyni vaxtda tamamlanmalıdır.

Tranzit ölkə olmaq üçün mütləq qonşularla yaxşı münasibətlərin olmalıdır. Çünki qonşularla bu münasibətlər olmadan heç bir ölkə etibarlı tranzit ölkəsinə çevrilə bilməz. Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır. Hazırda enerji resurslarına bütövlükdə dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan da bu məsələdə bir cəbhədən hərəkət edərək, bir nöqtəyə vuraraq, öz milli maraqlarını təmin edəcək. Baxın, görün iki

qardaş ölkə arasındakı əlaqələr bölgə üçün, Avropa üçün və dünya üçün nə qədər əhəmiyyətlidir.

Yenə də demək istəyirəm ki, bütün bu uğurların təməlində bizim dostluğumuz, xalqlarımızın dostluğu, liderlərin dostluğu və birgə fəaliyyət durur. Odur ki, mən bu gözəl fürsətə görə, məni bu gözəl yerə dəvət etdiyi üçün hörmətli Baş Nazirə bir daha təşəkkürümü bildirmək istəyirəm, dost, qardaş gürcü xalqına daim firavanlıq, rifah və sülh arzulayıram. Sağ olun.

## BİRGƏ İŞÇİ NAHARDA İŞTİRAK

*Mçxeta*

*24 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili oktyabrın 24-də Muxrani sarayında birgə işçi nahar etmişlər.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri oktyabrın 24-də başa çatdı.*

*Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Aeroportunda dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyevi Gürcüstanın Baş Naziri İrakli Qaribaşvili yola saldı.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Qazaxıstan dinamik inkişaf yolu ilə inamla irəliləyərək, bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə layiqli yer tutmuşdur. Bu gün Sizin qətiyyətli rəhbərliyiniz altında ölkədə aparılan genişmiqyaslı islahatlar və quruculuq işləri qardaş ölkənizin hərtərəfli inkişafına və yüksəlişinə xidmət edir. Qazandığınız uğurlar qardaş ölkə olaraq Azərbaycanı da çox sevindirir.

Azərbaycan–Qazaxıstan münasibətlərinin hazırkı yüksək səviyyəsi ortaq tarix, mənəvi, mədəni dəyərlərlə bir-birinə sıx bağlı olan qardaş xalqlarımızın iradəsini bariz şəkildə təcəssüm etdirir.

Cari ilin avqustunda Azərbaycana rəsmi səfəriniz ölkələrimiz arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi, siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə əlaqələrimizin daha da inkişafı üçün yaxşı imkanlar açmışdır. Eyni zamanda, bu yaxınlarda Astanada Sizinlə görüşümü məmnunluqla xatırlayır, əməkdaşlığımızın perspektivləri ət-

rafında apardığımız ətraflı fikir mübadiləsi və müzakirələrin Azərbaycan–Qazaxıstan münasibətlərinə yeni təkan verəcəyinə inanıram.

Əminəm ki, mövcud imkanlardan yararlanaraq, ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan çoxşaxəli əlaqələrin, həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın davam etdirilməsi və genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 oktyabr 2022-ci il*

## AZƏRBAYCAN YAZIÇILARININ XIII QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Sizi Azərbaycan yazıçılarının XIII qurultayının öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və gələcək fəaliyyətinizdə nailiyyətlər arzu edirəm.

Azərbaycan xalqı şeirə, sənətə böyük qiymət verərək, cəmiyyət və gələcək nəsillər qarşısında dərin mənəvi məsuliyyət hissi ilə yazıb yaradan qələm sahiblərinə ehtiram bəsləmişdir. Onlar çoxəsrlik söz xəzinəmizin zənginləşməsi, mədəni dəyərlərimizin saflığının qorunması və ictimai fikrin milli özünüdərk zəminində formalaşması işinə misilsiz töhfələr bəxş etmişlər. Ədəbiyyatımızı milliliklə bəşəriliyin ahəngdar vəhdətində humanist xarakterli ideya-fəlsəfi axtarışları ilə dünya ədəbi irsinin tərkib hissəsinə çevirmiş görkəmli söz ustalarının xatirəsi ölkəmizdə əziz tutulur. Xalqımızın qəlbində azadlıq duyğularının güclənməsi, insanlarımızın ruhuna mübarizə əzminin aşılanması və müstəqilliyimizin mənəvi zəmininin möhkəmləndirilməsi yolunda şair və yazıçılarımız xüsusi fədakarlıq göstərmişlər.

Mədəni həyatımızın mühüm hadisələrindən olan qurultayınızın parlaq Qarabağ Zəfəri sayəsində tariximizin şanlı səhifələrini yaşadığımız bir dövrə təsadüf etməsi yüksək ideyalı bədii əsərlərin ərsəyə gəti-

rilməsi naminə bir sıra mühüm vəzifələr irəli sürür. Azərbaycançılıq məfkurəsi işığında cəmiyyətin mənəvi inkişafı məsələlərini hər zaman olduğu kimi, yenə də diqqət mərkəzində saxlayaraq, səmərəli müzakirələr aparacağınıza və əhəmiyyətli qərarlar qəbul edəcəyinizə inanıram. Əminəm ki, həmin qərarlar yazıçı və şairlərimizin müasir təfəkkür tərzi ilə seçilən vətənpərvər ruhlu yeni nəsli önündə geniş üfüqlər açacaq, bütün yaradıcı ədəbi qüvvələrə dəstək olacaqdır.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2022-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RİŞİ SUNAKA

Hörmətli cənab Baş Nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasında təşəkkül tapmış dostluq münasibətlərinə və çoxşaxəli əməkdaşlığa böyük əhəmiyyət veririk. Xoş ənənələrə əsaslanan əlaqələrimizin hər keçən il daha da inkişaf etməsi və dərinləşməsi məmnunluq doğurur. Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi çox genişdir. Birləşmiş Krallıq Azərbaycana ən çox sərmayə yatıran ölkə və ən iri ticarət tərəfdaşlarımızdan biridir. Ölkələrimiz arasında siyasi, mədəni, təhsil və digər sahələrdə də əməkdaşlıq dinamik inkişaf etməkdədir.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında enerji sahəsində sınaqdan çıxmış strateji tərəfdaşlıq münasibətlərini xüsusi qeyd etmək istərdim. Enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx tərəfdaşlığını, həyata keçirdiyimiz irimiqyaslı layihələrdə Birləşmiş Krallığın yaxından iştirakını və dəstəyini yüksək qiymətləndiririk. Son 30 ildə neft-qaz hasilatında yaxın və etibarlı tərəfdaşımız olan *bp* ilə

təmiz enerjiyə keçid sahəsində də işbirliyimiz bizi sevindirir.

İki il bundan əvvəl işğaldan azad etdiyimiz ərazilərimizdə aparılan əsaslı bərpa və yenidən qurulma işlərində Birləşmiş Krallığı təmsil edən şirkətlərin iştirakı təqdirəlayiqdir. Şərqi Zəngəzur və Qarabağ bölgələrinin sosial-iqtisadi reinteqrasiyasına ən böyük əngəl olaraq qalan minaların təmizlənməsi və partlamamış hərbi sursatların zərərsizləşdirilməsi işinə Birləşmiş Krallığın verdiyi töhfəni alqışlayırıq.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında dostluğun möhkəmləndirilməsi, ikitərəfli əlaqələrimizin bütün sahələrdə dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bir daha Sizə təbriklərimi və ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2022-ci il*

**İTALİYA RESPUBLİKASI
NAZİRLƏR ŞURASININ SƏDRİ
XANIM CİORCİA MELONİYƏ**

Hörmətli xanım Sədr!

İtaliya Respublikası Nazirlər Şurasının Sədri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Biz xoş ənənələrə əsaslanan Azərbaycan–İtaliya münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İtaliya bizim üçün dost ölkə və etibarlı strateji tərəfdaşdır. Yüksək səviyyəli müntəzəm siyasi dialoq, daim yeni məzmunla zənginləşən qarşılıqlı faydalı əməkdaşlığımız, eləcə də gündən-günə genişlənən iqtisadi-ticari, enerji və humanitar sahələrdə əlaqələrimiz çoxölçülü strateji tərəfdaşlığımızı səciyyələndirən əsas cəhətlərdəndir.

Məmnunluqla qeyd etmək istərdim ki, ölkələrimiz arasında iqtisadi əlaqələr dinamik inkişaf yolundadır. İtaliya Azərbaycanın, Azərbaycan isə İtaliyanın Cənubi Qafqazda ən əsas ticarət tərəfdaşıdır. İtaliya şirkətləri uzun müddətdir ki, ölkəmizdə geniş fəaliyyət göstərir və münasibətlərimizin inkişafında vacib rol oynayır. Bu əməkdaşlıq işğaldan azad olunmuş ərazilərimizdə də uğurla həyata keçirilir.

Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayan və əməkdaşlığımızın prioritet

sahələrindən olan enerji sektorunda da səmərəli və məhsuldar birgə fəaliyyətimiz təqdirəlayiqdir.

İnanıram ki, Azərbaycan–İtaliya dostluğu və strateji tərəfdaşlığı həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İtaliya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2022-ci il*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ İSMAİL SERAGELDİN, SABİQ DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI, MƏRKƏZİN İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini, sabiq dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.*

*İsmail Serageldin son dövrlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nüfuzunun dünyada daha da artdığını vurğuladı, beynəlxalq təşkilatlar və bir sıra ölkələrin aparıcı institutları ilə birbaşa əlaqələrin yaradıldığını qeyd etdi. O, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi dəstəyə görə dövlət başçısına minnətdarlığını bildirdi.*

*İsmail Serageldin mərkəzin təsis olunmasının 10 illik yubileyi münasibətilə xatirə hədiyyələrini dövlət başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yubileyi münasibətilə təbriklərini çatdırdı və yubileyin Bakıda qeyd edilməsinin rəmzi xarakter daşıdığını bildirdi. Dövlət başçısı mərkəzin beynəlxalq*

*səviyyədə əməkdaşlığının genişlənməsindən, dünyada rolunun və nüfuzunun artmasından məmnunluğunu ifadə etdi.*

*Görüşdə vurğulandı ki, Azərbaycan Prezidentinin himayəsi altında Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən hər il keçirilən Qlobal Bakı Forumu artıq bütün dünyada aktual məsələlərin müzakirə olunduğu və onların həlli istiqamətində yeni yanaşmaların təklif edildiyi beynəlxalq platforma kimi qəbul olunur.*

*İsmail Serageldin bildirdi ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bu il ərzində Çində və Polşada həmin ölkələrin prezidentlərinin himayəsi altında keçirilmiş beynəlxalq konfranslarda, BMT Baş Assambleyası çərçivəsində ABŞ-da, Cenevrədə Ümumdünya Səhiyyə Təşkilatı və BMT-nin Cenevrə ofisi, Berlində Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə təşkil olunan tədbirlərdə, həmçinin Yaponiyada baş tutan Texnologiya Sammitində və Latviyanın paytaxtında keçirilmiş «Riqa konfransı–2022»də tərəfdaş kimi çıxış edibdir.*

## GÜRCÜSTANIN TƏHSİL VƏ ELM NAZİRİ MİXEİL ÇXENKELİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Gürcüstanın Təhsil və Elm naziri Mixeil Çxenkelini qəbul etmişdir.*

*Dövlət başçısı bir neçə gün əvvəl Gürcüstana səfərinin uğurla keçdiyini, səmərəli müzakirələrin aparıldığını bildirdi, səfərin ölkələrimiz arasında qardaşlıq əlaqələrinin gələcək inkişafı üçün çox əhəmiyyətli olduğunu vurğuladı, müzakirə olunan məsələlərin siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə geniş gündəliyi əhatə etdiyini söylədi. Prezident İlham Əliyev qeyd etdi ki, təhsil əməkdaşlığımızın əhəmiyyətli hissələrindən biridir. Dövlət başçısı Gürcüstanda Azərbaycan dilində, Azərbaycanda isə gürcü dilində məktəblərin fəaliyyət göstərməsini bunun yaxşı göstəricisi kimi qiymətləndirdi.*

*Prezident İlham Əliyev Mixeil Çxenkelinin səfərinin ölkələrimizin müvafiq nazirlikləri arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Qəbula görə minnətdarlıq edən Mixeil Çxenkeli dövlət başçısının Gürcüstana səfərinin tarixi səfər olduğunu qeyd etdi və əlaqələrimizin genişləndirilməsində səfərin xüsusi önəm daşıdığını vurğuladı.*

*Qonaq ölkələrimizin Təhsil və Elm nazirlikləri arasında çox səmərəli və uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.*

*Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ VƏ BMT-nin CENEVRƏDƏKİ BÖLMƏSİNİN BAŞ DİREKTORU TATYANA VALOVAYA İLƏ GÖRÜŞ

*27 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar 2030-cu ilə qədər qarşıya qoyulmuş hədəflərə nail olacağına əminlik ifadə edildi və bu istiqamətdə əldə olunmuş nailiyyətlər xüsusi vurğulandı. Ölkəmizin BMT-nin Cenevrə bölməsi yanındakı strukturları və ixtisaslaşmış təşkilatları ilə əməkdaşlığı qeyd olundu. Bundan əlavə, Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü maliyyə töhfələri, həmçinin donor təşəbbüslərini dəstəkləməsi məsələləri vurğulandı. COVID-19-a qarşı mübarizə tədbirləri çərçivəsində «Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Hərəkatın 80-dən çox üzv ölkəsinə göstərdiyi humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirildi.*

*Tatyana Valovaya BMT-nin Cenevrədəki bölmə rəhbərinin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan qadınlarına həsr olunmuş fotosərginin əhəmiyyətinə toxundu. Bildirildi ki, sərgi Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermiş Azərbaycan qadınlarını təşviq edir və ilk olaraq Bakıda təşkil edilən bu tədbir mütəmadi şəkildə digər ölkələrdə də keçiriləcək.*

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ ALEKSEY OVERÇUK İLƏ GÖRÜŞ

*27 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Rusiya Federasiyası Baş Nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.*

*Görüşdə Azərbaycan və Rusiya prezidentləri arasında əldə olunmuş razılaşmalar əsasında münasibətlərimizin dinamik inkişafından və ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika sahələrində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edildi, bütün istiqamətlər üzrə irəliləyişin olduğu və ticarət dövriyyəsinin artdığı vurğulandı. Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı 10 noyabr Bəyanatının icrası ilə bağlı bölgədə nəqliyyat və iqtisadi əlaqələrin bərpası məqsədilə yaradılmış Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli İşçi qrupunun fəaliyyəti üzrə məsələlər müzakirə olundu.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram.

Türkiyə gündən-günə güclənən, sürətlə inkişaf edən, beynəlxalq aləmdə söz sahibi olan ən qüdrətli ölkələrdən birinə çevrilmişdir. Bu gün siyasi, iqtisadi, hərbi, texnoloji və digər sahələrdə əldə etdiyi mühüm nailiyyətləri ilə qardaş Türkiyə ən qabaqcıl ölkələr sırasındadır. Eyni zamanda, son dərəcə mürəkkəb proseslərin cərəyan etdiyi dünyada və regionda sülhün və sabitliyin bərqərar olması, haqqın və ədalətin müdafiəsi naminə ardıcıl və qətiyyətli mövqeyi ilə ölkəniz beynəlxalq müstəvidə yüksək nüfuz və hörmət qazanmışdır.

Bütün bunların təməlində Sizin zəhmətiniz və yorulmaz əməyiniz, müdrik rəhbərliyiniz altında aparılan dövlət siyasətinə xalqınızın böyük etimadı və dəstəyi dayanır. Qüdrətli Türkiyə Respublikasının hər bir uğurunu öz uğurumuz hesab edir, bundan hədsiz qürur duyuruq.

İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir.

Tarixin ən önəmli anlarında Azərbaycana dayaq olmuş qardaş Türkiyənin İkinci Qarabağ müharibəsi zamanı da yanımızda olmasını, Siz başda olmaqla bütün xalqınızın müharibənin ilk saatlarından son dəqiqələrinə qədər bizi dəstəkləməsini daim yüksək qiymətləndirir və heç zaman unutmuruq. Bu gün də Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası işində və yenidən qurulmasında Azərbaycana ən çox dəstək verən yenə də qardaş Türkiyədir. Bir neçə gün bundan əvvəl Sizin Azərbaycana səfəriniz çərçivəsində Zəngilan Beynəlxalq Hava Limanının, «Dost Aqropark» ağıllı kənd təsərrüfatı» Kompleksinin açılışında iştirakımız, bir sıra mühüm infrastruktur layihələrinin təməlini birgə qoymağımız qardaşlıq münasibətlərimizin sarsılmaz ənənələrinin bariz ifadəsidir.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, «Bir millət – iki dövlət» şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 oktyabr 2022-ci il*

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ ANDREY BELOUSOV İLƏ GÖRÜŞ

*28 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Rusiya Federasiyası Baş Nazirinin birinci müavini Andrey Belousovu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurlu və dinamik inkişafı qeyd edildi, ticarət dövriyyəsinin artımı vurğulandı. Söhbət zamanı iqtisadi-ticari, nəqliyyat-logistika, Şimal–Cənub nəqliyyat dəhlizi, maliyyə-bank, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olundu.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDELMACİD TEBBUNA**

Hörmətli cənab Prezident!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

1 noyabr 1954-cü ildə Əlcəzair xalqı müstəmləkəçilik siyasətinə qarşı azadlıq mübarizəsinə başlamışdır. Müstəmləkəçi qüvvələrin xalqınıza qarşı törətdiyi misli görünməmiş şiddətinə, zorakı əməllərinə və müharibə cinayətlərinə baxmayaraq, Əlcəzair xalqının müstəqillik əzmi sarsılmamış, əksinə, milli birlik və həmrəylik daha da güclənmişdir.

Ənənəvi dostluq və qardaşlıq telləri ilə bir-birinə bağlı olan ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəsi məmnunluq doğurur və biz bu münasibətlərə böyük əhəmiyyət veririk.

Ötən illər ərzində Azərbaycan ilə Əlcəzair arasında ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlıq konstruktiv məcrada inkişaf etmişdir. Bu mənada, beynəlxalq təşkilatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı və «Qoşulmama Hərəkatı» çərçivəsində qarşılıqlı eti-

mad və dəstəyə əsaslanan əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim.

İnanıram ki, Azərbaycan–Əlcəzair əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığımız birgə səylərimizlə bundan sonra da dost ölkələrimizin və xalqlarımızın mənafeyi naminə möhkəmlənəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2022-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YUN SOK YOLA**

Hörmətli cənab Prezident!

Seul şəhərində yaranmış izdiham nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Koreya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 oktyabr 2022-ci il*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*31 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ İKİTƏRƏFLİ GÖRÜŞ

*Soçi*

*31 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında oktyabrın 31-də Soçidə ikitərəfli görüş keçirilmişdir.*

*Rusiya Prezidenti Vladimir Putin dövlət başçımızı qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu! Sağ olun ki, bizə, Soçiyə gəlmisiniz. Əslində bu görüş Sizin və Ermənistan baş nazirinin təşəbbüsü ilə, özü də məhz Soçidə təşkil edilib. Görünür, Siz Soçidə havanın yaxşı olacağını nəzərdə tutmusunuz, lakin belə olmadı, payızdır. Bununla belə, fikrimcə, bu görüş əhəmiyyətlidir, vacibdir.

Hesab edirəm ki, bu görüşün məqsədi bizim 2020-ci və 2021-ci illərdə nail olduğumuz bütün razılaşmaların yerinə yetirilməsini təmin etməkdir. Siz dəfələrlə qeyd etmisiniz ki, Rusiya münaqişənin nizamlanmasında nəzərəçarpacaq, mühüm rol oynayıb. Hazırda bizim sülhməramlı kontingentimiz öz mis-

siyasını necə yerinə yetirməli idisə, elə də yerinə yetirir. Bu dəyərləndirmənizə görə Sizə təşəkkür edirəm.

Bu gün isə, əlbəttə, bugünkü vəziyyətdə yaranmış şərait barədə danışmaq, hələ həll edilməmiş məsələlərin həlli yollarını axtarmaq lazım gələcək. Bununla əlaqədar mən iqtisadi xarakterli mühüm tərkib hissəni qeyd etmək istərdim: biz üçtərəfli İşçi qrupu yaratmışıq, ona Baş nazirlərin müavinləri rəhbərlik edirlər. Bizim əvvəllər, hələ iki il bundan qabaq haqqında danışdığımız məsələlərin həlli baxımından onlar kifayət qədər irəliləyiblər. Görünür, burada da əlavə impuls vermək lazımdır.

Bilirəm ki, Azərbaycan tərəfi bu istiqamətdə kifayət qədər fəal işləyir.

Gündəlikdəki məsələlərin əhatə dairəsi kifayət qədər genişdir. Sizi görməyə çox şadam. Xoş gəlmisiniz!

**İlham Əliyev**: Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. Dəvətə görə təşəkkür edirəm. Yenidən görüşməyimizə şadam. Biz Sizinlə keçən ayda da, bu ayda da görüşmüşük, ikitərəfli münasibətləri kifayət qədər ətraflı müzakirə etmək və bu münasibətlərdə müsbət dinamikanı qeyd etmək imkanımız olub. Bugünkü görüş bizim regional məsələlərə həsr edilib. Qarabağ münaqişəsinin nizamlanmasında oynadığınız rola görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. İki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyanat çoxillik münaqişəyə son qoydu. İndi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışmaq və hərəkət etmək vaxtı yetişib. Əlbəttə, biz bu məsələdə Sizin şəxsi rolunuzu yüksək qiymətləndiririk.

Bir qədər sonra keçiriləcək bugünkü üçtərəfli görüş bizim ilk görüşümüz olmayacaq. Sizin təşəbbüsünüzlə belə görüşlər keçirilib və görürəm ki, normallaşma prosesinə çox yaxşı impuls verib. Azərbaycan nisbətən yaxın vaxtlarda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Bunlar beynəlxalq hüququn fundamental prinsipləridir və fikrimcə, bu əsasda normallaşmaya nail olmaq mümkündür.

Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan praktiki olaraq, müzakirə edilməli məsələ yoxdur. Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması isə, əlbəttə, çox ciddi addımlar tələb edən formatdır. Biz bu məqsədlərə nail olmaq işində bundan sonra da şəxsən Sizin fəal rolunuza və Rusiyanın roluna ümid bəsləyirik. Dəvətə görə bir daha sağ olun.

## AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ RUSİYA DÖVLƏT RƏHBƏRLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Soçi*

*31 oktyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 31-də Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olmuşdur.*

**V l a d i m i r  P u t i n:** Hörmətli həmkarlar, bu gün biz üç sessiyadan ibarət danışıqlar apardıq. Əvvəlcə, Ermənistan nümayəndə heyəti ilə, sonra Ermənistanın baş naziri ilə təkbətək danışdıq. Daha sonra Azərbaycan nümayəndə heyəti ilə və Azərbaycan Prezidenti ilə təkbətək danışdıq və sonra iki saat, bəlkə də bir qədər artıq müddətdə üçlükdə söhbət etdik. Bizim ümumi fikrimizə görə bu görüş çox faydalı oldu. Məncə, bu görüş bəzi prinsipial məsələlər barədə gələcəkdə mümkün razılaşmalar üçün çox yaxşı abhava yaratdı.

Bu gün biz birgə Bəyanatı razılaşdırdıq. Açıq deməliyəm, hər şeyi razılaşdırmaq mümkün olmadı. Əvvəlcədən mütəxəssislər səviyyəsində işlənmiş mətndən bəzi hissələri çıxarmalı olduq. Bununla belə, mən

ümumi rəylə razıyam ki, görüş faydalı oldu və bu, bütövlükdə vəziyyətin nizamlanması istiqamətində sonrakı addımlar üçün şərait yaradır. Özü də mən bütövlükdə deyəndə həm yaxın keçmişə aid cari hadisələri, həm də iki il bundan əvvəl baş vermiş hadisələri nəzərdə tuturam. Hər halda, o vaxt biz prinsipial məsələlər barədə razılığa gəlməyə nail olduq. Bugünkü diskussiya onu göstərir ki, biz bütün ölkələrimizin gələcəyi barədə də razılığa gələ bilərik. Mən bizim bütün ölkələr dedikdə həm Rusiyanı, həm Azərbaycanı, həm Ermənistanı, həm də bütün region ölkələrini nəzərdə tuturam. Ona görə ki, bu ərazidə yaşayan bütün xalqlar münasibətlərin normallaşmasında maraqlıdırlar. Rusiya öz tərəfindən qəti və hərtərəfli nizamlamaya nail olmaq üçün nə mümkündürsə edəcək.

Çox sağ olun. Mən öz həmkarlarıma – həm Ermənistan baş nazirinə, həm də Azərbaycan Prezidentinə təşəkkür etmək istəyirəm ki, siz Rusiyaya, Soçiyə gəlməyə və bugünkü diskussiyanı aparmağa razılaşdınız. Razılaşdığımız kimi, biz əlaqə saxlayacağıq, bu dialoqu və uzun müddət davam edən bu münaqişəyə nöqtə qoymaq üçün zəruri həllərin axtarışını davam etdirəcəyik.

Çox sağ olun, təşəkkür edirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN, ERMƏNİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ NİKOL PAŞİNYANIN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN BİRGƏ BƏYANATI

*Soçi*

*31 oktyabr 2022-ci il*

**«Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyanatı 31 oktyabr 2022-ci il**

*Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2022-ci il oktyabrın 31-də Soçi şəhərində görüşdük və 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların həyata keçirilməsinin gedişatını müzakirə etdik.*

*Azərbaycan–Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduğumuzu təsdiq etdik. Qalan məsələlərin, o cümlə-*

*dən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşdıq.*

*Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə mühüm töhfəsini qeyd edərək, onun regionda vəziyyətin sabitləşməsinə yönəlmiş səylərinə ehtiyac olduğunu vurğuladıq.*

*Güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəldik.*

*Regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğuladıq. Mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışını davam etdirmək barədə razılaşdıq. Rusiya Federasiyası buna hər vasitə ilə kömək göstərəcək.*

*Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyini vurğuladıq.*

*Azərbaycan Respublikasının və Ermənistan Respublikasının liderləri Rusiya Federasiyasının bundan sonra da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sabitliyin və tərəqqinin təmin edilməsinə hərtərəfli şərait yaratmağa hazır olmasını alqışladılar.*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**NİKOL PAŞİNYAN**
**Ermənistan Respublikasının baş naziri**

**VLADİMİR PUTİN**
**Rusiya Federasiyasının Prezidenti»**

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfəri oktyabrın 31-də başa çatdı.*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASINA SƏFƏR

*1 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikası Prezidentinin dəvəti ilə Zirvə toplantısında fəxri qonaq statusunda iştirak etmək üçün bu ölkəyə səfərə gəlmişdir.*

*Əlcəzair şəhərinin Huari Bumedyen Beynəlxalq Aeroportunda dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini rəsmi şəxslər qarşıladılar.*

## ŞƏHİDLƏR ABİDƏSİNİ VƏ MİLLİ MÜCAHİDLƏR MUZEYİNİ ZİYARƏT

*Əlcəzair*

*1 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət etmişdir.*

*Burada dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Əlcəzairin azadlığı uğrunda mübarizədə həyatını qurban vermiş döyüşçülərin xatirəsinə ucaldılmış Şəhidlər abidəsi ölkənin müstəqilliyinin 20-ci ildönümü münasibətilə 1982-ci ildə açılıb. Abidənin hündürlüyü 92 metrdir.*

*Milli Mücahidlər Muzeyi ilə tanışlıq zamanı dövlət başçımıza məlumat verildi ki, Şəhidlər abidəsinin altında yerləşən və 1984-cü ildə açılmış muzeyin kolleksiyasının böyük hissəsi ölkənin Fransa tərəfindən işğalına və 1830–1962-ci illərdə Fransa müstəmləkəçiliyinə qarşı aparılmış xalq müqavimətinə həsr olunub. Burada rəsm əsərləri ilə yanaşı, müstəmləkəçiliyə qarşı mübarizə aparmış əlcəzairli mücahidlərə aid silahlar, arxiv materialları və döyüş əşyaları, fotoşə-*

*killər və sənədlər, həmçinin müqavimət dövründə fransızların xalq hərəkatı iştirakçılarını cəzalandırmaq üçün istifadə etdikləri edam alətləri nümayiş olunur. Fransa müstəmləkəçiliyinə qarşı hərəkata rəhbərlik etmiş Əmir Əbdülqadirin (Əbdülqadir İbn Muhyiddin) şəxsi əşyaları və silahları, onun 1853-cü ildə fransız rəssam Anj Tisye tərəfindən çəkilmiş və yalnız 1976-cı ildə Fransa tərəfindən ölkəyə qaytarılmış portreti muzeyin ən çox ziyarət olunan kolleksiyaları sırasındadır.*

*Muzeydə xalq hərəkatının 7000-dən çox iştirakçısının şahid ifadələri toplanılıb.*

*Fransızlar 1830–1962-ci illəri əhatə edən işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər. Buna görə də Əlcəzair «1,5 milyon şəhid ölkəsi» adlandırılır. Ümumilikdə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub. Fransızların Əlcəzairə münasibəti işğal etdikləri digər ərazilərdən fərqli olub. Belə ki, əgər başqa ərazilərin müstəmləkə olduğu qəbul edilirdisə, Əlcəzair Fransanın bir parçası, onun dənizarxası ərazisi sayılırdı.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev muzeyin Xatirə kitabına aşağıdakı ürək sözlərini yazdı: «Əlcəzair Xalq Demokratik Respublikasına ilk dəfə səfərə gəlməkdən və qardaş Əlcəzair xalqına dərin ehtiramımın ifadəsi olaraq Milli Mücahidlər Muzeyini ziyarət etməkdən şərəf hissi duyuram.*

*Milli Mücahidlər Muzeyi Əlcəzair xalqının şanlı tarixinin ən faciəli və ən qürurverici səhifələrindən birini özündə əks etdirən mühüm kompleksdir. Bu*

*muzey Əlcəzair xalqına qarşı misli görünməmiş qəddarlıqla və şiddətlə həyata keçirilən müstəmləkə siyasətinin, müharibə və insanlıq əleyhinə cinayətlərin, müstəmləkəçi qüvvələrə qarşı ümumxalq mübarizəsinin və 1,5 milyon şəhidin canı bahasına qazanılmış müstəqillik qələbəsinin yaddaşlarda qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.*

*Amansız müstəmləkə əsarətindən qurtulmaq üçün başlanılan azadlıq və müstəqillik mübarizəsi Əlcəzair xalqının böyük şücaətinin, birliyinin, sarsılmaz iradəsinin və qətiyyətinin rəmzi kimi, Əlcəzair tarixinə əbədi olaraq həkk olunmuşdur.*

*Böyük qurbanlar verərək istiqlaliyyətə qovuşmuş qardaş Əlcəzairin bu gün inkişafını, rifahını görməkdən dost və qardaş ölkənin rəhbəri olaraq böyük qürur hissi keçirirəm.*

*Milli Mücahidlər Muzeyində mənə göstərilən səmimi qəbula görə təşəkkürümü bildirir, Əlcəzair xalqının qəhrəmanlıq irsinin əbədiləşdirilməsi işində muzeyin fəaliyyətinə uğurlar arzulayıram».*

*Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.*

* * *

*Fransanın Əlcəzairdə apardığı siyasətlə Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Qarabağda yürütdüyü siyasət arasında paralellər aparmaq olar. Rəsmi Parisin ermənipərəst siyasətinin kökündə həm də bu yanaşma dayanır. Ərazisinə görə Afrikanın və ərəb dünyasının ən böyük ölkəsinin 11 milyondan*

*çox vətəndaşına vaxtilə muxtariyyət belə, verməkdən imtina etmiş Fransa indi Qarabağda yaşayan 15–20 min erməniyə müstəqillik tələb edir.*

*Fransa ordusu öz azadlığını tələb edən əlcəzairlilərə qarşı kütləvi qətliamlar, çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətlər törədib. Eyni cinayətlər Qarabağda yaşayan və erməni işğalına qarşı çıxan azərbaycanlılara qarşı da həyata keçirilib. Məsələn, 1832-ci ildə Əlcəzairin Fransa tərəfindən işğal edilməsinə qarşı çıxan El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilib. Bu hadisənin bənzərini biz 1992-ci ildə Xocalıda müşahidə etdik. Bu gün Fransa tərəfindən dəstəklənən Ermənistan o vaxt Xocalının dinc əhalisinə qarşı özü də gecə vaxtı soyqırımı törətdi. Bundan əlavə, həm Fransa, həm də Ermənistan müharibə zamanı Cenevrə konvensiyalarının tələblərini pozaraq, qadağan olunmuş silahlardan istifadə edibdir.*

*Fransanın törətdiyi daha bir facið isə 1961-ci ilin oktyabrında baş verib. O zaman on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxır. Fransa polisinin açdığı atəş və etirazçıları Sena çayına atması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilir, 1000-dən çox şəxs həbs olunur. Bu hadisə tarixə «Sena qətliamı» kimi daxil olub. Fransa hakimiyyəti bu faciə ilə də bağlı susqunluq nümayiş etdirir. Fransanın törətdiyi qətliamlara görə məsuliyyəti boynuna almamaq ənənəsi görünür Ermənistana da sirayət edilir. 1992–93-cü illərdə Qaradağlı, Ağdaban, Xocalı və digər yaşayış məntəqələrində azərbaycanlılara qarşı törədilmiş soyqırımı və qətliamlar əslində 1945-ci ildə Setifdə, 1961-ci ildə Paris-*

*də törədilmiş qətliamlarla oxşardır. Hər iki halda cinayətkarlar planlı şəkildə həyata keçirdikləri qətliamların məsuliyyətini boyunlarına almayıblar. Ermənistan və Fransanın siyasətində daha bir oxşarlıq qanunsuz məskunlaşma ilə bağlıdır. Belə ki, Qarabağda regionun etnik tərkibini dəyişmək üçün Ermənistan tərəfindən Yaxın Şərqdən və digər regionlardan erməni əsilli şəxslərin Azərbaycan torpaqlarına köçürüldüyü kimi, Əlcəzairdə də qanunsuz məskunlaşma siyasəti nəticəsində ölkə əhalisinin 1 milyonunu bu torpaqlarla heç bir bağlılığı olmayan avropalılar təşkil edirdi.*

*Fransanın daha bir ikiüzlülüyü isə Paris muzeylərində bu ölkənin müstəmləkəsi olan xalqların 21 min nümayəndəsinin kəllə sümüyünün nümayiş etdirilməsidir. Həmin sümüklərin 500-nün əlcəzairlilərə məxsus olduğu bildirilir. Bu gün Azərbaycanın azad olunmuş ərazilərində də kütləvi məzarlıqlar, skeletlər aşkarlanır. Bütün bunlar onu göstərir ki, Fransa ilə Ermənistan arasında bir çox «oxşarlıqlar» mövcuddur və onların heç biri törətdikləri cinayətlərə görə cavab verməyib. Göründüyü kimi, ikili standartlar və riyakarlıq bütün hallarda Fransanın dövlət siyasətinin əsas xəttini təşkil edir. Bu riyakarlıq isə bu gün demokratiya adı altında pərdələnir.*

## ƏRƏB DÖVLƏTLƏRİ LİQASININ 31-ci ZİRVƏ TOPLANTISINDA FƏXRİ QONAQ STATUSUNDA İŞTİRAK

*Əlcəzair*

*1 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Əlcəzair şəhərində keçirilmiş Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılışı mərasimində Zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə fəxri qonaq statusunda iştirak etmişdir.*

*Əlcəzair Prezidenti Abdelmacid Tebbun Prezident İlham Əliyevi, Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı.*

*Azərbaycan və Əlcəzair prezidentləri rəsmi foto çəkdirdilər.*

*Tunis Respublikasının Prezidenti Kais Said Zirvə toplantısını açaraq çıxış etdi, təşkilata sədrliyi Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbuna təhvil verdi.*

*Əlcəzair Prezidenti Abdelmacid Tebbun və Ərəb Dövlətləri Liqasının baş katibi Əhməd Əbul Qeyt çıxış etdilər.*

*Sonra söz Prezident İlham Əliyevə verildi. Dövlət başçısı Zirvə toplantısında çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Əlcəzair Prezidenti Abdelmacid Tebbun!

Hörmətli Ərəb Dövlətləri Liqasının baş katibi Əhməd Əbul Qeyt!

Hörmətli dövlət və hökumət başçıları, hörmətli nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar!

İlk növbədə, mən Əlcəzair Prezidentinə və Ərəb Dövlətləri Liqasının baş katibinə dəvətə görə dərin təşəkkürümü bildirmək istəyirəm. Bunu dostluq və qardaşlıq əlaməti hesab edirəm. Bu mötəbər Sammitdə iştirak etmək və ölkələrimiz arasında birliyi nümayiş etdirmək mənim üçün böyük şərəfdir. Əlcəzairi belə bir xüsusi gündə, Milli Azadlıq Günündə, Milli Ləyaqət Günündə ziyarət etmək məndə xüsusi məmnunluq doğurur. Mən Əlcəzair Prezidentini və hökumətini, bütün Əlcəzair xalqını Azadlıq Günü münasibətilə təbrik edirəm.

Mən bu gün şəhidlərin xatirəsini yad etdim, Şəhidlər memorialını, eləcə də Mücahidlər Muzeyini ziyarət etdim və gördüklərim mənə çox təsir etdi. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır. Fransa 100 ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparıbdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnibdir. Bu gün biz bu faciəni anaraq, gələ-

cəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik.

Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi xarakteri vardır. Bu yay mənə baş katib cənab Əbul Qeyti Bakıda qəbul etmək şərəfi nəsib olub. Biz gələcək əməkdaşlığımızla bağlı geniş söhbət apardıq. Azərbaycan 2006-cı ildən müşahidəçi statusunda təşkilatın üzvüdür və biz əməkdaşlığımızı genişləndirmək istəyirik.

Bu gün mən Sammitdə «Qoşulmama Hərəkatı»nın sədri kimi iştirak edirəm, lakin eyni zamanda, bizim Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz vardır. Əminəm ki, yaxın gələcəkdə də bizim əməkdaşlığımız genişləndəcək, yeni xarakter və yeni dinamika alacaqdır.

Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk. Biz aramızda olan qarşılıqlı dəstəyi və həmrəyliyi yüksək qiymətləndiririk.

Azərbaycan da Əlcəzair kimi, işğaldan əziyyət çəkib. Bizim torpaqlarımız 30 il Ermənistanın işğalı altında qalıb. Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik.

Azərbaycan da öz növbəsində, bütün beynəlxalq forumlarda müsəlman qardaşlarımıza öz dəstəyini əsirgəməyib. Biz islam həmrəyliyinə kifayət qədər töhfə vermişik. 2017-ci il Azərbaycanda «İslam Həmrəyliyi ili» elan edilmiş və Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Bu id-

man tədbiri həmrəylik və dostluq bayramına çevrilmişdir.

«Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır. 120 ölkəni bir araya gətirən «Qoşulmama Hərəkatı» BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır. Azərbaycan 2019-cu ildən bu təsisatın sədridir və biz bütün üzv dövlətlərin yekdil səsi ilə seçilmişdik. Bu da bizim mövqemizə və siyasətimizə yüksək səviyyəli dəstəyi və rəğbəti nümayiş etdirir. Bizim sədrliyimiz bir daha yekdil qərarla 2023-cü ilin sonuna qədər uzadılıb. Biz bunu bir daha siyasətimizə verilən qiymətin əlaməti kimi görürük. Bizim sədrliyimiz COVID-19 dövrünə təsadüf etmişdir və biz bu məsələdə çox fəal idik. Azərbaycan koronavirusla bağlı 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı göstəribdir. Biz «Qoşulmama Hərəkatı»nın Sammitini təşkil etdik. Biz 2020-ci ilin dekabrında keçirilmiş və sırf COVID-19 ilə mübarizəyə həsr edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyasının təşəbbüskarı olduq. Bütün bu təşəbbüslərin bir ümumi məqsədi var idi – ehtiyacı olan ölkələrə dəstək vermək, resursları səfərbər etmək və peyvəndləri əldə etmək imkanı olmayan ölkələrə dəstək göstərmək.

Hörmətli həmkarlar, xatırlayırsınızsa, pandemiyanın əvvəlində peyvəndlərə çıxış ən vacib məsələlərdən biri idi. Hətta inkişaf etmiş bəzi Qərb ölkələri vaksinləri lazım olduğundan 5 dəfə, 10 dəfə çox əldə edirdilər. Amma resursları olmayan ölkələr əziyyət çəkməyə məcbur idi. Beləliklə, Azərbaycan bu məsələdə bir daha «peyvənd millətçiliyi»nə, peyvəndlə-

rin ədalətsiz paylanılmasına qarşı öz səsini ucaltdı və bu, «Qoşulmama Hərəkatı»nın da bizim mövqemizə dəstəyini gücləndirdi. Biz gələn ilin martında «Qoşulmama Hərəkatı»nın Sammitini keçirməyi planlaşdırırıq. Bu fürsətdən istifadə edib Ərəb Dövlətləri Liqasına üzv olan dövlət və hökumət başçılarını həmin Sammitdə iştirak etməyə dəvət edirəm.

İki il əvvəl Azərbaycan Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin, demək olar ki, 30 ilə yaxın davam edən işğalına son qoydu. Aparıcı beynəlxalq qurumların qətnamələrinə və qərarlarına baxmayaraq, Ermənistan bütün qərar və qətnamələrə məhəl qoymamış və Azərbaycan ərazisinin, demək olar ki, 20 faizini qanunsuz olaraq işğal altında saxlamağa davam etmişdi. İşğal zamanı 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdi. Bizim insanlarımız etnik təmizləməyə məruz qalmışdı. Ermənistan 1992-ci ildə hazırda 10-dan çox ölkə tərəfindən tanınmış Xocalı soyqırımını törədib. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir, lakin bu qətnamələr heç vaxt icra olunmamışdır.

Bu isə bizi başqa bir vacib amilə gətirib çıxarır. Bu da BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi ilə bağlıdır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Amma bizə gəldikdə bu qətnamələr 30 il ərzində kağız üzərində qaldı. Bu, ikili standartdır, bu yolverilməzdir. Bu, beynəlxalq hüququn norma və prinsiplərinə, ölkələrin öhdəliklə-

rinə selektiv yanaşmadır. Buna görə də ədalətsizlikdən və işğaldan əziyyət çəkmiş ölkə kimi, Azərbaycan münaqişələrə dair yanaşmaların birləşdirilməsi işinə töhfə vermək üçün aktiv şəkildə fəaliyyət göstərir. Bütün münaqişələrə eyni mövqedən yanaşmaq lazımdır. Münaqişələrə yanaşmalarda ikili standart olmamalıdır. İşğal işğal adlandırılmalıdır.

İki il əvvəl Azərbaycan, qeyd etdiyi kimi, bu münaqişəyə son qoydu. Biz bunu öz gücümüzlə etdik. Biz BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə etdik və ərazilərimizi güc yolu ilə azad etdik. Biz Ermənistanı məğlub etdik. Ermənistan kapitulyasiya etməyə məcbur oldu. İndi bizim torpaqlarımız azaddır və biz torpaqlarımıza qayıtmışıq.

Bəs qayıtdıqdan sonra biz nə gördük? 10000 $km^2$-dən çox ərazinin tamamilə məhv edildiyini gördük. Bu ərazi bəzi ölkələrin ərazisinə bərabərdir. Hər bir şey yerlə yeksan edilib, dağıdılıb – şəhərlər, kəndlər, binalar, tarixi abidələr, hətta əcdadlarımızın qəbirləri. İşğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən tamamilə dağıdılıbdır. Bu isə terrorçu Ermənistan dövlətinin islamofob mahiyyətinin təzahürüdür.

İndi isə biz şəhər və kəndlərimizi bərpa edirik. Biz «Böyük Qayıdış» adlanan proqramın icrasına başlamışıq. Biz bunu öz resurslarımız hesabına edirik. Əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bu işdə yardım etmirlər. Biz özümüz bunu edirik. Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı

fransızlar 5 milyondan çox mina basdırmışdı. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən 1 milyondan çox minanın basdırılmasını xatırlatdı. 2020-ci ilin noyabr ayında müharibə bitdikdən sonra minalar səbəbindən 260-dan çox azərbaycanlı həlak olmuş, yaxud ciddi yaralanmışdır. Biz bu işləri özümüz görürük. Biz torpaqlarımızı özümüz bərpa edəcəyik və artıq proses gedir. Biz Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən olan qardaşlarımızdan yenə həmrəylik görürük, beynəlxalq təsisatlarda dəstək görürük və buna görə çox minnətdarıq. Ərəb Dövlətləri Liqasına qardaş ölkə Azərbaycanın Prezidenti, «Qoşulmama Hərəkatı»nın sədri olaraq mən sizi bir daha əmin etmək istəyirəm ki, biz həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik.

Mən bu dəvətə görə Prezidentə və baş katibə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bir daha qeyd etmək istəyirəm ki, belə bir mötəbər auditoriya önündə çıxış etmək mənim üçün böyük şərəfdir. Sizə və xalqlarınıza xoşbəxtlik, rifah və sülh arzu edirəm. Təşəkkür edirəm.

* * *

*Sonra digər dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.*

*Ərəb Dövlətləri Liqası 1945-ci il martın 22-də Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən yaradılıb. Hazırda təşkilata 22 dövlət daxildir. Təşkilatın mərkəz-qərar-*

*gahı Misirin paytaxtı Qahirə şəhərində yerləşir. Türkiyə təşkilatda daimi müşahidəçi statusuna malikdir.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əlcəzair Xalq Demokratik Respublikasına səfəri noyabrın 1-də başa çatdı.*

*Əlcəzair şəhərinin Huari Bumedyen Beynəlxalq Aeroportunda dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*2 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etmişdir.*

*Telefon söhbəti zamanı Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçi görüşü və imzalanmış Birgə Bəyanat müzakirə olundu.*

*Prezident İlham Əliyev Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası «Togg»un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırdı və bunu Türkiyə sənayesinin yeni uğuru kimi dəyərləndirdi.*

*Telefon söhbəti zamanı Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin müxtəlif aspektləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ VİTSE-PREZİDENTİ FUAD OQTAY İLƏ GÖRÜŞ

*4 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Türkiyə Respublikasının vitse-prezidenti Fuad Oqtayı qəbul etmişdir.*

*Vitse-prezident Fuad Oqtay Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.*

*Dövlət başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı Şuşa Bəyannaməsinin önəmi vurğulandı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə sonuncu səfəri və həmin səfər çərçivəsində Zəngilan və Cəbrayıl şəhərlərində mühüm obyektlərin açılışlarında iştirakı məmnunluqla qeyd edildi. Rəcəb Tayyib Ərdoğan ilə iki gün əvvəl telefon danışığını xatırladan dövlət başçısı Türkiyənin elektromobil istehsalına başlamasını qardaş ölkə sənayesinin növbəti uğuru kimi dəyərləndirdi.*

*Görüşdə nəqliyyat əlaqələrinin inkişafı baxımından Zəngəzur dəhlizinin əhəmiyyəti qeyd olundu. Azərbaycanın Türkiyə iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırmasının önəmi xüsusi ola-*

*raq vurğulandı, ticarət dövriyyəsinin artdığı, energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi. Qaz ixracı məsələsinə toxunularaq, «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti qeyd edildi, bu dəhlizin ixrac imkanlarının genişləndirilməsinin önəmi vurğulandı.*

*Görüşdə nəqliyyat və ticarət sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı da fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Türkiyənin vitse-prezidentinin Şuşaya planlaşdırılan səfərini alqışladığını bildirdi.*

## BAKININ XƏZƏR RAYONUNUN ZİRƏ QƏSƏBƏSİNDƏ «ABŞERON ZEYTUN BAĞLARI» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN ZEYTUN YAĞI VƏ SÜFRƏLİK ZEYTUN MƏHSULLARI EMALI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*4 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Bakının Xəzər rayonunun Zirə qəsəbəsində «Abşeron Zeytun Bağları» Məhdud Məsuliyyətli Cəmiyyətin regionda ən böyük Zeytun Yağı və Süfrəlik Zeytun Məhsullarının Emalı zavodunun açılışı mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə zeytunçuluq kompleksinin yaradılması ilə bağlı görülən işlər barədə videoçarxı izlədi.*

*«Abşeron Zeytun Bağları» MMC-nin nümayəndəsi Rəmzi Şükürov dövlət başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.*

*Bildirildi ki, «Abşeron Zeytun Bağları» Məhdud Məsuliyyətli Cəmiyyətin zeytunçuluq kompleksi ölkəmizdə qeyri-neft sektoru və kənd təsərrüfatının inkişaf konsepsiyasının uğurla reallaşdırılmasının nəticəsidir. Layihə Azərbaycan, İspaniya, İsrail, İtaliya, Portuqaliya və Türkiyədən olan mütəxəssislərin birgə əməkdaşlığı ilə həyata keçirilib.*

*Sonra dövlət başçısı ərazidə zeytun ağacı əkdi.*

*Prezident İlham Əliyev avtobusla kompleksin ərazisini gəzdi.*

*«Abşeron Zeytun Bağları» MMC-nin məsləhətçisi Murad Küçükçakır Prezident İlham Əliyevə ərazidə salınmış zeytun bağları barədə məlumat verdi.*

*Layihənin həyata keçirilməsi üçün ilkin mərhələdə inzibati cəhətdən Zirə qəsəbəsinə aid olan Qoşaqışlaq kəndi ərazisində əkinçiliyə yararsız, sərt qayalıqlı 787 hektar torpaq sahəsinin təmizlənməsi işləri aparılıb. Həmin ərazinin 697 hektarında İspaniya, Portuqaliya, Türkiyə və Yunanıstandan idxal edilmiş «Arbequina», «Arbosana», «İmperial», «Gemlik», «Manzanillo», «Blanqueta», «Koroneiki» və digər sortlardan ibarət zeytun bağları salınıb.*

*Kompleks ümumilikdə 3000 hektar ərazini əhatə edir. Abadlıq işlərinin aparılması, geniş sahədə bağın salınması nəticəsində bir vaxtlar yararsız vəziyyətdə olan torpaq canlanmış, ərazinin iqlim və florası bərpa edilmişdir. Bazarın tələbatına uyğun olaraq ərazidə yağlıq, süfrəlik və qarışıq zeytun növlərində tinglər əkilib. Növbəti illərdə əkin işlərinin davam etdirilməsi və Gürgən qəsəbəsinin ərazisində 1162 hektar zeytun bağlarının salınması nəzərdə tutulur.*

**İlham Əliyev:** Keçən il məhsul yığmışdınız?

**Murad Küçükçakır** (*«Abşeron Zeytun Bağları» MMC-nin məsləhətçisi*): Bəli, keçən il də yığmışıq. Bu il gözləniləndən çox məhsul var. Bütün dünyada quraqlıq və müxtəlif səbəblərdən məhsuldarlıq az olarkən, biz bu il, inşallah, hədəfimizi

üstələyəcəyik. Çox gözəl bir il yaşayırıq. Hələ dördüncü ilimizdəyik.

**İlham Əliyev:** Bir hektardan nə qədər məhsul yığırsınız?

**Murad Küçükçakır:** Hədəfimiz bir hektardan 10 ton məhsul almaqdır. Bu il 2500–3000 kiloqram ətrafında olacaq. Dördüncü ildə bu rəqəmə çatmaq həqiqətən, yaxşı nailiyyətdir. Burada gözəl bir komandamız var. Birlikdə gözəl işlər, məhsuldar əməkdaşlıq şəraitində çalışırıq. Bu komanda ilə birlikdə çalışmaqdan çox məmnunam.

**İlham Əliyev:** Çox gözəl. Bu, daxili tələbatı nə qədər ödəyəcək?

**Rəmzi Şükürov:** Cənab Prezident, il ərzində 4000 ton yağ istehsalını planlaşdırırıq. Bunun təqribən 2000 tona yaxını daxili bazar üçündür. Təbii ki, daxili bazarı zeytun yağı istehlakına alışdırmalıyıq. Çünki bu çox vacibdir. 2000 ton məhsulu isə ixrac etməyi planlaşdırırıq.

**İlham Əliyev:** Boş torpaqlarda belə gözəl kompleks yaratmışıq. Burada tarixboyu heç nə bitmirdi, heç nə əkilmirdi. Amma biz hər yerdə xariqələr yaradırıq.

**Rəmzi Şükürov:** Cənab Prezident, artıq burada təbiət formalaşıb.

**İlham Əliyev:** Əlbəttə, iqlimə də müsbət təsiri olacaq, təbiətə də, insanların sağlamlığına da.

*Məlumat verildi ki, 2019-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva burada olub və*

*zeytun bağlarının salındığı ərazidə ilk zeytun ağacını əkibdir.*

*Qeyd olundu ki, bağların suvarılması məqsədilə İsrailin «Netafim» şirkəti ilə əməkdaşlıq çərçivəsində tam avtomatlaşdırılmış suvarma sistemləri qurulub.*

*Sonra Prezident İlham Əliyevə zavodda görülmüş işlər barədə də məlumat verildi.*

*Bildirildi ki, İtaliyanın «Pieralisi» şirkəti ilə əməkdaşlıq çərçivəsində ildə 4000 ton zeytun yağı istehsal etmək gücünə malik zavod qurulub. Müəssisədə 5 istehsal xətti yaradılıb. Zavodda soyuq sıxım «Extra Virgin» zeytun yağı istehsal olunur.*

*Daha sonra Prezident İlham Əliyev müəssisədə istehsal olunan zeytun yağlarının nümunələri ilə tanış oldu. Diqqətə çatdırıldı ki, müəssisədə istehsal olunan məhsullardan nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyalarında analiz olunub və məhsulların mövcud tələblərə uyğunluğu təsdiq edilibdir.*

*Dövlət başçısı zavodu işə saldı, istehsal prosesi və laboratoriyaların işi ilə tanış oldu.*

*Azərbaycan Prezidentinə kompleksdə istifadə olunan «New Holland» texnikası barədə məlumat verildi. Bildirildi ki, dünyanın qabaqcıl texnologiyası olan «New Holland» kombaynı ilə zeytun toplama Azərbaycanda ilk dəfə məhz «Abşeron Zeytun Bağları» MMC-də həyata keçirilir.*

*Prezident İlham Əliyev müəssisənin süfrəlik zeytun emalı sahəsi ilə də tanış oldu.*

*Məlumat verildi ki, ərazidə Türkiyənin «Tutkun Makina» şirkəti ilə əməkdaşlıq çərçivəsində illik*

*1000 ton xam zeytun qəbul etmə imkanı olan süfrəlik zeytun emalı sahəsi qurulub. Gələcəkdə fermentasiya çənlərinin sayını artırmaqla istehsal sahəsində məhsul buraxılışını illik 2000 tona çatdırmaq nəzərdə tutulur. Müəssisədə yaşıl, qara, çəyirdəkli və çəyirdəksiz, dilimlənmiş, içlikli, əzilmiş və s. növ süfrəlik zeytun məhsullarının istehsalı üçün imkanlar mövcuddur.*

*Prezident İlham Əliyev İtaliyanın «Pieralisi» şirkətinin nümayəndələri ilə görüşdü.*

*İtaliyadan olan mütəxəssislər dövlət başçısı ilə görüşməkdən məmnunluqlarını ifadə etdilər.*

**İlham Əliyev:** Bu çox perspektivli sahədir. Azərbaycan zeytun və zeytun yağını həm istehsal edən, həm də ixrac edən ölkələrin ailəsinə qoşulacaqdır.

**İtaliyalı mütəxəssis:** Siz bu ailəyə yüksək səviyyəli zavodla daxil olacaqsınız, birmənalı şəkildə. Birbaşa əsas liqaya keçəcəksiniz.

**İlham Əliyev:** Təşəkkür edirəm. Əlbəttə, bizim istehsalı genişləndirmək planlarımız var. Beləliklə, biz xüsusilə burada – Abşeron yarımadasında və Azərbaycanın bəzi digər ərazilərində istifadə olunmayan torpaqlardan zeytun istehsalı üçün maksimum istifadə etməyi planlaşdırırıq.

**İtaliyalı mütəxəssis:** Biz Sizə xidmət və dəstək göstərmək üçün buradayıq.

**İlham Əliyev:** Ola bilsin ki, yaxın gələcəkdə bizə istehsalı genişləndirmək lazım olacaq. Düşünürəm ki, buna görə bizim sizin şirkətlə əməkdaşlığımız strateji əhəmiyyət daşıyacaq. Çünki burada – Abşeronda, həmçinin azad edilmiş ərazilərdə potensial vardır. Bütün bunlar torpaq, iqlim, məh-

suldarlıq nöqteyi-nəzərdən qiymətləndiriləcək. Bizim önəmli iştirakçı olmaq üçün ciddi planlarımız vardır. Həmçinin ölkə daxilində minlərlə iş yeri və yerli istehsalı yaratmaq planlarımız vardır.

*«Abşeron Zeytun Bağları» MMC-də ümumilikdə 350-dək şəxs işlə təmin olunub. Məhsulların daxili bazarla yanaşı, «made in Azerbaijan» brendi ilə xarici bazarlara da ixracı nəzərdə tutulur.*

## FÜZULİ RAYONUNA SƏFƏR

*7 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev noyabrın 7-də Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş «N» saylı hərbi hissəsində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoydu, burada ağac əkdi.*

*Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərciyin qərargah binası ilə tanış oldu.*

*Dövlət başçısı hərbçilərlə birgə foto çəkdirdi, onları 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik etdi.*

*Hərbi şəhərcikdə görülmüş işlər barədə məlumat verən nazir Zakir Həsənov bildirdi ki, şəxsi heyətin xidməti və məişət şəraitinin təmin edilməsi məqsədilə əsaslı təmir olunmuş hərbi şəhərcik ərazisində qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanaları, hamam-camaşırxana, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri mövcuddur. Burada döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, döyüş*

*əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzi, rabitə qovşağı və digər xidməti otaqlar vardır.*

*Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərcikdə əsgər yataqxanası, əsgər yeməkxanası və idman zalı ilə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, şəhərcikdə hərbi qulluqçular və onların ailələri üçün yeni istifadəyə verilmiş iki və üçmərtəbəli yaşayış binaları, məktəb və uşaq bağçası mövcuddur. Hərbi qulluqçuların səmərəli istirahəti üçün müasir standartlara uyğun şərait yaradılıb.*

*Müzəffər Ali Baş Komandan İlham Əliyev mənzillərdə yaradılmış şəraitlə də tanış oldu.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABINDAN

*7 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.*

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABINDAN**

*7 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında foto paylaşmışdır.*

## ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ TƏDBİRDƏ İŞTİRAK

*Şuşa*

*8 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, xanımı Mehriban Əliyeva və oğlu Heydər Əliyev Zəfər Günü münasibətilə noyabrın 8-də Şuşada təşkil olunmuş tədbirdə iştirak etmişlər.*

*Dövlət başçısı hərbçilər qarşısında çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz hərbçilər!

Mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Alınmaz qala sayılan Şuşanı 2 il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Şuşa həqiqətən, alın-

maz qala sayılırdı. Şuşanı yüngül silahlarla təchiz edilmiş qəhrəman hərbçilərimiz azad edəndə onlar ölümə gedirdilər. Vətən uğrunda, torpaq uğrunda ölümə gedirdilər. Hər birimiz yaxşı anlayırdıq ki, Şuşasız bizim tam qələbəmiz mümkün olmayacaq.

Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq, onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir. Hər dəfə Şuşada olarkən – mən son 2 il ərzində Şuşada 10 dəfədən çox olmuşam – hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. Çünki Zəfər yolu adlandırdığımız yol cəmi 2 ilə yaxındır ki, çəkilib. Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub

edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. Bu tarixi gündən cəmi 2 il keçib və 2 il ərzində bir çox hadisələr baş verib. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaqdır.

Şuşaya gedən yol 27 sentyabr tarixində başlanmışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Halbuki biz dünya hərb tarixindən bilirik ki, belə çətin müharibələrdə, xüsusilə bizim üçün əlverişsiz relyef şəraitində gedən müharibələrdə manevrlər də, geriyə addımlar da, gözlənilməz hadisələr də olur. Ancaq bizi Qələbəyə aparan güclü iradə idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi. Sentyabrın 27-də – müharibənin birinci günündə 6 kənd azad olunanda Azərbaycan xalqı daha da inandı ki, biz istədiyimizə nail olacağıq, tarixi missiyamızı yerinə yetirəcəyik.

Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10000-dən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır.

Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Hərbçilərimiz ölümə gedirdilər, «öldü var, döndü yoxdur» şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişib ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyada, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər.

Qələbəyə gedən yol keşməkeşli və çətin idi. Birinci Qarabağ müharibəsindəki məğlubiyyət xalqımızı mənəvi cəhətdən sarsıtmışdı. O məğlubiyyətin də səbəbləri bəllidir. O vaxt antimilli ünsürlər hakimiyyəti zəbt etmişdilər, hakimiyyət uğrunda mübarizə aparmışdılar və hakimiyyətə gəlmək üçün Şuşa kimi alınmaz qalanı faktiki olaraq, Ermənistana, ermənilərə təslim etmişdilər. Şuşa və Laçın işğala məruz qalandan bir ay sonra AXC–Müsavat cütlüyü hakimiyyətə gəldi. Onlar bu faciə üzərində, tökülən bu qanlar üzərində, milli rəzalət üzərində hakimiyyətə gəldilər və hakimiyyətdə qaldıqları bir il ərzində ölkəmizi bərbad vəziyyətə qoydular, vətəndaş müharibəsinə start verdilər, öz əsgərlərini əsir götürdülər. Torpaqlar əldən gedirdi, onlar isə talançılıq, soyğunçuluqla məşğul olurdular. Hakimiyyəti möhkəmləndirmək üçün bütün səylərini səfərbər etmişdilər.

Yəni Birinci Qarabağ müharibəsində məğlubiyyət labüd idi. Çünki antimilli hakimiyyət müharibədə qələbə qazana bilməz. İşğal dövründə Ermənis-

tanın rəsmi təbliğatı, onların havadarlarının media resursları bir fikri bütün dünyaya, eyni zamanda, Azərbaycan xalqına bildirməyə çalışırdı ki, Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müharibə yolu ilə bərpa edə bilməz. Beynəlxalq qurumların nümayəndələrinin, bu məsələ ilə məşğul olan ölkələrin vəzifəli şəxslərinin çıxışlarına baxmaq kifayətdir. Onlar neçə dəfə demişdilər ki, bu müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni birincisi, bizi inandırmağa çalışırdılar. İkincisi, bizi məsələni hərbi yolla həll etməkdən çəkindirməyə çalışırdılar. Biz də təbii ki, çalışırdıq bu məsələ sülh yolu ilə həll olunsun, ancaq həll olunsun. Amma biz görürdük ki, sadəcə olaraq, danışıqlar taktikası məsələnin dondurulmasına aparır və əlbəttə ki, bununla heç vaxt razı ola bilməzdik.

Nəhayət, Azərbaycan xalqı bir yumruq kimi birləşərək, tarixi missiyasını yerinə yetirdi. Müharibəyə gedən yol bir çox istiqamətlərdən keçmişdir. İlk növbədə, biz özümüz ordumuzu lazımi silahlar və texnika ilə təchiz etməli idik. Bunun üçün də güclü iqtisadiyyat olmalı idi. Azərbaycan müstəqilliyi əldə edəndə bizim maliyyə, iqtisadi vəziyyətimiz çox ağır idi. Ona görə güclü iqtisadiyyatın yaradılması müharibədə Qələbənin qazanılması işində önəmli amil kimi nəzərə alınırdı və biz bunu etdik. Bizim iqtisadiyyatımız gücləndi, biz öz hesabımıza yaşayırıq, heç kimin yardımına ehtiyacımız yoxdur, heç kimdən asılı deyilik, özümüz imkan daxilində öz həyatımızı qururuq və yaxşı da qururuq.

İndi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Belə ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda 2 il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir. Biz bu 2 il ərzində heç bir ölkədən, heç bir təşkilatdan, heç bir donordan bir manat belə, yardım almamışıq. Əlbəttə, əgər kimsə yardım etmək istəsə, biz etiraz etmərik. Ancaq heç kim bizə yardım etmir və etməyəcək. Güclü iqtisadiyyat ordu quruculuğunda əsas amillərdən biridir. Biz bunu etdik, yaratdıq və iqtisadi asılılığı tamamilə aradan qaldırdıq. Əgər biz kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, müharibəni uğurla başa vura bilməzdik.

Eyni zamanda, biz Ermənistanın işğalçılıq siyasətini ifşa etməli idik. Çünki əfsuslar olsun ki, Ermənistanın nəzarətində olan beynəlxalq media resursları, satılmış siyasətçilər, onların xaricdəki havadarları, erməni lobbisi – onlar belə bir rəy yaratmışdılar ki, sanki Azərbaycan təcavüzkardır. Azərbaycan torpaqları işğal altına düşən zaman bəzi ölkələr bizə qarşı sanksiyalar tətbiq etmişdilər. Yəni biz öz diplomatik imkanlarımızdan faktiki olaraq, istifadə etmirdik. Ona görə bütün dünyaya sübut etməli idik ki, biz haqlıyıq, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə beynəlxalq müstəvidə çox fəal iş aparırdıq. Aparıcı beynəlxalq təşkilatlar – BMT, ATƏT, Avropa İttifaqı, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası bizim mövqe-

mizi dəstəkləyən, yəni haqq-ədaləti ifadə edən qərar və qətnamələr qəbul etmişdir. Yəni bu çox önəmli beynəlxalq hüquqi zəmin idi.

Bununla paralel olaraq, bir çox ölkələrlə ikitərəfli formatda sıx əməkdaşlıq əlaqələri yaratmışıq, həm yerləşdiyimiz bölgədə, həm də digər qitələrdə. Təkcə Avropa İttifaqına üzv ölkələrin 9-u və digər ölkələr Azərbaycanla strateji tərəfdaşlıq bəyannamələri imzalayıb. Bu da Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Yəni bu beynəlxalq əlaqələr və Azərbaycanın beynəlxalq nüfuzu bizə imkan verdi ki, daha çox dostlar qazanaq, eyni zamanda, Qarabağ həqiqətlərini, erməni işğalı ilə bağlı həqiqətləri dünya birliyinə çatdıraq və çatdırdıq da. Bütövlükdə götürəndə 44 gün ərzində müharibə ilə bağlı beynəlxalq yanaşma müsbət idi. Düzdür, bəzi ermənipərəst ölkələr və Ermənistanla yaxın əlaqədə olan ölkələr bizə qarşı bəzi siyasi addımlar atmağa çalışırdılar. Amma onlar da heç bir səmərə vermədi. Çünki biz bu illər ərzində güclü beynəlxalq dəstək qazanmışıq. Biz «Qoşulmama Hərəkatı»na sədr seçildik. Bizim sədrliyimiz yekdil qərarla təsdiqləndi. Sədrliyimiz yekdil qərarla daha bir il uzadıldı. Bu da dünya birliyinin əksər hissəsini birləşdirən beynəlxalq təsisatdır. Bu təsisata 120 ölkə üzvdür. Biz müsəlman ölkələri ilə sıx əlaqələr qurduq və onlara izah etməyə nail olduq ki, Ermənistan təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı təcavüzkar siyasət aparır. Məscidləri dağıdan müsəlman ölkələri ilə dost ola bilməz. Məscidləri dağıdana müsəlman ölkələrinin rəhbərləri qucaq aça bilməz. Onları qucaqlayıb öpə bilərmi? Bu

riyakarlıqdır, bu satqınlıqdır. Bunun başqa adı yoxdur. Ona görə müsəlman aləmində biz Ermənistanı əsas dayaqlardan təcrid etdik. Düzdür, tam təcrid edə bilmədik, bunun başqa səbəbləri var – bax, dediyim riyakarlıq. Ancaq bütövlükdə Ermənistan müsəlman aləmində məscidləri dağıdan, təhqir edən ölkə kimi tanındı və bunu biz etdik.

Bizim vətənpərvərlik məsələləri ilə bağlı çox fəal siyasətimiz vardır. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək Prezident kimi, mənim siyasətimin əsas istiqamətlərindən biri idi və buna nail olduq. Gənclərimiz vətənpərvərdir, Vətənə bağlıdır və İkinci Qarabağ müharibəsi bunu göstərdi. Bir daha demək istəyirəm, heç vaxt Qarabağı görməyən gənclərimiz Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə gedirdilər, cəmiyyətdə milli birlik, milli həmrəylik ideyaları üstünlük təşkil etdi. Eyni zamanda, Azərbaycanda yaşayan bütün xalqlar mənim apardığım siyasət nəticəsində daha sıx birləşdilər. Mən dəfələrlə deyirdim, bu gün də deyirəm, biz böyük ailəyik. Azərbaycanda yaşayan bütün xalqlar bir böyük ailənin üzvləridir. Yaxşı günlərdə də, ağır günlərdə də bir yerdəyik və bu birlik dünya miqyasında nadir dəyərdir. Baxın, biz başqa ölkələrin timsalında milli, dini, etnik zəmində narazılıq, toqquşma, inamsızlıq görürük. Azərbaycanda nə görürük – birlik, qardaşlıq, dostluq! Azərbaycanda yaşayan bütün xalqlar Qarabağ uğrunda ölümə gedirdilər. Bu bizim böyük dəyərimizdir. Biz bunu, bu dəyəri daim qoruyub saxlamalıyıq, gücləndirməliyik. İkinci Qarabağ müharibəsi ölkəmiz-

də milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi, ölkəmizi gücləndirdi. Biz bu ağır yükü çiynimizdən atdıq, bu damğanı boynumuzdan atdıq. Biz indi başımızı dik tutub istənilən tədbirdə, istənilən formatda sözümüzü deyirik. Biz üzümüz ağ, alnımız açıq, müzəffər xalq kimi yaşayırıq. Buna görə sizə və sizin kimi on minlərlə hərbçiyə borcluyuq. Azərbaycan xalqı bunu bilir və yaxşı qiymətləndirir.

Əlbəttə, müharibədə uğur qazanmaq üçün biz çox önəmli layihələri icra etməli idik və etdik. Bu gün dünyanın və bizim bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs görsün bizim təşəbbüsümüzlə icra edilən layihələr həm ölkəmizə, həm də bizim tərəfdaşlarımıza nə qədər böyük fayda gətirib. Bizim təşəbbüsümüzlə nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin sayı onlarla ölçülür. Hələ indiki mərhələdə daha geniş vüsət alacaq və bütün bu ölkələr bizim təbii dostlarımızdır, müttəfiqlərimizdır. Eyni zamanda, bu layihələr bizə əlavə maliyyə imkanı yaratdı. Biz ilk növbədə, bu maliyyə imkanlarını hərbi potensialın gücləndirilməsinə yönəltdik. Mənim Prezidentlik dövrümdə əgər dövlət büdcəsinin xərclərinə nəzər salsaq görərik ki, birinci yerdə hərbi xərclərdir, birinci yerdə! Halbuki ölkənin başqa ehtiyacları vardır. Bir milyondan çox məcburi köçkünün də problemlərini biz həll edirdik, onları yeni evlərlə təmin edirdik. Sosial problem, maaşlar, pensiyalar, bunları da biz artırmalı idik və artırırdıq. Daha çox artırmaq istəyirdik və istəyirik. Ancaq ilk növbədə, orduya, ilk növbədə, Qələbəyə aparan yola daha böyük maliyyə dəstəyi verirdik.

Bu gün də belədir. Gələn il üçün Azərbaycanın dövlət büdcəsi rekord həddə çatıb, o cümlədən hərbi xərclərə ayrılacaq vəsait də rekord həddə çatıb. Sual oluna bilər nə üçün, müharibə arxada qaldı, iki il keçib. Cavab çox sadədir. Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistanda müharibənin nəticələri ilə barışmaq istəməyən qüvvələr, dairələr baş qaldırır. Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına tam əməl etmir, öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb, Zəngəzur dəhlizini bizə təqdim etməyib, bizə qarşı vaxtaşırı hərbi təxribatlar törədir. Əlbəttə, biz hazırlıqlı olmalıyıq və biz hazırıq.

Mən deyə bilərəm ki, son iki il ərzində Silahlı Qüvvələrimiz daha da güclənib. Həm struktur islahatları, həm yeni birləşmələrin yaradılması, eyni zamanda, mövcud olan birləşmələrin sayının artırılması, silah və sursatla təchizat, yeni texnika ilə təchizat ən yüksək səviyyədədir. İndiki Azərbaycan Ordusu iki il bundan əvvəlki Azərbaycan Ordusundan daha güclüdür və bunu hər kəs bilməlidir, Ermənistan və hər kəs!

Qələbəyə aparan yol müxtəlif istiqamətlərdən keçmişdir. Əlbəttə, güclü Silahlı Qüvvələrin yaradılması əsas vəzifə idi və biz bunu yaratdıq. Bununla paralel olaraq, ölkədə uzun illər ərzində daxili sabitlik, əmin-amanlıq, təhlükəsizlik, əlbəttə ki, bizi gücləndirirdi. Çünki yenə də deyirəm, mən heç vaxt müqayisə aparmaq istəmirəm – amma indiki dünyada heç nəyi gizlətmək mümkün deyil, hər şey göz qabağındadır – bir çox ölkələr daxili problemlərin içində çabalayır, bir

çox ölkələrdə daxili böhran hökm sürür, qarşılıqlı inamsızlıq, ictimai asayişin pozulması, xalq–iqtidar arasındakı uçurum. Bizdə nə görürük – daxili sabitlik, milli birlik, milli həmrəylik, xalq–iqtidar birliyi. Bax, bu bizim siyasətimizin böyük nəticəsidir. Bizim bütün addımlarımız və mənim Prezident kimi, 2003-cü ildən bu günə qədər bütün addımlarım Azərbaycanın gücləndirilməsinə yönəldilmişdir. Vətən müharibəsinə qədər bütün addımlarım bir amala xidmət edirdi ki, biz torpaqlarımızı azad edək, düşməni torpağımızdan qovaq və biz buna nail olduq. Mən işğal dövründə deyirdim, bir neçə dəfə demişdim ki, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq. Düşmənə elə sarsıdıcı zərbə endirdik ki, bu günə qədər özünə gələ bilmir. İndi Ermənistanda gedən proseslərə baxın, onlar öz hirsini, öz zəhərini artıq öz aralarında bölüşürlər. Görün iki il ərzində orada hansı proseslər gedir.

İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək. Əgər orada kimsə – istər iqtidar, istər müxalifət, istərsə də xaricdən göndərilmiş, öyrədilmiş hansısa ünsür yenidən bizə qarşı hansısa bəd fikirdə olmaq niyyətindədirsə, o bizim yumruğumuzu bir daha görəcək və son iki ilin tarixi bunu göstərdi. Hətta bu il «Fərrux» əməliyyatı, «Qisas» əməliyyatı, 13–14 sentyabr Ermənistan–Azərbaycan sərhədindəki hadisələr – bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anla-

yacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlıları orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər.

Biz sadəcə olaraq, bütün beynəlxalq razılaşmalara həmişə hörmətlə yanaşırıq. Biz ədalətli insanlarıq və ədalətli ölkəyik. Əgər biz hansısa öhdəliyi öz üzərimizə götürmüşüksə, onu yerinə yetiririk. Biz 2020-ci ilin 10 noyabr Bəyanatında üzərimizə götürdüyümüz bütün öhdəlikləri iki ildir ki, yerinə yetiririk, amma Ermənistan yerinə yetirir? Yox! İkinci Qarabağ müharibəsində o qədər qorxu içində idi ki, təbii, o müddəaları yerinə yetirmişdir və bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında olan əraziləri bizə qaytarıldı. Əgər qaytarmasaydı, yenə də başlarını əzəcəkdik. Amma ondan sonra? Ondan sonra yenə vaxt uzatmağa başladı. Bir daha demək istəyirəm, o öhdəlik hələ tam yerinə yetirilməyib. Erməni silahlı qüvvələri Qarabağda nə gəzir? Bizim səbrimiz tükənməz deyil və bir daha xəbərdarlıq etmək istəyirəm, əgər bu öhdəlik yerinə yetirilməsə, Azərbaycan lazımi addımlar atacaq.

Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir, öz üzərinə öhdəlik götürüb. Biz iki il ərzində Laçın yolu ilə Ermənistandan Qarabağa və əks istiqamətə gedən maşınlara toxunmuruq. Biz öhdəlik götürmüşük, yerinə yetiririk – sərbəst hərəkət. Ermənistan da öhdəlik götürüb ki, Azərbaycanın qərb rayonları

ilə Naxçıvan Muxtar Respublikası arasında yol bağlantısı olsun. İki il keçib üstündən, nə texniki-iqtisadi əsaslandırma var, nə hansısa hərəkət var, nə dəmir yolu, nə də avtomobil yolu. Biz nə vaxta qədər gözləməliyik?

13–14 sentyabr hadisələri elə-belə baş vermədi. Təbii ki, Ermənistan bizə qarşı növbəti hərbi təxribat törətdi. Amma cavabımız da çox təsirli oldu. Cavabımız bir qədər az da ola bilərdi, əgər onlar öz üzərilərinə götürdükləri öhdəliklərə əməl etsəydilər. Cavabımız daha sərt ola bilərdi, əgər biz yeni müharibə istəsəydik. Biz bunu istəmirik, qan tökülməsini istəmirik. Sadəcə olaraq, haqqımızı istəyirik.

13–14 sentyabr əməliyyatından sonra Azərbaycan–Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşib. Ermənistan gözəl anlamalıdır ki, bu nə deməkdir. Bu gün həmin strateji yüksəkliklərdən Qarakilsə, Qafan, Gorus, İstisu şəhərlərini biz gözlərimizlə görürük. Biz Bala Göyçə gölünün sahilindəyik. Böyük Göyçə gölü də gözümüzün önündədir. Bütün bunlar reallıqlardır. Bu reallıqları biz yaratmışıq, Vətən müharibəsindən sonra. Nə üçün? İlk növbədə, Ermənistanın hərbi təxribatlarına cavab olaraq, digər tərəfdən, özümüzü gələcək hərbi təxribatlardan sığortalamaq üçün. Çünki dediyim yüksəkliklərdən Ermənistanın əksər postları görünür və əgər orada qüvvələrin konsentrasiyası baş verərsə, biz bunu görüb dərhal tədbir görəcəyik. Ona görə ki, Ermənistan öz beynəlxalq öhdəliklərini yerinə yetirmir. Ermənistan İkinci Qarabağ müharibəsində

məğlub olub, ordusu darmadağın edilib. Məğlub edilmiş ölkə özünü belə apara bilməz. Ona görə bizim bütün addımlarımız əsaslıdır. Düzdür, Ermənistanın bəzi xarici havadarları bizi nədəsə günahlandırmaq istəyirlər. Onların cavabını da mən vermişəm. Yenə də nəsə banlasalar, yenə də cavablarını verərəm. Bu məni dayandırmaz. Amma fakt odur ki, biz öz haqqımızı tələb edirik və Azərbaycanın haqlı olması böyük beynəlxalq aktorlar tərəfindən sual altına qoyulmur.

Bir sözlə, müharibədən keçən iki il ərzində biz öz siyasətimizi davam etdirmişik. İki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq, yenidən qururuq və quracağıq. Eyni zamanda, ordumuzu gücləndiririk və gücləndirəcəyik. Ermənistan bilməlidir ki, bizi indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik. Əgər biz kimdənsə qorxsaydıq, heç vaxt İkinci Qarabağ müharibəsinə start verməzdik. Biz hər birimiz ölümə gedirdik, öldü var, döndü yoxdur, ya azadlıq, ya ölüm! İndi də ölümə getməyə hazırıq öz haqlarımızı tələb edərək. Çünki hələ də – müharibə iki il bundan əvvəl başa çatsa da – narahatedici məqamlar var və erməni xalqına müraciət edib sözümü demək istəyirəm. Onlar bu 30 ilin işğalının acılarını indi görürlər. İşğal nədir, itki nədir indi görürlər. Biz sadəcə olaraq, onlara cavab vermişik, biz öz torpağımızda vuruşmuşuq, işğalçını torpaqlarımızdan qovmuşuq. Onlar anlamalıdırlar ki, xa-

ricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməsinlər. Biz burada əsas söz sahibiyik, biz burada əsas güc sahibiyik. Bizim ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərdi. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər. Bizi heç kim qorxuda bilməz. Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir. Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da qarşısında yenə də Azərbaycan Ordusunu görəcək.

Biz sülh istəyirik, biz müharibə istəmirik. Sülh, amma ədalətli sülh. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır. Əgər Ermənistan xoş niyyət göstərsə, bu imzalanacaq, göstərməsə, imzalanmayacaq. Ondan sonra nə olacaq, onu həyat göstərər.

Dediyim bütün bu sözlərin bir mənbəyi var – həm bizim güclü iradəmiz, həm də Vətən müharibəsindəki Qələbəmiz! Bu Qələbə imkan verir ki, biz bu sözləri hamının üzünə, bizə xor baxanların gözünə deyək. Bu Qələbə, bu Zəfər bizə bu imkanı verdi, bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik.

Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq və Azərbaycan xalqı bunu yaxşı bilir. Mən də Ali Baş Komandan kimi, sizinlə fəxr edirəm.

**Hərbçilər:** Yaşasın Ali Baş Komandan!

**İlham Əliyev:** Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

* * *

*Sonra xatirə şəkli çəkdirildi.*

*Sonda hərbi qulluqçuların təntənəli keçidi oldu.*

## AVROPA OLİMPİYA KOMİTƏLƏRİNİN PREZİDENTİ VƏ YUNANISTAN OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ SPİROS KAPRALOS İLƏ GÖRÜŞ

*10 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Avropa Olimpiya komitələrinin prezidenti və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosu qəbul etmişdir.*

*Dövlət başçısı ilk növbədə, Spiros Kapralosu Avropa Olimpiya komitələrinin prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi, fəaliyyətində uğurlar arzuladı, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubiley tədbirlərində iştirakına görə minnətdarlığını bildirdi. Birinci Avropa Oyunlarını məmnunluqla xatırladan Prezident İlham Əliyev bu mötəbər tədbirin önəmini vurğuladı, oyunların təşkilində Spiros Kapralosun rolunu yüksək qiymətləndirdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq ilk növbədə, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə təbriklərini çatdırdı. Birinci Avropa Oyunlarının əhəmiyyətinə toxunan Spiros Kapralos bu beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkil olunduğunu və bu işdə dövlət başçımızın rolunu xüsusi qeyd etdi. Bildirdi ki, ölkəmizin bu tədbirə layiqincə ev sahibliyi etməsi Avropa*

*olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib. Spiros Kapralos ötən dövr ərzində Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə qazandıqları böyük uğurları məmnunluqla vurğuladı.*

*Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanla Avropa Olimpiya Komitələri arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

*Spiros Kapralos dövlət başçısına Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə xatirə hədiyyəsi təqdim etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASINA SƏFƏR

*10 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmək üçün Özbəkistan Respublikasına səfərə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Səmərqənd Beynəlxalq Aeroportunda dövlət başçımızın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Özbəkistanın Baş Naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ GÖRÜŞ

*Səmərqənd*

*10 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 10-da Səmərqənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olmuşdur.*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

*Dövlət başçıları və xanımları birgə foto çəkdirdilər.*

**Şavkat Mirziyoyev:** Hörmətli İlham Heydər oğlu, bir daha Özbəkistana xoş gəlmisiniz! Sizi Səmərqənddə görmək mənə çox xoşdur. Çox şadam ki, Siz xanımınız Mehriban Arif qızı ilə birlikdə gəlmisiniz. Ona görə ki, mən demişəm, bu, rəmzi məna daşıyır. Dediyim kimi, sabahkı sammit rəmzi məna daşıyır, ona görə ki, bu tədbirin əsasını Naxçıvanda qoymuşuq, İlham Heydər oğlu, Sizin Vətənınizdə, atanızın Vətənində. Biz görürük ki, bu istiqamətdə çoxsaylı tarixi hadisələr baş verib. Özbəkistanda bu tarixi hadisə isə ilk dəfədir. Nə üçün Səmərqənddə təşkil olunması da böyük əhəmiyyət

kəsb edir, ona görə ki, sabah Səmərqənddə ilk dəfə olaraq Zirvə görüşü yeni adla keçiriləcək. Bütün bunlar hamısı qarşılıqlı surətdə əlaqəlidir. Beləliklə, xoş gəlmisiniz!

Danışıqlara başlamazdan əvvəl Sizi böyük Qələbə – 8 Noyabr Günü münasibətilə təbrik etmək istəyirəm. Sizin yaxın dostlarınız kimi, biz də bu Zəfəri bayram etmişik. Bu münasibətlə Sizi bir daha təbrik edirəm. 12 Noyabr – Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm. Siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdır. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əlbəttə, dediyimiz kimi, bizim münasibətlər strateji əhəmiyyət daşıyır. Bir misal göstərim – bu il Sizinlə üçüncü dəfədir görüşürük. Bu, münasibətlərimizin strateji əhəmiyyətinə dəlalət edir. Siz üçüncü dəfədir ki, Özbəkistana səfər edirsiniz, buna görə Sizə çox təşəkkür edirəm. Əlaqələrimiz sistemli olub və ən başlıcası, konkret nəticələr verir. Bizim komandalar artıq bir-birini tanıyır. Biz Sizin gəlişinizə hazırlaşmışıq, çoxlu ciddi layihələr var, zəngin proqramlı çoxlu səfərlər olub. Artıq görüşürlər, söhbət edirlər. Hökumətlərarası birgə Komissiyanın iclası uğurla, çox yaxşı keçib və həmkarlar hökumətlərarası birgə Komissiyanın sədri ilə söhbət ediblər, yaxşı plan nəzərdə tutublar.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Şavkat Miromonoviç. İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Ye-

nidən Səmərqənddə olmağıma çox şadam. Azərbaycanın Vətən müharibəsində Qələbəsi münasibətilə təbrikinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz qardaş özbək xalqının, şəxsən Sizin bizə, ölkəmizə və Azərbaycanın ədaləti bərpa etməsinə münasibətinizi çox yüksək qiymətləndiririk. Biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirdik. Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaqdır.

Həqiqətən, son vaxtlar biz çox yaxınlaşmışıq. Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən Sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra Sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm ki, birmənalı şəkildə qeyd etmək olar – Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də Sizi təbrik edirəm.

Əlbəttə, Sizin qeyd etdiyiniz mövzular gündəlikdədir. Biz Sizinlə razılaşdıq ki, qərarlarımızın yerinə yetirilməsinə nəzarət edəcəyik. Qeyd etdiyiniz kimi, bütün istiqamətlər üzrə yaxşı proseslər gedir.

* * *

*Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıldı. Xüsusilə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində əldə olunmuş razılaşmaların icrası istiqamətində görülən işlərə toxunuldu, bu baxımdan hökumətlərarası birgə Komissiyanın fəaliyyəti qeyd olundu.*

*Söhbət zamanı maşınqayırma sahəsində əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində müsbət nəticələrin olduğu bildirildi. Əczaçılıq, energetika sahələrində nailiyyətlər, həmçinin ipəkçilik sahəsində iki ölkə arasında qurulmuş uğurlu əməkdaşlıq layihəsindən çıxış edərək, pambıqçılıq və toxuculuq sahələrində də ölkələrimiz arasında nailiyyətlərin olduğu vurğulandı. Bundan başqa, iki ölkənin regionları arasında əməkdaşlığın təşviqi məqsədilə bu ilin sonunda regionlararası forumun keçiriləcəyi qeyd olundu. Bu forum çərçivəsində iki ölkənin bir sıra şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması barədə anlaşmaların imzalanacağı müsbət hal kimi vurğulandı. Bu tədbirlərin Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verəcəyi ifadə edildi.*

*Dövlət başçıları, həmçinin iki ölkə arasında humanitar-mədəni sahədə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd edərək, mədəniyyət qruplarının intensiv qastrol səfərlərinin təşkilinin vacibliyini bildirdilər.*

*Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi məna daşıdığı vurğulandı. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə görüşünün bu tarixi şəhərdə təşkil olunmasının önəmi qeyd edildi.*

## «ƏBƏDİ ŞƏHƏR» KOMPLEKSİNDƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATINA ÜZV ÖLKƏLƏRİN FOLKLOR İFALARININ TƏQDİMATINDA İŞTİRAK

*Səmərqənd*

*10 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Səmərqənddə «Əbədi şəhər» Kompleksində keçirilmiş Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor ifalarının təqdimat tədbirində iştirak etmişdir.*

## DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ QEYRİ-RƏSMİ ŞAM YEMƏYİNDƏ İŞTİRAK

*Səmərqənd*

*10 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət başçılarının şərəfinə verilmiş qeyri-rəsmi şam yeməyində iştirak etmişdir.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Səmərqənd*

*10 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 10-da Səmərqənddə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə əsaslanan dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bölgədə vəziyyət və təhlükəsizlik məsələləri müzakirə edildi, Soçi görüşünün nəticələri barədə fikir mübadiləsi aparıldı.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Səmərqənd*

*11 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmişdir.*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Dövlət Başçıları Şurasının iclasını açaraq, qonaqları salamladı və çıxış etdi, müzakirə olunacaq məsələlərdən, Türk Dövlətləri Təşkilatının qarşısında duran vəzifələrdən və əməkdaşlığın genişləndirilməsi perspektivlərindən danışdı.*

*Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədov Səmərqənd Sammitinin türk dövlətləri arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyini vurğuladı, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışdı.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin ikinci ildönümü münasibətilə təbriklərini çatdırdı.*

**Rəcəb Tayyib Ərdoğan:** Cənubi Qafqazda sülh prosesi can Azərbaycanın bütün səylərinə baxmayaraq, hələ də kövrək olaraq qalır. Noyabrın 8-də qeyd etdiyimiz şanlı Qarabağ Zəfərinin ikinci ildönümündə əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İlham qardaşımızın şəxsində Azərbaycan xalqını bir daha təbrik edirəm. Haqlı mübarizəsində olduğu kimi, sülh axtarışında da Azərbaycanın yanındayıq.

*Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdığı nəhəng layihələrin dünya miqyasında mühüm əhəmiyyətini xüsusi qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirdi:*

– Bakı–Tbilisi–Ceyhan neft boru kəməri qlobal miqyasda ən uğurlu enerji layihələri sırasındadır. «Cənub Qaz Dəhlizi» isə Avropaya qaz nəql edəcək dördüncü arteriya olaraq layihələndirilib. Onurğa sütununu Trans-Anadolu təbii qaz boru kəmərinin təşkil etdiyi bu dəhliz əlavə qaz tədarükü ilə daha da genişləndirilə bilər. Xəzər hövzəsi bunun üçün ağla ilk gələn mənbədir. Enerji sahəsində təşkilatımızın nəzdində və ikitərəfli səviyyədə əməkdaşlıqla həyata keçirəcəyimiz ortaq layihələrə bu baxımdan böyük önəm veririk.

*Dövlət başçımız Zirvə görüşündə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli Şavkat Miromonoviç!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

Son 7 ayda üçüncü dəfə qardaş Özbəkistana səfər edirəm. Aprel ayında Özbəkistanda dövlət səfərində olmuşam, sentyabr ayında Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə görüşündə iştirak etmişəm. Bu gün yenidən Səmərqənd şəhərində olmaqdan çox məmnunam.

Bu səfərlər zamanı Özbəkistanda gedən genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olmaq imkanım olub. Əldə edilmiş nailiyyətlər münasibətilə qardaşım, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və qardaş özbək xalqını təbrik edirəm. Səfərlər zamanı Prezident Şavkat Mirziyoyev ilə apardığım müzakirələr onu göstərir ki, Azərbaycan–Özbəkistan əlaqələri daha da yüksək səviyyəyə qalxıbdır.

Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident Şavkat Mirziyoyevə minnətdarlığımı bildirirəm. Qardaş Türkiyəyə bir il ərzində təşkilatımızda uğurlu sədrlik münasibətilə təşəkkür edir, qardaş Özbəkistana sədrliyi dönəmində uğurlar arzulayıram.

Hörmətli həmkarlar, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

Azərbaycan həmişə Türk Dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da Türk Dünyasının birliyi amallarına sadiq qalacaqdır. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən başlayaraq, təşkilatımız böyük inkişaf yolu keçibdir.

Türk Dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir.

Türk Dünyası böyük ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq, bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Türk Dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatıbdır. Türk Dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur.

Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır.

Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik.

Hörmətli həmkarlar, bu həftə Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasının ikinci ildönümünü böyük qürur hissi ilə qeyd etdi. İki il əvvəl biz Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyduq, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etdi.

Otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu «Qafqazın Xirosiması» adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu bütün müsəlman dünyasına təh-

qirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir.

Ermənistan işğal zamanı bizim ərazilərimizdə 1 milyondan çox mina basdırıb. Vətən müharibəsindən ötən iki il ərzində 270-ə yaxın Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb. Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün «Böyük Qayıdış» proqramının icrasına başlamışıq. Bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub.

Mən digər türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət edirəm. Fürsətdən istifadə edərək, mən işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən inşa olunacaq Yaradıcılıq Mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm. Bunlar Azərbaycan – özbək və Azərbaycan – qazax xalqları arasında olan qardaşlığın təzahürüdür.

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki il keçməsinə baxmayaraq, Ermənistan sərhəddə hərbi təxribatlarını davam etdirir. Son olaraq sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiy-

yətli əks-hücum əməliyyatına başlamağa məcbur oldu. Ermənistan dünya ictimai rəyini çaşdırmaq üçün əsassız olaraq Azərbaycanı hərbi təcavüzdə günahlandırmağa çalışır. Bu əsassız iddiaları qəti şəkildə rədd edirik. Biz öz torpaqlarımızda vuruşmuşuq və Ermənistan ordusunu məğlub edərək, onları əzəli torpaqlarımızdan qovmuşuq. Biz bu gün də Azərbaycan–Ermənistan sərhədi istiqamətində öz doğma torpaqlarımızdayıq.

Oktyabr ayında Praqada və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Bu bir daha onu göstərir ki, Qarabağ münaqişəsi tarixdə qaldı. İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq.

Əziz dostlar, biz Bağdad Amreyevin Türk Dövlətləri Təşkilatının baş katibi kimi fəaliyyətini yüksək qiymətləndiririk. Türk Dünyası birliyinə verdiyi töhfə və xidmətləri nəzərə alınaraq, Bağdad Amreyev Azərbaycanın yüksək dövlət mükafatı olan «Dostluq» ordeni ilə təltif edilib və oktyabr ayının 21-də bu orden mənim tərəfimdən ona təqdim edilibdir. Bir daha təbrik edirəm.

Çıxışımın sonunda bir daha qeyd etmək istəyirəm ki, biz Özbəkistanı bu Zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə təbrik edirik, Türk Dünyasına sülh, rifah, xoşbəxtlik arzulayırıq. Sağ olun.

* * *

*Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxışında türk dövlətləri arasında informasiya texnologiyalarının, nəqliyyat və tranzit dəhlizlərinin inkişafı ilə bağlı əməkdaşlığın önəmini vurğuladı. O bu baxımdan üç qardaş dövlətin – Qazaxıstan, Azərbaycan və Türkiyənin ərazisindən keçən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini xüsusi qeyd etdi.*

*Qırğız Prezidenti Sadır Japarov çıxışında ölkəsinin Azərbaycanla münasibətlərinin yeni səviyyəyə yüksəldiyini vurğulayaraq bildirdi:*

– Son vaxtlar biz mənim əziz dostum Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə qarşılıqlı səfərlər edib dövlətlər arasında münasibətlərimizi yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik.

*Macarıstanın Baş Naziri Viktor Orban Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm rolunu xüsusilə qeyd etdi:*

– Mən qardaşım Prezident İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Çünki Azərbaycan bizim üçün yeganə real şaxələndirmə şansıdır. Qardaşım İlham Əliyevə, həmçinin bizim Azərbaycan üçün «yaşıl enerji»ni Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan əməkdaşlığına gətirmək təşəbbüsümüzü tamamilə dəstəklədiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Mən bu əməkdaşlığa çox ümid bəsləyirəm.

*Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyev təşkilat çərçivəsində əməkdaşlıqdan danı-*

*şarkən bu qurumun Azərbaycanın ərazi bütövlüyünə daim dəstək verdiyini bildirdi:*

– Bizim əməkdaşlığımız və siyasi arena əhəmiyyətli dərəcədə inkişaf edib. Ölkələrimiz qardaş Azərbaycan torpaqlarının işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə Bakını möhkəm dəstəkləməklə yekdilliyimizi bütün dünyaya nümayiş etdirdi.

*Təşkilatın yeni baş katibi Kubanıçbek Ömüralıyev çıxış edərək, ona göstərilən etimada görə minnətdarlığını bildirdi, üzv ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün səylə çalışacağını vurğuladı.*

*Daha sonra bir sıra sənədlər, o cümlədən Səmərqənd Bəyannaməsi imzalandı.*

*Sonra mükafatlandırılma mərasimi oldu.*

*Özbəkistan Prezidenti Şavkat Mirziyoyev mərasimdə çıxış edərək, Zirvə görüşündə müzakirə olunan məsələlərin əhəmiyyətindən danışdı, çox mühüm sənədlərin imzalandığını və razılaşmaların əldə olunduğunu qeyd etdi.*

*Türk dövlətləri arasında dostluğun və tərəfdaşlığın möhkəmləndirilməsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədovun xüsusi xidmətlərinin olduğunu vurğulayan Prezident Şavkat Mirziyoyev onların Türk Dünyasının Ali Ordeni ilə təltif edildiklərini bildirdi.*

*Prezident Şavkat Mirziyoyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Türkmənistan Parlamenti*

*Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədova Türk Dünyasının Ali Ordenini təqdim etdi.*

*Özbəkistan Prezidentinin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində Əlişir Nəvai adına beynəlxalq mükafat təsis edilib. Həmin mükafatın ilk sahibi Türk Dünyasının birliyinə və inkişafına verdiyi töhfələrə görə dünya şöhrətli qırğız yazıçısı və ictimai xadim Çingiz Aytmatov olub.*

*Çingiz Aytmatovun ölümündən sonra layiq görüldüyü Əlişir Nəvai mükafatı Qırğız Prezidenti Sadır Japarova təqdim edildi. Prezident Sadır Japarov Əlişir Nəvai beynəlxalq mükafatının təsis edilməsini türk dövlətlərinin mədəniyyət sahəsində əməkdaşlığının inkişafının göstəricisi olduğunu vurğuladı.*

*Türk Dünyasının Ali Ordeni ilə təltif olunmasına görə minnətdarlığını bildirən Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədov türk dövlətləri arasında əməkdaşlığın bütün sahələrdə inkişafının vacibliyini qeyd etdi.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu yüksək mükafatla təltif olunmasına görə minnətdarlığını bildirdi, son illərdə türk dövlətləri arasında əməkdaşlığın sürətlə inkişaf etdiyini vurğuladı. Çıxışında Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi genişmiqyaslı işlərdən söhbət açan Rəcəb Tayyib Ərdoğan söylədi:*

– Qarabağla əlaqədar çox ciddi mübarizə aparan və bu mübarizəni hazırda infrastrukturun qurulması ilə ən yüksək səviyyədə davam etdirən qardaşım İlham Əliyevin iki ildə bu sahədə nələr bacardığını, nələri ortaya qoyduğunu görürük. Dəfələrlə

həmin ərazilərdə tədbirlərə qatılmaq, həyata keçirilən işləri yerində görmək imkanım olub. Bu işləri yerində gördükdə bir türk olaraq, iftixar hissi keçirdim. Çox qısa müddətdə bu qədər nailiyyət həqiqətən, bizim üçün qürur mənbəyidir.

*Sonra xatirə şəkli çəkdirildi.*

## REGİSTAN MEYDANINDA AĞACƏKMƏ MƏRASİMİNDƏ İŞTİRAK

*Səmərqənd*

*11 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları ilə birlikdə Səmərqəndin Registan meydanında ağacəkmə mərasimində iştirak etmişdir.*

## DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA İŞTİRAK

*Səmərqənd*

*11 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə təşkil edilmiş rəsmi qəbulda iştirak etmişdir.*

## TÜRKMƏNİSTAN PARLAMENTİ XALQ MƏSLƏHƏTİNİN SƏDRİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*Səmərqənd*

*11 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 11-də Səmərqənddə Türkmənistan Parlamenti Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdıməhəmmədov ilə görüşü olmuşdur.*

*Görüşdə Qurbanqulu Berdıməhəmmədov Vətən müharibəsində Qələbənin ikinci ildönümü münasibətilə özünün və Türkmənistan Prezidenti Sərdar Berdıməhəmmədovun təbriklərini Prezident İlham Əliyevə çatdırdı.*

*Dövlət başçımız təbriklərə görə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev öz növbəsində, Qurbanqulu Berdıməhəmmədovu Türk Dünyasının Ali Ordeni ilə təltif olunması münasibətilə təbrik etdi.*

*Dövlət başçımız qeyd etdi ki, Türkmənistan və Azərbaycan bütün sahələrdə qardaşlıq, dostluq münasibətləri nümunəsi göstərir və bugünkü görüş də əlaqələrimizin inkişafına yaxşı təkan verəcəkdir.*

*Görüşdə energetika, nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri noyabrın 11-də başa çatdı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ OLİMPİYA KOMİTƏSİNƏ

Hörmətli Milli Olimpiya Komitəsi üzvləri!

Sizi, eləcə də ölkəmizin bütün idman ictimaiyyətini Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin yaradılmasının 30 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı yetirir və gələcək işlərinizdə yeni uğurlar diləyirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ildə təsis olunmuş Milli Olimpiya Komitəsi ötən müddətdə ölkəmizin öz idman potensialını tam gerçəkləşdirməsi naminə daim var qüvvəsi ilə çalışmışdır. Komitə nailiyyətlərlə zəngin şərəfli bir yol keçmiş və işini yalnız Olimpiya oyunlarında iştirakla məhdudlaşdırmayaraq, respublikada olimpiya ideallarının bərqərar olmasında və idmanın dinamik inkişaf etdirilməsində təqdirəlayiq xidmətlər göstərmişdir. Qurumun fəaliyyətinin səmərəli təşkilinin nəticəsidir ki, idmançılarımız Olimpiya oyunlarında, Avropa və dünya çempionatlarında çoxsaylı müvəffəqiyyətlər qazanmışlar.

Respublikamızda idmana diqqət dövlət siyasətinin prioritetlərindəndir. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində aparılan işlər, o cümlədən yaradılmış ən müasir idman infrastrukturu, Olimpiya İdman kompleksləri, ixtisas-

laşdırılmış idman məktəbləri bunun əyani təsdiqidir. Xüsusi vurğulamaq istərdim ki, mötəbər beynəlxalq idman yarışlarının keçirilməsində böyük təcrübə əldə olunmuşdur. Bu gün yüksəliş dövrünü yaşayan və bayrağımızı dünyanın hər yerində dalğalandıran idmanımızın tarixinə parlaq səhifələr yazılmaqdadır. Azərbaycan idman sahəsində nəhəng layihələr reallaşdıraraq, uğurlara imza atmış ölkə kimi, artıq dünya miqyasında tanınır.

Milli Olimpiya Komitəsi idmançılarımızın Olimpiya oyunlarındakı qələbələrinə dəyərli töhfələr verən və yüksək səviyyəli qarşılıqlı əməkdaşlıq əlaqələri quraraq, hazırda qitənin olimpiya qurumları arasında ön sıralarda dayanan nüfuzlu təşkilatlardan birinə çevrilmişdir. İnanıram ki, Komitə Olimpiya Xartiyasının başlıca prinsipləri əsasında respublikamızda olimpiya hərəkatının qarşıdakı illərdə daha geniş vüsət alması üçün imkan və bacarığını bundan sonra da əsirgəməyəcək, nailiyyətləri ilə ictimai həyatımızdakı əhəmiyyətli mövqeyini qoruyub saxlayacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2022-ci il*

# FRANSA RESPUBLİKASININ PREZİDENTİ EMMANUEL MAKRON İLƏ TELEFONLA GÖRÜŞ

*12 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 12-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron telefonla zəng etmişdir.*

*Fransa Prezidenti noyabrın 19-da keçiriləcək Frankofoniya təşkilatının 18-ci Zirvə görüşü çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcəyi barədə məlumat verdi və Fransanın Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək niyyətini bir daha ifadə etdi.*

*Telefon danışığı zamanı dövlət başçıları Azərbaycan, Ermənistan, Avropa İttifaqı və Fransanın iştirakı ilə dördtərəfli formatda keçirilmiş Praqa görüşünün nəticələri və bundan irəli gələn məsələlər barədə fikir mübadiləsi apardılar.*

*Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesində bitərəf, qərəzsiz və tarazlaşdırılmış yanaşmanın nümayiş etdirilməsinin vacibliyini qeyd etdi. Dövlət başçımız Ermənistan tərəfindən son günlərdə səsləndirilən bəyanatların iki ölkə arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə ziddiyyət təşkil etdiyini diqqətə çatdırdı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

İstanbulun mərkəzində törədilmiş xain partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbərindən olduqca sarsıldıq.

Baş vermiş bu facia ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2022-ci il*

**FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

İnanıram ki, ölkələrimiz arasında münasibətlər birgə səylərimizlə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Fələstin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 noyabr 2022-ci il*

## ALBANİYA RESPUBLİKASINA DÖVLƏT SƏFƏRİ

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına dövlət səfərinə gəlmişdir.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Tirana Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçımızı Albaniyanın Baş Nazir müavini, İnfrastruktur və Energetika naziri xanım Belinda Balluku və digər rəsmi şəxslər qarşıladılar.*

## BRİGADES SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 15-də Tiranada Brigades sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Albaniyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Azərbaycanın və Albaniyanın Dövlət himnləri səsləndirildi. Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Bayram Beqaya, Albaniyanın dövlət və hökumət nümayəndələri isə Prezident İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BAYRAM BEQAY İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 15-də Tiranada Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü olmuşdur.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BAYRAM BEQAY İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay noyabrın 15-də təkbətək görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

**Albaniya Prezidenti Bayram Beqayın bəyanatı**

Hörmətli Prezident Əliyev!
Əziz dostlar!
Hörmətli iştirakçılar!

Bu gün mən Azərbaycan Prezidenti cənab İlham Əliyevi burada – Tiranada böyük məmnunluqla qəbul edirəm.

Cənab Prezident, bizim dəvətimizi qəbul etdiyinizə, bizimlə apardığınız məhsuldar əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Bu, əlaqələrimizin tarixində ilk mühüm dövlət səfəridir. Azərbaycan Prezidenti ölkəmizə səfər edib. Belə yüksək səviyyəli səfər münasibətlərimizin inkişaf etdirilməsində, xalqlarımız arasında əməkdaşlığın genişləndirilmə-

sində qarşılıqlı iradəmizin təzahürüdür. Ölkələrimiz arasında aparılan dialoqa görə dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, çox yaxşı haldır ki, Siz bu gün ölkəmizdəsiniz. Əslində bu, qarşılıqlı maraq doğuran əməkdaşlığın yeni sahələrini açır. Albaniya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsinə gəldikdə, 2023-cü ildə biz əməkdaşlığımızın daha intensiv mərhələsinə qədəm qoyacağıq. Biz burada Azərbaycan həftəsini keçirmək niyyətindəyik. Bu tədbir ölkənizin Albaniyada mədəni baxımdan təşviq olunması üçün önəmlidir. Biz həmçinin burada ölkənizin səfirliyinin açılması ilə əlaqədar iradəsini bildirdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq və həmin addım ölkələrimiz arasında əməkdaşlığın yaxşı təzahürüdür.

Bu gün aparılan müzakirələr xüsusilə vacibdir, çünki biz gələcək üçün yeni istiqamətləri müəyyən edirik, bizim üçün maraqlı olan sahələri təyin edirik. Bununla bağlı qeyd etmək istərdim ki, yaradılmış müştərək İşçi qrupunun iclası əlaqələrimizi daha da möhkəmləndirə bilər. Albaniya enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsində olduqca maraqlıdır. Əlbəttə, enerji sahəsində İon–Adriatik boru kəməri Albaniyanı, Monteneqronu, Xorvatiyanı birləşdirərək, ölkələrimizin geosiyasi əhəmiyyətini artırır və regional, o cümlədən Avropa səviyyəsində qaz təchizatının şaxələndirilməsini nümayiş etdirir. Bilirik ki, bu sahədə ölkənizin sərmayə qoyuluşu baxımından təcrübəsi vardır. Albaniya, həmçinin öz

ərazisində tranzit imkanlarından istifadəyə çox açıq və hazırdır. Qaz infrastrukturumuzdan bu məqsədlə tam istifadə olunmasını mümkün hesab edirik. Bu sahədə daha böyük nəticələrin əldə olunmasını səmimiyyətlə arzu edirik. Beləliklə, əməkdaşlığımızın yeni yollarını açırıq və bu məqsədlə Azərbaycan tərəfinin göstərəcəyi səyləri alqışlayırıq. Fikrimizcə, birgə işləyərək öz imkanlarımızı səfərbər edə biləcəyik və daha da genişləndirəcəyik.

Əslində turizm ölkələrimizin iqtisadiyyatının digər mühüm sahəsidir. Azərbaycan uğurlu təcrübəni özündə əks etdirir. Biz bundan yararlana bilərik. Mən cənab Prezidentə bəyan etdim ki, bu sahədə Azərbaycan tərəfindən qoyulacaq sərmayələri yüksək dəyərləndirərdik. Eyni zamanda, mədəniyyət sahəsində birgə işləməliyik ki, xalqlarımız daha yaxın olsun, bir-birini tanısın. Bununla bağlı iki tərəf arasında yeni sazişlər imzalana bilər.

Bilirik ki, mədəniyyət və incəsənət sahəsinə aid olan minlərlə eksponat nümayiş etdirilə bilər. Cənab Prezident, mən Sizə bildirdim ki, bu, irsimizin qorunmasına töhfə verəcəkdir. 2019-cu ildə baş vermiş zəlzələdə də göstərilən yardımı yüksək dəyərləndiririk.

Ukraynada gedən müharibə və onun nəticələrinə gəldikdə, biz ümumi mövqedən çıxış edirik: diplomatiya və dialoq irəliyə doğru aparan əsas yoldur. Bu həmçinin Cənubi Qafqaz və digər bölgələr üçün də vacibdir. Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasına öz dəstəyini verib. Biz Ukraynanın da ərazi bütövlüyünü dəstək-

ləyirik və istəyirik ki, bu məsələ sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın. Azərbaycan ilə Albaniya arasında beynəlxalq təşkilatlarda, BMT-də, Avropa Şurasında məhsuldar əməkdaşlıq aparılır. BMT Təhlükəsizlik Şurasına Albaniyanın namizədliyinə, o cümlədən ATƏT-in sədrliyinə dəstək verilməsi ilə bağlı müraciət etdim. Əlbəttə, namizədliyə gəldikdə, bizim əməkdaşlığımız bu baxımdan gələcəkdə də davam etdirilməlidir.

Digər məsələlərlə bağlı cənab Prezidentə bildirdim ki, Kosovo Albaniya üçün çox əhəmiyyətlidir və bu nəinki sabitlik, həm də bütöv regionun tərəqqisi üçün vacibdir. Parlamentlərarası əməkdaşlığa gəldikdə, Albaniya və Azərbaycan arasında dostluq qrupları fəaliyyət göstərir. Bu istiqamətdə atılacaq addımlar çox ola bilər. İstərdik ki, parlamentlərimiz bir-biri ilə sıx əməkdaşlıq etsin.

Yekun olaraq bildirmək istəyirəm ki, ikitərəfli münasibətlərimizdə gedəcəyimiz yol və əldə edəcəyimiz nəticələr çoxdur. Mən dostluq əlaqələrimizə, ölkələrimiz arasında münasibətlərə çox yaxşı gələcək arzu edirəm.

Cənab Prezident, gəldiyinizə görə çox sağ olun. Bir daha Albaniyaya xoş gəlmisiniz!

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, dəvətə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən gözəl ölkənizə ilk dəfə səfər edirəm və burada olmağımdan çox məmnunam. Əminəm ki, bu səfər Albaniya–Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verəcək. Biz Sizinlə bu gün təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və əmin olduğumuzu bildirdik ki, gələcək yaxın əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Siyasi dialoqa gəldikdə, Albaniya prezidentləri əvvəlki illərdə Azərbaycana dəfələrlə səfər etmişlər. Bu il sabiq Prezident Meta Azərbaycanda səfərdə olub. Bu ilin aprel ayında Baş Nazir Edi Rama da qonağımız olub. Bu gün mənim səfərim onu göstərir ki, siyasi dialoqun çox gözəl təzahürləri var və çox güclü dinamizm var. Bu sıx siyasi təmaslar, əlbəttə, bizim niyyətimizi, bir-birimizə olan marağı göstərir, imkan verir ki, çox önəmli məsələlər müzakirə edilsin.

Beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir. Siz qeyd etdiniz ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək həmişə qarşılıqlı olub, biz bunu çox yüksək qiymətləndiririk. Həm işğal dövründə, həm də İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatlarını, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstəyi biz çox yüksək qiymətləndiririk.

Biz İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq öz əzəli torpaqlarımızı işğalçılardan azad etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik. Siz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə toxundunuz. Qeyd etməliyəm ki, bu qətnamələr 1993-cü ildə qəbul olunmuşdu, ancaq 27 il ərzində icra edilmirdi.

Ermənistan bu qətnamələrin icrasına maraq göstərmirdi, faktiki olaraq, məhəl qoymurdu, beynəlxalq ictimaiyyət, beynəlxalq birlik isə sadəcə olaraq, buna göz yumurdu və Ermənistana hər hansı bir sanksiya tətbiq edilməmişdir. Baxmayaraq ki, dəfələrlə Azərbaycan məsələ qaldırmışdır ki, Ermənistana qarşı sanksiyalar tətbiq edilsin, Ermənistan cəzalandırılsın. Çünki Azərbaycan ərazisinin 20 faizini işğal etmək böyük cinayətdir və işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparmaq hərbi cinayətdir. Orada törədilmiş dağıntılar faktiki olaraq, o torpaqları tamamilə cansız edib. Mən Sizə məlumat verdim ki, ermənilər işğal dövründə 67 məsciddən 65-ni yerlə yeksan etmiş, qalan iki məsciddə isə heyvan – inək, donuz saxlamış və bütün müsəlmanların hisslərinə toxunmuşlar.

Biz bu məsələni təkbaşına həll etdik, ədaləti bərpa etdik və azad edilmiş torpaqlarda indi Azərbaycan bayrağı dalğalanır. Biz bu torpaqlara qayıtdıq və indi bu torpaqlara həyat qayıdır. Xalqımız, dövlətimiz üçün əsas olan məsələdə ölkənizin bizə dəstək verməsi bizim üçün çox önəmlidir və bir daha buna görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən Sizin fikrinizə qoşuluram ki, iqtisadiyyat və sənaye üzrə yaradılmış müştərək İşçi qrupu tezliklə birinci iclasını keçirməlidir. Çünki müzakirə ediləsi məsələlər çoxdur. Biz bu gün Sizinlə qaz sahəsində əməkdaşlıq barədə danışdıq, həm əldə edilmiş nailiyyətlər, həm də görüləcək işlər haqqında fikir mübadiləsi apardıq. Ancaq əməkdaşlıq üçün enerji sektorundan başqa da çox yaxşı imkanlar var –

qarşılıqlı sərmayə qoyuluşu, Albaniya və Azərbaycan şirkətlərinin birgə fəaliyyəti, birgə müəssisələrin yaradılması, turizm, kənd təsərrüfatı, müasir texnologiya sahələri. Bilirəm ki, bütün bu sahələr Sizin ölkəniz üçün də, bizim üçün də prioritet təşkil edir. Əminəm ki, biz bu istiqamətlər üzrə inamla addımlayacağıq.

O ki qaldı qaz təchizatı məsələlərinə, Azərbaycan və Albaniya TAP layihəsinin üzvləridir və «Cənub Qaz Dəhlizi»nin icrasında bizim ölkələrimiz çox önəmli rol oynayıblar. Azərbaycanın və Avropa İttifaqının sədrliyi ilə bu günə qədər keçirilmiş «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının bir çox toplantılarında Albaniya nümayəndələri həmişə çox fəal iştirak ediblər. Bu gün Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu ilin iyulunda Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıbdır. Həmin Memorandum əsasında biz 2027-ci ilə qədər Avropaya gedən qaz təchizatını iki dəfə artırmaq fikrindəyik. Təbii ki, o qaz Albaniya ərazisindən keçəcək və beləliklə, Avropanın enerji təhlükəsizliyinə əlavə dəstək və töhfə veriləcəkdir.

Bizim qaz ehtiyatlarımız çox zəngindir. Hazırda həm TAP, həm TANAP qaz kəmərlərinin iki dəfə genişləndirilməsi məsələsi müzakirə olunur. Yəni bu layihə – «Cənub Qaz Dəhlizi» cəmi iki ilə yaxındır ki, istismardadır. Amma artıq «Cənub Qaz Dəhlizi»nin ayrılmaz hissəsi olan bu hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Bu da onu göstə-

rir ki, buna böyük ehtiyac və tələbat var. Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən artıq etibarlı tərəfdaş kimi tanınır və qiymətləndirilir. Əlbəttə, biz də bu məsuliyyəti yaxşı başa düşürük.

Eyni zamanda, biz Sizinlə bu gün Albaniyada qaz təsərrüfatının inkişafına verə biləcəyimiz töhfə haqqında da danışdıq. Bu məsələ ilə bağlı bizim fikirlərimiz var. Albaniyada bu günə qədər qaz şəbəkəsi yaradılmayıbdır. Azərbaycan bu sahədə də investor kimi iştirak edə bilər və biz buna hazırıq. Bu gün bu məsələni və energetika sahəsi ilə bağlı olan digər məsələləri bundan sonra da müzakirə edəcəyik.

Daha bir məsələyə də toxunmaq istəyirəm, Azərbaycanın NATO ilə sıx əməkdaşlıq platforması var. Biz uzun illər Əfqanıstanda NATO-nun əməliyyatlarında fəal iştirak etmişik. Demək olar, NATO-ya üzv olmayan ölkələr arasında biz birincilər sırasında sülhməramlı missiyaya qoşulduq. Əfqanıstandan çıxan son iki ölkə isə Türkiyə və Azərbaycan idi. Qalan bütün NATO üzvləri bizdən qabaq oradan çıxmışdılar. Yəni demək istəyirəm ki, bu da bizim məsuliyyətimizin təzahürüdür. Albaniya da NATO-nun üzvü kimi, NATO–Azərbaycan əlaqələrinə həmişə böyük dəstək verib. Buna görə də mən Sizə minnətdaram.

Çıxışımın sonunda mətbuat qarşısında Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

**GENİŞ TƏRKİBDƏ GÖRÜŞ**

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 15-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə rəsmi lanç əsnasında geniş tərkibdə görüşü olmuşdur.*

## «MOTHER ALBANİA» ABİDƏSİNİ ZİYARƏT

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Tiranada «Mother Albania» abidəsini ziyarət etmişdir.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.*

*Məlumat verildi ki, Milli Qəhrəmanlar xiyabanında yerləşən 12 metrlik «Mother Albania» abidəsi 1971-ci ildə ucaldılıb. Nəhəng abidə Albaniya uğrunda canını qurban verərək həlak olmuş əsgərləri qoruyan bir ananı təcəssüm etdirir. Ana heykəli əlində dəfnə çələngi və ulduz tutub. Abidə üçmetrlik postament üzərində ucaldılıb. Postamentin üzərində «Vətən şəhidlərinə əbədi eşq olsun!» sözləri yazılıb.*

## ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 15-də Albaniya Respublikasının Baş Naziri Edi Rama ilə təkbətək görüşü olmuşdur.*

## ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ NAHARDA İŞTİRAK

*Tirana*

*15 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Tiranada Albaniya Respublikasının Baş Naziri Edi Rama tərəfindən dövlət başçımızın şərəfinə təşkil edilmiş naharda iştirak etmişdir.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına dövlət səfəri noyabrın 15-də başa çatdı.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Tirana Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçımızı rəsmi şəxslər yola saldılar.*

## ABŞ DÖVLƏT KATİBİ ENTONİ BLİNKEN İLƏ TELEFONLA GÖRÜŞ

*16 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 16-da ABŞ Dövlət katibi Entoni Blinken telefonla zəng etmişdir.*

*ABŞ Dövlət katibi bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-ın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğuladı.*

*Prezident İlham Əliyev Dövlət katibi Entoni Blinkenin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasının və ABŞ-ın bu istiqamətdə göstərdiyi səylərin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı. Bununla belə, dövlət başçısı qeyd etdi ki, bu istiqamətdə göstərilən səylərə və aparılan danışıqlara baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən son günlərdə səsləndirilən ziddiyyətli bəyanatlar iki ölkə arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin irəli aparılmasına mənfi təsir göstərir.*

*Entoni Blinken Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın oldu-*

*ğunu qeyd edərək, ABŞ-ın bu istiqamətdə səylərini davam etdirəcəyini bildirdi.*

*Telefon danışığı əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə növbəti görüşün keçirilməsi və etimad quruculuğu tədbirlərinə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ «ŞƏRQ TƏRƏFDAŞLIĞI» ÜZRƏ XÜSUSİ ELÇİSİ DİRK ŞUEBELİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Avropa İttifaqının və bir sıra üzv ölkələrin «Şərq Tərəfdaşlığı» üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, böyük nümayəndə heyəti ilə görüşmək o deməkdir ki, müzakirə olunmalı çox məsələ vardır.

**Dirk Şuebel:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə çox təşəkkür edirik. Bizimlə görüşmək üçün vaxt ayırmağınız bizim üçün şərəfdir. Mən qısaca olaraq özümü, həmkarlarımı və nümayəndə heyətini təqdim etməklə başlaya bilərəm. Mənim adım Dirk Şuebeldir. Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» üzrə yeni təyin olunmuş xüsusi nümayəndəsiyəm. Lakin bu, Azərbaycana ilk səfərim deyil, ötən illər ərzində əvvəlki vəzifələrdə dəfələrlə burada olmuşam və yenidən burada olduğum üçün şadam. Biz buraya bir neçə üzv dövlətin «Şərq Tərəfdaşlığı» üzrə xüsu-

si nümayəndələrindən, səfirlərindən ibarət nümayəndə heyəti ilə gəlmişik.

Bizim hamımız hazırkı vəziyyətdə «Şərq Tərəfdaşlığı»nın həyata keçirilməsi, ola bilsin ki, «Şərq Tərəfdaşlığı»nın yenilənməsi, müasirləşdirilməsi üçün xüsusi nümayəndə təyin olunmuşuq. Bilirik ki, hazırkı geosiyasi vəziyyətdə yeni ideyalara, yeni stimullara, xüsusi yanaşmalara ehtiyac var, bizim burada olmağımızın bir səbəbi də budur. Bunun Sizin nöqteyi-nəzərinizdən necə göründüyünü bilmək istəyirik: nəyi daha yaxşı edə bilərik, Azərbaycanla əməkdaşlığımızda xüsusi nələri edə bilərik? Son bir neçə ildə əməkdaşlıq çox yaxşı inkişaf edib. Biz bir sıra müstəvidə irəliləyirik. Sözsüz ki, enerji sahəsində. Düşünürəm ki, siyasi müstəvidə də biz bir çox səylər göstərmişik. Prezident Mişel çox fəaldır, Siz dəfələrlə görüşmüsünüz və Siz onun, eləcə də bizim hamımızın, Avropa İttifaqının ədalətli vasitəçi olduğunu görmüsünüz. Bilirsiniz ki, bizim gizli gündəliyimiz yoxdur, xüsusi gündəliyimiz yoxdur. Biz sadəcə, yaxşı əməkdaşlıq etmək və əməkdaşlığımızı inkişaf etdirmək istəyirik. Bir çox dialoqlar – təhlükəsizlik sahəsində və bir sıra başqa sahələrdə dialoqlar qurulub. Biz daha çox məsələni nəzərdən keçirməyə hazırıq. Lakin sözsüz ki, əsas məsələni, münaqişəni unutmaq istəmirik.

Cənab Prezident, sirr deyil ki, biz Ermənistandan gəlmişik. Orada olduq, yaxşı danışıqlar apardıq. Düşünürəm ki, Ermənistanda aldığımız əsas mesaj ondan ibarətdir ki, Ermənistan da sülhün əldə olunmasında maraqlıdır. Biz həmçinin Sizin də bunda

maraqlı olduğunuzu eşidirik. Ona görə də biz davamlı şəkildə sülhə öz töhfəmizi vermək istəyirik ki, bunu birdəfəlik kənara qoyaq, Cənubi Qafqaz regionunun qonşu ölkələrlə birlikdə çiçəklənməsi istiqamətində hərəkət edək. Düşünürəm ki, bizim çatdırmaq istədiyimiz əsas diləyimiz bu olacaq.

İkitərəfli məsələlərə gəlincə, sonuncu məsələ bizim sazişimizdir. İstəyirik Sizdən xahiş edək ki, bunu həyata keçirmək üçün daha bir təkan verək. Bildiyiniz kimi, razılaşdırılası çox məqam qalmayıb. Ona görə də əgər biz ikitərəfli sazişi razılaşdıra bilsək, bu, ikitərəfli əməkdaşlığımızda daha bir mühüm addım olacaq. Ümumilikdə isə biz burada dinləyici qismindəyik. Böyük məmnuniyyətlə Sizin fikirlərinizi, ideyalarınızı dinləyərik. Biz onları müvafiq olaraq paytaxtlarımızda öz rəhbərliklərimizə çatdıracağıq. Ümumilikdə isə biz sadəcə, burada olmağa şadıq və bizi qəbul etdiyinizə görə minnətdarıq, cənab Prezident.

**İlham Əliyev:** Təşəkkür edirəm, çox sağ olun. İlk növbədə, gəldiyinizə görə təşəkkür edirəm. Mən bu səfəri yüksək qiymətləndirirəm. Düşünürəm ki, bu, gələcəkdə görməli olduğumuz işlərin düzgün qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bildiyiniz kimi, Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın məzmunu olduqca genişdir. Biz müxtəlif sahələrdə – siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımızın səviyyəsindən çox məmnunuq. Əlbəttə, «Şərq Tərəfdaşlığı»na gəldikdə, bu proqramın əvvəlindən Azərbaycan onu güclü şəkildə dəstəklədi və Zirvə gö-

rüşləri daxil olmaqla, müxtəlif tədbirlərdə fəal iştirak etdi. Hazırda isə sizinlə razıyam ki, onun müasirləşdirilməsinin və görülən işlərin nəzərdən keçirilməsinin vaxtıdır. Çünki bu proqramın yaradılmasından 10 ildən çox keçib və «Şərq Tərəfdaşlığı»na üzv ölkələr öz seçimlərini ediblər. Bəziləri Assosiasiya Sazişini imzalayıb, digərləri Avrasiya İqtisadi İttifaqına üzv olub. Azərbaycan yeganə ölkədir ki, heç bir formata qoşulmayıb. İqtisadi göstəricilərimiz, siyasi və iqtisadi sabitlik və ərazilərimizin azad olunması xarici siyasətimizin praqmatizm üzərində qurulduğunu və hədəfə hesablanmış olduğunu nümayiş etdirir. Başlıca hədəf isə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi idi və biz buna iki il əvvəl nail olduq.

Beləliklə, biz «Şərq Tərəfdaşlığı» ilə bağlı yeni imkanların nədən ibarət olduğunu nəzərdən keçirməliyik. Bizə gəldikdə, biz bu proqramı və bu platformanı üzv ölkələr arasında əməkdaşlıq deyil, Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirmək üçün əlavə imkan hesab edirik. Çünki «Şərq Tərəfdaşlığı»na üzv olan digər 5 ölkə ilə bizim fərqli münasibətlərimiz vardır. Bizə isə Avropa Komissiyası ilə əlavə əməkdaşlıq mexanizminin əldə edilməsi vacib idi. İndi sizin də qeyd etdiyiniz kimi, yeni geosiyasi şəraitdə bunu yenidən nəzərdən keçirmək lazımdır.

Bizə gəldikdə, Avropa İttifaqına üzv dövlətlərlə ikitərəfli əsasda fəal işləmişik. Üzv ölkələrin 9-u ilə biz strateji tərəfdaşlıq haqqında bəyanat, yaxud saziş imzalayıb və ya qəbul etmişik. Bu isə üzv dövlətlərin üçdəbiridir. Hesab edirəm ki, Azərbaycan

«Şərq Tərəfdaşlığı» qrupuna daxil olan nadir ölkədir ki, öz strateji hədəfinə həqiqətən, nail olub. Beləliklə, bu, yaxşı platformadır və biz onu Avropa İttifaqı ilə sazişimizin müzakirəsi üçün təməl hesab edirik. Saziş üzərində iş uğurla, lakin ləng gedir. Uğurla gedir ona görə ki, sazişin bəndlərinin 90 faizi razılaşdırılıb. Ləng gedir ona görə ki, orada hər iki tərəfdən siyasi iradə tələb edən və necə deyərlər, ilişib qaldığımız məsələlər var. Azərbaycanda bununla bağlı müəyyən narahatlıqlar var, çünki bizim imzaladığımız və ya imzalamağı planlaşdırdığımız hər hansı saziş bizə və tərəfdaşlarımıza əlavə fayda verməlidir. Biz orta və ya uzunmüddətli perspektivdə iqtisadi çətinliklər yarada biləcək hər hansı bir sənədi imzalaya bilmərik. Yəni ləngiməyə səbəb olan bəndlər iqtisadiyyat, ticarət və bəzi digər sahələrdir. Mən prosesin sürətləndirilməsi ilə bağlı nümayəndə heyətimizə artıq təlimat vermişəm və hesab edirəm ki, sazişin yekunlaşdırılması üçün fürsət vardır. Zənnimcə, bu bizim əməkdaşlığımız üçün daha bir mühüm nailiyyət olacaqdır. Biz, əlbəttə ki, enerji inkişafı və enerjinin şaxələndirilməsi layihələri haqqında da danışacağıq və müzakirələrin nədən ibarət olduğunu biləcəyik.

Siz Ermənistana səfərinizi və orada Ermənistan rəhbərliyindən sülh mesajı aldığınızı qeyd etdiniz. Biz işğalın davam etdiyi bütün illər ərzində bu mesajları eşitmişik. Lakin onlar səmimi deyildi. Biz də sülh arzulayırdıq, lakin torpaqlarımızı geri istəyirdik. Onlar isə torpaqları geri qaytarmadan sülh istəyirdilər. Fərq bunda idi. Beləliklə, biz münaqişəni

güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə həll etməli olduq. Mən bu gün onların sülh haqqında danışmasını bir növ manipulyasiya hesab edirəm. Çünki onlar həqiqətən, sülh arzulayırdılarsa, bizim təklifimizə cavab verərdilər. Müharibə başa çatdıqdan dərhal sonra sülh sazişi üzərində danışıqlara başlamağı təklif edən biz olmuşuq. Bu, dünya tarixində nadir hallardandır ki, ərazisi uzun illərdir işğal altında olan, ədaləti güc yolu ilə bərpa edən, düşməni məğlub edərək, torpağından qovan ölkə sülh təklif etsin. Biz Ermənistan tərəfindən ərazilərimizin dağıdılması və viran qoyulması, azərbaycanlıların əzab-əziyyət çəkməsinə baxmayaraq, sülh təklif etdik.

Biz məlum 5 prinsipdən ibarət sülh və bir növ, çərçivəni təklif etdik. Məhz biz delimitasiya Komissiyasını yaratmağı təklif etdik. Məhz biz münasibətlərin normallaşdırılması üçün əsasları müəyyən etməyə çalışdıq. Ermənistan bu prosesin ilkin mərhələsində çox tərəddüd edirdi. İndi isə onlar sülh haqqında danışırlar, lakin biz onların anlamında sülhün nə olduğunu anlamırıq. Bununla belə, bizim mövqe çox aydındır. Bu, dəfələrlə ictimaiyyət qarşısında, o cümlədən mənim Avropa Komissiyasının rəhbərliyi və normallaşma prosesində iştirak etmiş, hazırda iştirak edən ölkələrin, yəni Birləşmiş Ştatların və Rusiyanın liderləri ilə kontaktlarım zamanı qeyd olunub. Bizim iki yolumuz olmalıdır: Azərbaycan–Ermənistan əlaqələrinin normallaşdırılması prosesi və həmçinin hüquqlar və təhlükəsizlik baxımından Azərbaycanda, Qarabağda erməni azlığına aid məsələlər.

Elə dünən Dövlət katibi Blinken ilə mənim telefon danışığım olub. Biz bu haqda bir daha danışdıq. Biz tam anlayırıq ki, iki yol olmalıdır və onlar bir-birinə qarışmalı deyil. Lakin Ermənistandan gələn bəyanatlar çox ziddiyyətlidir. Onlar bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altında imza da atırlar. Bu, bütün ərazimizin suverenliyi deməkdir. Hamımız suverenliyin nə olduğunu anlayırıq. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu olmayacaq. Bu mümkün deyil. Biz buna razılıq verməyəcəyik.

Buna görə bizə Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu onların seçimidir. 30 il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır.

Bir daha deyirəm ki, biz onların əməllərini sözlərlə deyil, addımlarla ölçməliyik. Çünki onların dedikləri sözlər etdikləri əməlləri və ya planları ilə ziddiyyət təşkil edir. Bununla bağlı, bilmirəm, siz Ermənistan rəhbərliyindən birbaşa cavab almısınız, yoxsa yox. Mən şübhə edirəm, çünki onlar bu ikimənalılığı saxlamaq istəyir, bu isə heç də fayda gətirmir. Əgər bu ölkə sülh istəyirsə, onda o çox təhlükəli ritorikadan əl çəkməlidir. Bu yaxınlarda Ermənistan rəsmiləri Azərbaycanı İŞİD və «Əl-Qaidə» ilə müqayisə etmişdilər. Fikrimcə, bu çox təhlükəli rito-

rikadır. Birincisi, onların özləri İŞİD və «Əl-Qaidə» kimi hərəkət ediblər. Avropa İttifaqının səfirləri azad edilmiş ərazilərə baş çəkiblər. Ermənilər tarixi və dini irsə İŞİD və «Əl-Qaidə»nin eynilə etdiyi kimi yanaşıblar. Biz yox. Onlar. Onlar terror aktları törədiblər. Onlar soyqırımı törədiblər. Onlar bizim məscidləri uçurublar. Biz yox.

Lakin cənab Paşinyan bu sözləri istifadə edərkən bilməlidir ki, biz bunu eşidirik. O bizim reaksiyamızın necə olacağı barədə düşünməlidir. Bir sözlə, məsələ asan deyil. Hesab edirəm, vacib odur ki, Ermənistan əslində istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Biz buna hazırıq. Yeri gəlmişkən, bu proses başlanıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur. Artıq söylədiyim kimi, Azərbaycan, Avropa İttifaqı, Birləşmiş Ştatlar və Rusiya arasında, yəni Azərbaycanın bu işdə yardımçı ola biləcək hesab etdiyi həmin ölkələr və qurum arasında konsensus olmalıdır.

* * *

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin inkişafı, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, ölkəmizin regional nəqliyyat-logistika qovşağı olması vurğulandı. Söhbət zamanı Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*17 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin noyabrın 17-də telefonla zəng etmişdir.*

*Söhbət əsnasında dövlət başçıları iqtisadi-ticari və enerji sahələrində əməkdaşlıq məsələlərini müzakirə etdilər.*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EGİLS LEVİTSƏ**

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Latviya münasibətlərinin hazırkı yüksək səviyyəsi məmnunluq doğurur. İnanıram ki, xalqlarımızın mənafeləri naminə ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Latviya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2022-ci il*

**GÜRCÜSTANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB
İRAKLİ QARİBAŞVİLİYƏ**

Hörmətli cənab Baş Nazir!

Bu il biz Azərbaycan Respublikası ilə Gürcüstan arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu xoş hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, Sizə və dost Gürcüstan xalqına ən səmimi arzularımı yetirirəm.

Əsrlərboyu dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin son 30 ildə hərtərəfli inkişaf edərək, bugünkü səviyyəyə çatması böyük məmnunluq doğurur.

Diplomatik münasibətlərin qurulmasından ötən dövr ərzində ölkələrimiz arasında yüksək səviyyəli siyasi dialoq iqtisadiyyat, enerji, nəqliyyat-logistika, humanitar və digər sahələrdə əlaqələrimizin möhkəmlənməsi üçün mühüm zəmin olmuşdur. Qarşılıqlı səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanmış çoxsaylı sənədlər, reallaşmış birgə layihələr çoxşaxəli əməkdaşlığımızın genişlənməsində əhəmiyyətli rol oynamışdır. Etibarlı strateji tərəfdaş olan ölkələrimizin beynəlxalq strukturlar çərçivəsində də səmərəli əməkdaşlıq etmələrini yüksək qiymətləndirirəm.

Avropa ilə Asiya arasında körpü rolunu oynayan regionumuzda rifaha, sabitliyə və təhlükəsizliyə töhfə verən irimiqyaslı nəqliyyat-kommunikasiya layihələrinin müvəffəqiyyətlə gerçəkləşdirilməsində sıx işbirliyimizi xüsusi qeyd etmək istərdim.

Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan–Gürcüstan münasibətləri dinamik inkişaf edərək, hazırda yeni məzmun kəsb etməkdədir. Hesab edirəm ki, bölgəmizin iqtisadi potensialını artırmaq üçün çox gözəl imkanlar vardır.

Əminəm ki, Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin daim genişləndirilməsi, xalqlarımızın rifahı, ölkələrimizin və regionumuzun çiçəklənməsi naminə əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi, strateji tərəfdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Gürcüstan xalqına daim əmin-amanlıq, firavanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2022-ci il*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİN İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*18 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 18-də Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya hökumətinin Sədri Mixail Mişustin rəsmi foto çəkdirdilər.*

**İlham Əliyev:** Hörmətli Mixail Vladimiroviç, hörmətli qonaqlar! Sizi Azərbaycanda salamlamağa çox şadam. Biz sizinlə bu ilin əvvəlində görüşmüşdük və sizin səfəriniz barədə razılığa gəlmişdik. Çox şadam ki, Azərbaycana səfər etməyə vaxt tapmısınız. Bilirəm ki, dünən bizim Baş Nazirlə görüşünüz olub. Bildiyimə görə, qarşılıqlı fəaliyyətimizə dair mühüm məsələlərin çox geniş spektrini müzakirə etmisiniz.

Bu ilin əvvəlindən Prezident Vladimir Vladimiroviç Putin ilə biz münasibətlərimizə yaxşı ton, yeni dinamika vermişik və il ərzində dəfələrlə görüşmüşük. Dünən də ikitərəfli gündəliyə aid mühüm məsələlər barədə telefonla danışmaq imkanımız oldu. Beləliklə, necə deyərlər, prezidentlər münasibətləri-

mizin bütün spektrini müəyyən edir. Əlbəttə, bütün müvafiq strukturlar da bu istiqamətdə fəaliyyət göstərir. Biz çox şadıq ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanılacaq. Ona görə ki, bu gün, o cümlədən sizin səfəriniz çərçivəsində müzakirələr qarşılıqlı ticarət potensialını artırmağa şərait yaradacaq.

Biz yükdaşımaların həcmində də yaxşı dinamika görürük. Tranzit yüklərə gəldikdə isə, fikrimcə, burada rekord göstəricilərə nail oluruq. Təqribən 50–60 faiz artım var və artım perspektivi böyükdür. Həmçinin tranzit-logistika infrastrukturu məsələsində ilk növbədə, ikitərəfli əsasda və əlbəttə, qonşu ölkələr də cəlb edilməklə qarşılıqlı əməkdaşlıq potensialını artıracağıq. Ona görə ki, Rusiya və Azərbaycan uzun illər boyu ölkələrimizdə nəqliyyat-logistika infrastrukturuna fəal surətdə sərmayə qoyub. Nəqliyyat dəhlizlərinin, ilk növbədə, Şimal–Cənub dəhlizinin potensialının artırılması bu layihədə iştirak edən bütün ölkələrin maraqlarına uyğun olacaq, o cümlədən biznes üçün əlavə perspektivlər açacaqdır.

Sizin səfəriniz ərəfəsində mən bəzi statistik məlumatlara baxdım. Sevindim ki, aviareyslərin sayı sürətlə artır. Həftədə 130-dan çox reys var, yəni biz praktiki olaraq, ən yüksək göstəriciyə nail olmuşuq və Rusiyadan turist axını da artır. Bu il təqribən 80 faiz artım olub. Əlbəttə, pandemiya ilə əlaqədar bu göstərici azalmışdı. Biz hələ pandemiyadan əvvəlki səviyyəyə çatmamışıq, lakin fikrimcə, çatacağıq. Öl-

kələrimiz arasında sıx dostluq əlaqələrini, bu il Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamənin imzalanmasını və il ərzində münasibətlərimizin müttəfiqlik xarakterini dəfələrlə nümayiş etdirməyimizi, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirmək niyyətində olmağımızı nəzərə alaraq, düşünürəm ki, reyslərin sayı da artacaqdır. Bilirəm ki, dünən regionlararası forum uğurla keçib. Bu da bizim ikitərəfli qarşılıqlı fəaliyyətimizin mühüm elementidir. Biz Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlayırıq. Əlbəttə, bu tədbir çərçivəsində əvvəlki illərdə də və əminəm ki, dünən də yeni vəzifələr müəyyən edilib. Ona görə də gündəlik yetərincə genişdir. Biz 7 «Yol xəritəsi» üzrə fəal iş aparırıq. Əminəm ki, ilin sonuna belə yaxşı göstəricilərlə yaxınlaşaraq, növbəti ilə də dinamizm verəcəyik. Bir daha xoş gəlmisiniz!

**Mixail Mişustin** (*Rusiya hökumətinin Sədri*): Sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Azərbaycana səfərə dəvətinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm və hökumətin sədri qismində buraya böyük hörmətlə səfər edirəm. Bizim nümayəndə heyətini çox səmimi qəbul etdiyinizə görə də Sizə, Əli Hidayət oğlunun bütün komandasına təşəkkürümü bildirmək istəyirəm.

Biz böyük nümayəndə heyəti ilə gəlmişik. Azərbaycan ilə qarşılıqlı fəaliyyətdə olan əsas regionlarımızın 4 rəhbəri gəlib. Fürsətdən istifadə edərək, Sizi dövlət bayramınız – Milli Dirçəliş Günü münasibətilə təbrik etmək, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin ən xoş, ən səmimi arzularını

çatdırmaq istəyirəm. Siz dediniz ki, dünən axşam onunla danışmısınız.

Biz hökumət xətti ilə məhz sizin – prezidentlərimizin qəbul etdiyi qərarların yerinə yetirilməsi üçün çox fəal iş aparırıq. Dünən Əli Hidayət oğlu Əsədov ilə biz 11-ci regionlararası forumda iştirak etdik. Forumda qarşılıqlı münasibətlərin gündəliyindəki məsələlərin hamısına toxunuldu. İlk növbədə, energetika, sənaye, nəqliyyat, mədəni-humanitar sahələrə diqqət yetirildi. Danışıqların yekunlarına əsasən, ən müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair bir sıra sazişlər imzalandı. Nəqliyyat sahəsi çox mühüm, xüsusi sahədir. Əminik ki, birgə infrastruktur-logistika layihələri bütün əməkdaşlıq kompleksinin genişləndirilməsi üçün yeni drayver olacaq. Burada Qərb marşrutunu – Şimal–Cənub nəqliyyat dəhlizini ayrıca qeyd etmək istərdim. Biz 2030-cu ilə qədər bu dəhlizlə daşımaların həcmini artıraraq, ildə 15 milyon tona çatdırmaq niyyətindəyik.

Mədəni-humanitar əlaqələrə ənənəvi olaraq xüsusi əhəmiyyət veririk. Siz dediyiniz kimi, diplomatik münasibətlərin qurulmasının bu il 30 illiyini qeyd edirik. Bu mühüm hadisəyə həsr edilmiş təntənəli silsilə tədbirlər keçirilib. Gələn il isə biz görkəmli sovet və Azərbaycanın dövlət xadimi, Sizin atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik.

Biz dünən də qeyd etdik ki, Bakıda bizim institutların – Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Rusiyada da Azərbay-

candan olan 11 mindən çox tələbə təhsil alır. İnsanlar arasında birbaşa əlaqələrin inkişafı, zəngin tarix, mədəniyyət və ənənələrlə tanışlıq bizim qarşılıqlı münasibətlərimizi möhkəmləndirəcəkdir.

* * *

*Dövlət başçımız Rusiya Prezidentinin xoş arzularına görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Vladimir Putinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*18 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 18-də Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin ilə çay masası ətrafında təkbətək görüşü olmuşdur.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ**

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə növbədənkənar seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Səsvermənin nəticələri xalqınızın Sizə olan böyük inam və etimadının bariz təzahürü, qardaş Qazaxıstanın hərtərəfli inkişafı yolunda fəaliyyətinizə verilən yüksək qiymətdir.

Qardaş xalqlarımızı birləşdirən ortaq mənəvi dəyərlər, dini-mədəni köklər və möhkəm dostluq Azərbaycan–Qazaxıstan dövlətlərarası əlaqələrini şərtləndirən başlıca amillərdəndir. Bu gün çoxşaxəli münasibətlərimizin və əməkdaşlığımızın qarşılıqlı hörmət və etimad ruhunda inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasında ənənəvi dostluq əlaqələrinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın dərinləşməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə məsul fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2022-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASININ YARADILMASININ 30 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ TƏDBİRDƏ İŞTİRAK

*21 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev noyabrın 21-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illiyi münasibətilə keçirilmiş tədbirdə iştirak etmişdir.*

*Dövlət başçısı tədbirdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün biz Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü qeyd edirik. Bu münasibətlə Yeni Azərbaycan Partiyasının bütün üzvlərini ürəkdən təbrik edirəm.

Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdi, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdi. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri,

vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında gördülər və məhz buna görə ulu öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur «91-lər» öz tarixi missiyalarını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq, Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirildi. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransı, bir daha demək istəyirəm, tarixi hadisə idi. Ulu öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yarandı. Yeni Azərbaycan Partiyası yaranında müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, 1 il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Nax-

çıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq, həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündəngünə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq, ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

Torpaqlarımızın işğal altına düşməsi vəziyyətimizi daha da ağırlaşdırırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi həm mənəvi cəhətdən, həm də hərbi-strateji nöqteyi-nəzərdən faciə idi. Çünki beləliklə, o vaxt «Dağlıq Qarabağ Muxtar Vilayəti» adlandırılan ərazi ilə Ermənistan arasında coğrafi bağlantı təmin edildi. Hər kəs yaxşı görürdü ki, əgər işlər belə davam etsə, Kəlbəcərin də işğalı qaçılmaz olacaqdır. Əfsuslar ki, belə də oldu. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşdü və beləliklə, ərazimizin böyük bir hissəsi nəzarətimizdən çıxdı.

Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə O həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəh-

bərliyi altında Azərbaycan keçən əsrin 70–80-ci illərinin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdi və bütün statistik göstəricilər bunu təsdiqləyir. Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın ötən əsrin 80-ci illərində üzləşdiyi faciə bir daha göstərdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir. Çünki onun çalışdığı dövrdə – nə 1969–82-ci illərdə Azərbaycanda birinci şəxs kimi çalışdığı dövrdə, nə də 1982–87-ci illərdə Moskvada Siyasi Büronun üzvü kimi çalışdığı dövrdə bir dəfə də olsun Qarabağda separatist qüvvələr baş qaldıra bilmədilər.

Halbuki belə meyillər var idi, ondan əvvəlki dövrlərdə də var idi. Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırdılar. Yəni bu amillər göstərir ki, ulu öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, sovet hökumətini, Kommunist Partiyasını – uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdi, bu dəhşətli cinayəti qınamışdı. Bütün bunlar və Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikası-

nın Dövlət bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq, gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

YAP-ın təsis konfransından 7 ay keçəndən sonra Heydər Əliyev xalqın tələbi ilə Bakıya dəvət edildi, parlamentin sədri seçildi, 11 ay keçəndən sonra – oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Beləliklə, tariximizin o qara səhifəsi bağlandı.

Ölkə qarşısında çox ciddi, böyük problemlər var idi. Məhz Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın ona olan inamı və Yeni Azərbaycan Partiyası üzvlərinin fəaliyyəti, ictimai fəalların fəaliyyəti birlikdə bizə imkan verdi ki, bu çətin vəziyyətdən şərəflə çıxaq. Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atıldı. İlk növbədə, Konstitusiya qəbul edildi. Təsəvvür edin ki, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan artıq müstəqil dövlət idi, amma bizim Konstitusiyamız yox idi. Konstitusiyanın qəbul edilməsi çox önəmli tarixi hadisədir. Dövlətçiliyin əsasları qoyuldu, dövlət təsisatları düzgün zəmində formalaşdı. Beynəlxalq aləmdə bizə qarşı olan əsassız mövqeyə düzəlişlər edə bildik, tam aradan qaldırmadıq, çünki beynəlxalq müstəvidə bizə qarşı çox ciddi qüvvələr fəaliyyət göstərirdi. Amma hər halda, biz beynəlxalq təcridi, o cümlədən informasiya blokadasını yara bildik, Azər-

baycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdıra bildik.

Biz ulu öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapdı. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edildi. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edildi və xalq tərəfindən dəstəkləndi. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı ordumuzla fəxr edir. Yəni bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə, sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991–93-cü illərdə Azərbaycan xalqı faktiki olaraq, sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əliavtomatlı insanlar faktiki olaraq, hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başladı. Məşhur «Əsrin müqaviləsi» və neft-qaz sa-

həsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılmış addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Yəni 1993–2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz ulu öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək, Heydər Əliyev siyasətinə səs verdi.

Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, ulu öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək, güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artıbdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir.

Biz uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu həm bu gün üçün, həm də gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

Əlbəttə, bu gün hələ də görüləsi işlər çoxdur. İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, «kölgə» iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə – bütün bunlar gündəlikdə duran məsələlərdir. O cümlədən dövlət şirkətlərində korporativ idarəetmə üsulunun tətbiq edilməsi bu günün reallıqlarını əks etdirir. Əminəm ki, bu gün aparılan iqtisadi islahatlar – strateji xətt üzrə aparılan bu islahatlar yaxın gələcəkdə də bizə əlavə imkanlar verəcək. O cümlədən Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır. O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq, müstəqil si-

yasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir. Ulu öndərin yolu ilə gedərək, biz, əlbəttə, bu gün dünyada baş verən dəyişikliklərə də çox diqqətlə yanaşırıq, ən mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edirik. Əminəm ki, növbəti illərdə bu sahədə istədiyimizə nail olacağıq.

Biz yoxsulluğu əhəmiyyətli dərəcədə azalda bilmişik. Hətta pandemiya dövründə yoxsulluq bir qədər artsa da postpandemiya dövründə görülmüş işlər nəticəsində, minimum əməkhaqqının, pensiyanın minimum məbləğinin müntəzəm olaraq artırılması nəticəsində biz yoxsulluğu təqribən 5 faiz ətrafında saxlayırıq. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Burada dövlət siyasəti, iqtisadi-maliyyə sektorundakı şəffaflıq, biznes mühitinin yaxşılaşdırılması, yerli və xarici sərmayələrin bundan sonra da qeyri-neft sektoruna cəlb edilməsi əsas amillərdən biri olacaqdır.

Azərbaycan dövləti ulu öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, milli ənənələrə, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da ulu öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək,

zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratmışıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə də yaşayacaqlar.

Bizim hələ ötən əsrin 90-cı illərinin ortalarında ulu öndərin təşəbbüsü ilə başlanmış neft-qaz layihələri indi görün nə qədər geniş vüsət alıbdır. Hətta onun müəllifi olduğu Bakı–Tbilisi–Ceyhan neft kəməri əsas rol oynayıbdır. Amma ondan sonrakı layihələr bizim imkanlarımızı böyük dərəcədə genişləndirib və bu gün Azərbaycan bir çox ölkələr üçün əvəzolunmaz tərəfdaşa çevrilibdir. Bu gün dünyada gedən proseslər göstərir ki, enerji təhlükəsizliyi təhlükəsizliyin əsas amillərindən biridir. Bu olmadan heç bir ölkə özünü təhlükəsiz saya bilməz. Bizim üstünlüyümüz ondadır ki, təbii sərvətlərimiz vardır. Amma o qədər ölkələr var ki, onların təbii sərvətləri bizimkindən qat-qat çoxdur. Lakin – mən heç kimlə müqayisə aparmaq istəmirəm – o sərvətlərdən bütün ölkələr səmərəli şəkildə istifadə edə bilirlərmi? Əlbət-

tə ki, yox. Azərbaycanda isə bu sahədə aparılan işlər həm ölkə iqtisadiyyatını gücləndirdi, eyni zamanda, əldə edilmiş gəlirlər ədalətli şəkildə cəmiyyətdə bölüşdürüldü. İlk növbədə, ən həssas qruplar bu imkanlardan faydalandılar, o cümlədən keçmiş məcburi köçkünlər. Məhz onlar Azərbaycan Dövlət Neft Fondunun vəsaiti hesabına tikilmiş 300 mindən çox ev və mənzillə təmin edilmişlər. Neft-qaz layihələrimiz bizim beynəlxalq mövqelərimizi də gücləndirdi. Çünki xüsusilə indiki şəraitdə, bugünkü gündə Azərbaycanın infrastrukturu, nəqliyyat, enerji infrastrukturu bir çox ölkələr üçün həyati əhəmiyyət kəsb edir. Əlbəttə ki, geosiyasi imkanlarımız artdıqca ölkə maraqları daha dolğun şəkildə təmin edilir, müxtəlif qitələrdə bizim dostlarımızın sayı artır.

Güclü ordu quruculuğu da ulu öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə təqdim edilirdi, bəzi işləri isə biz daha çox konfidensial, yəni məxfi şəraitdə aparırdıq, bu da başa düşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu gün bir çoxları üçün bu nümunədir.

Bizim beynəlxalq mövqelərimiz böyük dərəcədə möhkəmləndi. Bu haqda çox danışmaq olar, sadəcə olaraq, bir neçə məqamı qeyd etmək istəyirəm. Biz MDB məkanında birinci ölkə olduq ki, 155 öl-

kənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Biz 2019-cu ildə 120 ölkənin yekdil qərarı ilə «Qoşulmama Hərəkatı»na sədr seçildik və uğurlu sədrliyimizə görə bizim sədrlik müddətimiz daha 1 il uzadıldı, gələn ilin sonuna qədər biz sədrlik edəcəyik. Biz İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində, o cümlədən bir çox digər təşkilatlar çərçivəsində uğurlu fəaliyyət göstəririk. Hətta üzv olmadığımız təşkilatlarda da bizim dostlarımız az deyil və son illərin, ayların hadisələri onu bir daha göstərir. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı. Biz bu təşkilatın üzvü deyilik, Ermənistan bu təşkilatın üzvüdür və bu təşkilat xətti ilə Azərbaycana qarşı əsassız iddia qaldırmaq fikrində idi, faktiki olaraq, bu təşkilata üzv olan ölkələri Azərbaycanla üz-üzə qoymaq istəyirdi. Bu, böyük təxribat və böyük cinayətdir.

Ancaq bu təşkilatın digər üzvləri bu təxribata getmədilər. Bəziləri isə öz çıxışlarında Ermənistanı elə günə qoydular ki, Ermənistanda bu günə qədər də bunu yaddan çıxara bilmirlər. Yəni bu nəyi göstərir? Bu təşkilatda bizim dostlarımız Ermənistanınkından daha çoxdur. Nəyə görə? Siyasətimizə görə, etibarlı tərəfdaş olmağımıza görə. Ermənistana nə üçün münasibət mənfidir? Ona görə ki, onlar hər yerdə yalan danışırlar və öz problemlərini həll etmək üçün daha qapı qalmayıb ki, müraciət etməsinlər. Bütün bunlar göz qabağındadır, hər kəs bunu görür, hər kəs bunu bilir.

Bu yaxınlarda yenə də üzv olmadığımız, amma Ermənistanın bilmirəm hansı səbəbə görə üzv oldu-

ğu Frankofoniya təşkilatı çərçivəsində də Azərbaycana qarşı çirkin bir təxribat planlaşdırılırdı. Bu təxribatın müəllifi Fransa idi. İndi Fransa Ermənistana himayədarlıq edir. Onlar bir-birinə bacı deyirlər, yoldaşlar xüsusilə bunu qeyd etdilər. Mən daha demədim ki, qardaş da deyə bilərdilər, amma bunlar nədənsə bacı deyirlər. Orada hazırlanmış qətnamənin ilkin variantı sırf anti-Azərbaycan tezislər üzərində qurulmuşdu və həqiqətə tam zidd idi. Frankofoniya təşkilatında olan dostlarımızın – onları biz yaxşı tanıyırıq və onlar da, sözün əsl mənasında, dostlarımızdır – səyi nəticəsində bütün anti-Azərbaycan tezisləri oradan çıxarıldı. Fransa–Ermənistan tandemi bu imkandan da istifadə edə bilmədi. Yəni bu onu göstərir ki, bizim beynəlxalq təşkilatlardakı nüfuzumuz və beynəlxalq müstəvidə apardığımız siyasət təqdir edilir. Çünki biz hər bir işə hər zaman məsuliyyətlə yanaşırıq. Bizim sözümüzlə imzamız arasında heç bir fərq yoxdur. Biz xarici siyasət konsepsiyamızda əməkdaşlıq, dostluq prinsiplərini üstün tuturuq və imkan daxilində ehtiyacı olan ölkələrə kömək göstəririk, necə ki, COVID dövründə 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Yəni bu, böyük məsələdir. Beynəlxalq arenada özümüzü ləyaqətlə aparmağımız bizə əlavə hörmət qazandırdı.

Bu gün Yeni Azərbaycan Partiyasının yubileyini qeyd edərkən hər birimiz, şübhəsiz, hər birimiz yenə də ulu öndərin xatirəsinə ehtiramımızı ifadə edirik. Çünki illər keçdikcə və dünya dəyişdikcə hər birimiz çox gözəl bilirik ki, əgər o vaxt Azərbaycan

xalqı Heydər Əliyevə müraciət edib onu hakimiyyətə dəvət etməsəydi, ölkəmiz daha böyük fəlakətlə üzləşə bilərdi. Ulu öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da, yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur – onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır. Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi – Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq gedib elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq, ən düzgün vaxt seçməli

idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq–iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt ulu öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu öndərin məzarı önündə özümə dedim ki, bu sonuncu vəsiyyət də yerinə yetirildi.

İndi isə qurub-yaradırıq, Qarabağı, Şərqi Zəngəzuru yenidən qururuq. Həyatımızda və ölkəmizin həyatında tamamilə yeni dövrdür. Bu quruculuq işlərində hər birimiz böyük həvəslə, bir məqsədlə iştirak edirik ki, keçmiş köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytaraq, dağılmış şəhər və kəndləri tezliklə bərpa edək və bütün dünyaya bir daha göstərək ki, biz böyük xalqıq. Bu gün nəinki Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları başını dik tutur. Bizim üzümüz ağ, alnımız açıqdır. Biz müzəffər xalqıq, qalib dövlətik və bu, əbədi olacaqdır!

* * *

*Sonra tədbir çıxışlarla davam etdi.*

*Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuş AK Partinin səd-*

*ri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunu oxudu:* «Torpaqlarını işğaldan azad edərək, regionun parlayan ulduzuna çevrilən Azərbaycan bu gün bütün Türk Dünyasının ilham mənbəyidir. Türkiyə ilə Azərbaycan arasında müstəsna əlaqələrə əsaslanan və Şuşa Bəyannaməsi ilə ən yüksək səviyyəyə yüksələn əməkdaşlığımızın və həmrəyliyimizin gələcəkdə də getdikcə artacağına tam inanıram».

*Məktubda Türkiyə lideri Azərbaycanın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu YAP-ın ilk gündən böyük xidmətlər göstərdiyini, Azərbaycanın aparıcı siyasi partiyasına çevrildiyini, bu gün də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə hər sahədə böyük uğurlara imza atdığını vurğuladı, YAP-ın gələcəkdə də Azərbaycanın çiçəklənməsi, dünyada öz mövqeyinin möhkəmlənməsi naminə fəaliyyətini uğurla davam etdirəcəyinə əminliyini bildirdi.*

*Rusiya Federasiyasının «Yedinaya Rossiya» Partiyası Ali Şurasının Büro üzvü, Federasiya Şurasının Beynəlxalq Məsələlər Komitəsinin sədr müavini Andrey Klimov partiyanın sədri Dmitri Medvedevin, Çin Xalq Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri xanım Qo Min Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin, Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin Xarici Əlaqələr Komitəsi sədrinin müavini Somfon Siçulun Laos Xalq İnqilab Partiyası Mərkəzi Komitəsinin baş katibi, Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulitin təbrik məktublarını diqqətə çatdırdılar.*

*Özbəkistanın Liberal Demokratik Partiyasının İcra Komitəsinin sədri Aktam Xaitov Yeni Azərbaycan Partiyasına yazdığı təbrik məktubunu oxudu.*

*Sonra YAP İdarə Heyətinin üzvü Arif Rəhimzadə, partiyanın Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Anar Mirzəyev, «Azərbaycan Bayrağı» ordenli şəhid Nurlan Mustafayevin anası Rahilə Ramazanova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, YAP-ın Naxçıvan Dövlət Universiteti üzrə ərazi partiya təşkilatının sədri Arzu Abdullayev, YAP Gənclər Birliyinin üzvü Ülviyyə Axundova, Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) baş katibi Cho Byunqjaen, Şimali Makedoniyanın Türk Demokratik Partiyasının sədri Beycan İlyas çıxış etdilər.*

*Natiqlər ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının yaranmasından, partiyanın 30 illik fəaliyyəti dövründə əldə edilmiş uğurlardan və gələcəkdə atılacaq addımlardan danışdılar. YAP-ın xalqın sevgisini və dəstəyini qazandığını, ölkədə sabitliyin təminatında avanqard rolunu davam etdirdiyini diqqətə çatdıran çıxışçılar qeyd etdilər ki, bu gün Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası nəinki regionda, eləcə də beynəlxalq arenada özünün böyük nüfuzu ilə tanınır.*

*Daha sonra YAP sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin, Bolqarıstanın Haqq və Azadlıqlar Hərəkatı Partiyasının təbrik məktublarını diqqətə çatdırdı. Yeni Azərbaycan Partiyası-*

*nın ünvanına təbrik məktublarının gəldiyinin davam etdiyini söyləyən YAP sədrinin müavini bu barədə mətbuata əlavə məlumat veriləcəyini bildirdi. YAP-ın Mərkəzi Aparatı adından tədbirin iştirakçılarını partiyanın 30 illik yubileyi münasibətilə təbrik edən Tahir Budaqov ulu öndər Heydər Əliyevin işıqlı ideyaları ətrafında sıx birləşərək, Prezident İlham Əliyevin siyasətinin bundan sonra da ardıcıl olaraq həyata keçirilməsi istiqamətində hər kəsə uğurlar arzuladı.*

*Tədbir Dövlət himninin səsləndirilməsi ilə başa çatdı.*

## TÜRKİYƏ RESPUBLİKASININ ƏDALƏT VƏ İNKİŞAF PARTİYASI SƏDRİNİN BİRİNCİ MÜAVİNİ VƏ İSTANBULUN MİLLƏT VƏKİLİ NUMAN KURTULMUŞ İLƏ GÖRÜŞ

*21 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini və İstanbulun millət vəkili Numan Kurtulmuşu qəbul etmişdir.*

*Numan Kurtulmuş Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə dövlət başçımızı təbrik etdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı.*

*Dövlət başçısı təbrikə görə minnətdarlığını ifadə etdi. Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirərək, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə dostluq və qardaşlıq münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi. Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulanaraq, əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## RUSİYANIN «YEDİNAYA ROSSİYA» PARTİYASI ALİ ŞURASININ BÜRO ÜZVÜ, FEDERASİYA ŞURASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDR MÜAVİNİ ANDREY KLİMOV İLƏ GÖRÜŞ

*21 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının «Yedinaya Rossiya» Partiyası Ali Şurasının Büro üzvü, Federasiya Şurasının Beynəlxalq Məsələlər Komitəsinin sədr müavini Andrey Klimovu qəbul etmişdir.*

*Qonaq Azərbaycanın son illər əldə etdiyi mühüm nailiyyətlər, uğurlar və Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illik yubileyi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.*

*Dövlət başçısı xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişləncəyinə əminlik ifadə edildi.*

*Görüşdə Yeni Azərbaycan Partiyası ilə «Yedinaya Rossiya» Partiyası arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və perspektivlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## ASİYA SİYASİ PARTİYALAR BEYNƏLXALQ KONFRANSININ BAŞ KATİBİ CHO BYUNQJAEN İLƏ GÖRÜŞ

*21 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının (ICAPP) baş katibi Cho Byunqjaeni qəbul etmişdir.*

*Qonaq Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə dövlət başçısını təbrik etdi. O, partiyanın əldə etdiyi uğurlar və ölkəmizin qazandığı mühüm nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Dövlət başçısı xoş sözlərə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Görüşdə ICAPP-ın sabah Bakıda keçiriləcək «Sülh və təhlükəsizlik: siyasi partiyaların rolu» mövzusunda xüsusi konfransının əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı ölkəmizin Asiya Siyasi Partiyalar Beynəlxalq Konfransının fəaliyyətinə həmişə mühüm töhfələr verdiyi qeyd edildi, uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.*

## ÖZBƏKİSTAN RESPUBLİKASI LİBERAL DEMOKRATİK PARTİYASININ İCRA KOMİTƏSİNİN SƏDRİ AKTAM XAİTOV İLƏ GÖRÜŞ

*21 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Özbəkistan Respublikası Liberal Demokratik Partiyasının İcra Komitəsinin sədri Aktam Xaitovu qəbul etmişdir.*

*Aktam Xaitov Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə Prezident İlham Əliyevi öz adından və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin adından təbrik etdi, Özbəkistanın dövlət başçısının xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Aktam Xaitov Prezident Şavkat Mirziyoyevin Azərbaycan ilə qarşılıqlı əlaqələri yüksək qiymətləndirdiyini vurğuladı.*

*Dövlət başçımız təbriklərə görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Bu il ərzində Özbəkistana üç dəfə səfər etdiyini qeyd edən Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevlə görüşlərini məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Özbəkistanın Liberal Demokratik Partiyası arasında əməkdaşlığın səmərəliliyinin və qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*21 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə telefonla zəng etmişdir.*

*Dövlət başçımız Kasım-Jomart Tokayevi Prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edərək, ona Qazaxıstanın inkişafı və firavanlığı naminə prezidentlik fəaliyyətində, o cümlədən aparılan islahatların həyata keçirilməsi işində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Kasım-Jomart Tokayev göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Söhbət zamanı Qazaxıstan Prezidentinin ölkəmizə son rəsmi səfəri çərçivəsində, eləcə də oktyabr ayında Astanada dövlət başçıları arasında keçirilmiş görüşlər məmnunluqla xatırlandı, görüşlərdə əldə edilmiş razılıqların uğurla icra edildiyi qeyd olundu.*

*Kasım-Jomart Tokayev Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi.*

*Dəvət məmnunluqla qəbul olundu.*

*Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə etdilər.*

## ASİYA SİYASİ PARTİYALARI BEYNƏLXALQ KONFRANSININ (ICAPP) BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ «TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ: SİYASİ PARTİYALARIN ROLU» MÖVZUSUNDA XÜSUSİ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) «Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu» mövzusunda xüsusi konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram.

ICAPP Asiya regionunda 370-dən çox siyasi partiyanı bir araya gətirən nüfuzlu beynəlxalq təşkilat olaraq, dövlətlərin aparıcı siyasi partiyaları səviyyəsində aktual regional və qlobal məsələlərin müzakirə edildiyi, fikir və təcrübə mübadiləsinin aparıldığı əhəmiyyətli platformadır. ICAPP-ın yaratdığı geniş diskussiya mühitinin əhatə dairəsi təkcə Asiya ilə məhdudlaşmır, onun tədbirlərində müntəzəm olaraq Afrika, Avropa və Latın Amerikası ölkələri siyasi partiyalarının da təmsilçiləri iştirak edirlər.

Beynəlxalq münasibətlər sistemində ciddi təlatümlərlə müşayiət olunan yeni dünya nizamının formalaşdığı hazırkı dövrdə siyasi partiyaların və beynəlxalq təşkilatların müxtəlif səviyyələrdə öz mövqe-

lərini və hadisələrə təsir imkanlarını yenidən dəyərləndirmələrinə ehtiyac yaranmışdır.

Dövlətlərin üzləşdikləri müasir qlobal çağırışlar arasında sülh və təhlükəsizlik problemləri beynəlxalq münasibətlərin bütün sahələrinə və iştirakçılarına təsir göstərən ən aktual məsələlərdəndir. Bu həm də 2020-ci ildə İkinci Qarabağ müharibəsi nəticəsində uzun illər məruz qaldığı hərbi təcavüzə son qoyaraq, ərazilərini işğaldan azad etməklə BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddət ərzində icra edilməyən 4 qətnaməsinin tələblərini həyata keçirmiş Azərbaycan, eləcə də bütün Cənubi Qafqaz regionu üçün həssas və prioritet məsələdir.

Tarixi təcrübə göstərir ki, münaqişələr əbədi davam edə bilməz. Azərbaycanla Ermənistan arasında da beynəlxalq hüquqa, ədalət prinsipinə əsaslanan sülhün, təhlükəsizliyin təmin edilməsi dövrün və zamanın tələbidir. Bu baxımdan, siyasi partiyaların beynəlxalq sülhə və təhlükəsizliyə töhfə vermək məqsədilə bilik və təcrübələrinin mübadiləsi, əməkdaşlıq imkanlarının genişləndirilməsi təqdirəlayiqdir.

Bugünkü tədbirin Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi ilə eyni vaxtda keçirilməsi əlamətdar hadisədir və öz yubileyini dost siyasi partiyalarla birlikdə qeyd edən YAP-ın beynəlxalq əməkdaşlığa, xarici tərəfdaşlara verdiyi önəmin göstəricisidir.

Ümidvaram ki, Yeni Azərbaycan Partiyasının ev sahibliyi ilə keçirilən bu konfrans çərçivəsində faydalı və məhsuldar müzakirələr aparılacaq, bölgədə,

eləcə də dünyada sülhün, təhlükəsizliyin təşviqində siyasi partiyaların fəallığının artırılması sahəsində səmərəli istiqamətlər müəyyənləşdiriləcəkdir.

Belə bir məqsədə xidmət edən fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2022-ci il*

# «FORMULA-1» QRUPUNUN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏ PREZİDENTİ STEFANO DOMENİKALİ VƏ QRUPUN MƏSLƏHƏTÇİSİ FLAVİO BRİATORE İLƏ GÖRÜŞ

*22 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də «Formula-1» qrupunun İdarə Heyətinin sədri və prezidenti Stefano Domenikali və «Formula-1» qrupunun məsləhətçisi Flavio Briatoreni qəbul etmişdir.*

*Görüşdə «Formula-1» yarışlarının Azərbaycanda uğurla keçirilməsinin önəmi vurğulandı, dünyada bu yarışlara marağın getdikcə artdığı bildirildi və yarışları seyr etmək üçün ölkəmizə xeyli sayda turistlərin gəldiyi məmnunluqla qeyd olundu.*

*Dövlət başçısı Azərbaycanın turizm potensialının hər il daha da genişləndiyini bildirdi.*

*«Formula-1» qrupunun İdarə Heyətinin sədri və prezidenti Stefano Domenikali və «Formula-1» qrupunun məsləhətçisi Flavio Briatore ölkəmizdə bu yarışların daha da inkişaf etməsi üçün əllərindən gələni əsirgəməyəcəklərini qeyd etdilər, yarışlara beynəlxalq və Azərbaycan ictimaiyyətini daha çox cəlb etməyə çalışdıqlarını nəzərə çatdırdılar. Onlar artıq dünyada çox tanınan Bakı şəhər halqasının «Formula-1» üzrə dün-*

*ya çempionatının ən gözəl treklərindən biri olduğunu, bu yarışların keçirilməsi üçün Bakıda gözəl və müasir infrastrukturun yaradıldığını vurğuladılar.*

*Görüşdə ölkəmizə xaricdə böyük marağın olduğu nəzərə alınaraq, «Formula-1» yarışlarını izləmək üçün çoxlu sayda tanınmış şəxslərin Azərbaycana dəvət olunması barədə fikir mübadiləsi aparıldı.*

*Stefano Domenikali və Flavio Briatore Bakı şəhərinin gözəlliyinin, təmizliyinin və işıqlandırma sisteminin onlarda xoş təəssürat yaratdığını qeyd etdilər və bununla bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdılar. Onlar paytaxtımızın gözəlliyi barədə məlumatın beynəlxalq səviyyədə daha geniş yayılması üçün səylərini əsirgəməyəcəklərini vurğuladılar.*

*İşğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq layihələri ilə də bağlı dövlət başçımızı təbrik edən qonaqlar həmin ərazilərdə yol hərəkətinin təhlükəsizliyi istiqamətində görülən işlərin, xüsusilə minlərlə kilometr yeni avtomobil yollarının çəkilməsinin əhəmiyyətini vurğuladılar.*

## İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ İSHAQ HERSOQ İLƏ TELEFONLA GÖRÜŞ

*22 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 22-də İsrail Dövlətinin Prezidenti İshaq Hersoq telefonla zəng etmişdir.*

*İshaq Hersoq İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərara görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi və qeyd etdi ki, bu, İsrail üçün mühüm dost ölkə və strateji tərəfdaş olan Azərbaycanla çox gözəl münasibətlərdə irəliyə doğru böyük bir addımdır.*

*Prezident İlham Əliyev telefon zənginə görə İsrail Dövlətinin Prezidenti İshaq Hersoqa minnətdarlığını bildirdi.*

*Dövlət başçımız qeyd etdi ki, İsraildə Azərbaycan səfirliyinin açılması barədə qərar iki ölkə arasında dostluq əlaqələrini daha da gücləndirir.*

*Telefon söhbəti zamanı İsrail–Azərbaycan əlaqələrinin müxtəlif aspektləri müzakirə edildi, gələcək təmaslar barədə fikir mübadiləsi aparıldı.*

## SERBİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Serbiya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Belqrad şəhərinin Nikola Tesla Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçımızı Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç qarşıladı.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 23-də Belqradda rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Serbiyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və Serbiyanın Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycanın dövlət və hökumət nümayəndələri isə Prezident Aleksandr Vuçiçə təqdim edildi.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 23-də Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə təkbətək görüşü olmuşdur.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

**Aleksandr Vuçiç**: Biz bu gün Sizi burada qəbul etmək imkanına görə çox məmnunuq. Serbiyaya xoş gəlmisiniz! Cənab Prezident, Sizinlə əvvəllər də görüşlərimiz olub. Siz ölkəmizə dəfələrlə səfər etmisiniz. Biz Azərbaycanın tutduğu mövqeni yüksək dəyərləndiririk və bu mövqeyə çox hörmətlə yanaşırıq. Vətəndaşlarımız arasında əlaqələr inkişaf edir. Dostluğumuz həm Sizin, həm də bizim tərəfdə görülən konkret işlərdə öz təzahürünü tapıb. Serbiyanın ərazi bütövlüyünə hər zaman verdiyiniz dəstəyə görə təşəkkürümü bildirirəm. Biz də Azərbaycanın çətin, ağır vaxtlarında eyni mövqedən çıxış etmişik. Azərbaycan bizim çoxdankı dostumuzdur və ümidvaram ki, bundan sonra da biz münasibətlərimizi daha da inkişaf etdirəcəyik. Heç kəs bir faktı inkar edə bilməz ki, biz

yaxın dostuq, yaxın dost kimi də qalırıq. Bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın səviyyəsini artırmaq üçün əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm. Bir daha xoş gəlmisiniz!

**İlham Əliyev:** Sağ olun, cənab Prezident. Dəvətə və qonaqpərvərliyə görə minnətdaram. Gözəl ölkənizdə olmaqdan və fəal dialoqumuzu davam etdirməkdən çox məmnunam. Biz beynəlxalq arenada, bəzi beynəlxalq tədbirlərdə tez-tez görüşürük. Telefonla əlaqə saxlayırıq. Bir sözlə, əlaqədəyik. Biz ikitərəfli əlaqələrimizin inkişafına hər zaman töhfə veririk. Hazırda onların artıq strateji tərəfdaşlıq mahiyyəti vardır. Bu sadəcə, imzaladığımız bəyanatla kifayətlənmir, əməkdaşlığımızın əsasını təşkil edir. Artıq qeyd etdiyiniz kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini dəstəkləmişik və bunu davam etdirəcəyik. Biz həmçinin çox sıx şəxsi münasibətlər qurmuşuq, bir-birimizə böyük hörmətlə yanaşırıq. Bu, ikitərəfli əməkdaşlığımızın vacib elementlərindən biridir.

Mən böyük nümayəndə heyəti ilə gəlmişəm və Serbiya tərəfinin də böyük nümayəndə heyətini görürəm. Nümayəndə heyətimizin üzvlərinin çox fəal surətdə söhbət aparmaq və gələcək addımları planlaşdırmaq üçün yaxşı fürsəti olacaq. Əməkdaşlığımızı hansı şəkildə daha da inkişaf etdirmək, tərəfdaşlığımızı gücləndirmək yollarını müzakirə edəcəyik. Qonaqpərvərliyə görə bir daha minnətdaram.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 23-də Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə geniş tərkibdə görüşü olmuşdur.*

**Aleksandr Vuçiç:** Hörmətli cənab Prezident! Əziz dostlar!

Serbiyaya gəldiyinizə görə təşəkkür edirik. Bu gün Sizi Belqradda görməkdən çox məmnunuq. Sizi yenidən öz ölkəmizdə görürük və ümid edirik ki, biz də Sizin ölkəyə səfər edəcəyik. Səfər etdiyinizə görə minnətdarıq və bilirik ki, Siz bu günlərdə çox məşğulsunuz. Öz tərəfimdən deyə bilərəm ki, Sizin fəaliyyətiniz daha məhsuldardır. Biz ən yaxşı dostlarıq. Bilirəm ki, ölkəmizə səfərinizi öz gündəliyinizə salmaq nə dərəcədə çətin idi.

Təkbətək görüş zamanı ölkələrimiz arasında real dostluq bir daha təsdiqləndi. Biz hər zaman Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək vermişik. Siz də həmişə heç də asan olmayan şəraitdə Serbiyanın ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəkləmisiniz. Biz eyni addımları davam etdirəcə-

yik. Bilirəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan hər zaman eyni mövqedən çıxış edəcək.

Son dövrdə əldə etdiyiniz bir çox uğurlar münasibətilə Sizi təbrik edirik. İqtisadi uğurlarınız hər kəsin marağına səbəb olur. Biz Sizin timsalınızda real, çiçəklənən ölkəni, Serbiyanın daha böyük dostunu və müttəfiqini görürük. Gəldiyinizə görə bir daha təşəkkür edirik. Ümidvaram ki, mənim Bakıya səfərim və Sizin yenidən Belqrada gələcəyiniz zaman məsələləri müzakirə etmək üçün daha çox vaxtımız olacaq.

**İlham Əliyev:** Çox sağ olun, cənab Prezident.

İlk növbədə, dəvətə görə minnətdaram. Sizi yenidən görməyimə çox şadam. Qonaqpərvərliyə görə təşəkkür edirəm. Bizim elə indicə təkbətək surətdə ikitərəfli çox yaxşı və məhsuldar müzakirəmiz oldu. İndi isə söhbətimizi davam etdirəcəyik. Sizin haqlı olaraq qeyd etdiyiniz kimi, Serbiya və Azərbaycan hər zaman beynəlxalq arenada bir-birini dəstəkləyib. Ölkələrimizin ərazi bütövlüyünə və suverenliyinə aid məsələlərə hər zaman ölkələrin maraqları əsasında baxılıb. Bu da təbiidir, çünki ölkələrimiz strateji tərəfdaşdırlar. Biz əməkdaşlığımızın yeni səviyyəyə qaldırılması üçün müvafiq sənədləri imzalamışıq. Eyni zamanda, əməkdaşlığımızın məzmunu da mehribançılığa əsaslanır. Bu gün biz bir çox məsələləri müzakirə edəcəyik. Fürsətdən istifadə edərək, mən Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm. Azərbaycana rəsmi səfərinizdən sonra biz son bir neçə il ərzində beynəlxalq tədbirlər əsnasında dəfələrlə görüşmüşük və bir yerdə

söhbət etmək imkanımız olub. Bu dəvətə görə minnətdaram və gözəl ölkənizdə, bizə dost olan Serbiyada yenidən olmağıma, Sizinlə və nümayəndə heyətimizin digər üzvləri ilə strateji tərəfdaşlığımızın gələcək inkişafına töhfə verməyimə çox şadam. Bir daha sağ olun və Sizi Azərbaycanda gözləyəcəyik.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 23-də Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç «Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat»ı, «Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum»u və onun əlavəsi olan «Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş»i Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Eyvazov və Serbiya Respublikasının Daxili İşlər naziri Bratislav Qasiç imzaladılar.*

*«Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında «Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya»nın sertifikatlarının tanınması haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev və Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur naziri Qoran Vesiç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında Saziş»in tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteranlar və Sosial İşlər Nazirliyi arasında İnzibati Razılaşma»nı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və Serbiya Respublikasının Əmək, Məşğulluq, Veteran və Sosial Məsələlər naziri Nikola Selakoviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Serbiya Respublikasının Serbiya İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Serbiya Respublikasındakı səfiri Kamil Xasıyev və Serbiya İnkişaf Agentliyinin direktoru Radoş Qazdiç imzaladılar.*

*«Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO ilə Serbiya-*

*nın Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Serbiya Respublikasındakı səfiri Kamil Xasıyev və Serbiyanın Ticarət və Sənaye Palatasının vitse-prezidenti Mixaylo Vesoviç imzaladılar.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç noyabrın 23-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

**Serbiya Prezidenti Aleksandr Vuçiçin bəyanatı**

Hörmətli Prezident Əliyev!

Hörmətli dostlar, Azərbaycan hökumətinin hörmətli nazirləri, Serbiya Respublikasının hörmətli nazirləri, hörmətli jurnalistlər!

Bu gün Belqradda ölkəmizin əsl dostunu, Azərbaycan Prezidenti cənab İlham Əliyevi qəbul etməkdən çox şadam. Bu gün səhərdən etibarən çox yaxşı müzakirəmiz oldu. Təəssüf ki, ümumi vəziyyətə görə o, ölkəmizdə daha uzun müddət ərzində qala bilmir, lakin inanıram ki, qısa müddətdən sonra əlimizə yenə də onu Serbiyada qəbul etmək fürsəti düşəcəkdir.

Bizim Azərbaycanla bir çox oxşarlıqlarımız vardır. Hər iki ölkə öz ərazi bütövlüyünü qətiyyətli şəkildə qoruyub saxlayır və biz bir-birimizə beynəlxalq arenada, beynəlxalq təsisat və təşkilatlarda BMT Nizamnaməsinə və beynəlxalq ictimai normalara əməl edərək kömək edirik. Biz bu məsələdə bir-birimizə etibar edə bilərik.

Bu gün Prezident Əliyevdən bir çox məsələləri öyrəndik. Yalnız bir neçə ölkənin beynəlxalq hüquq normalarına riayət etməsindən başqa beynəlxalq hüquqdan çox az bir şey qalıb. Biz buna əməl etməyin gələcəyimiz üçün yeganə imkan və seçim olduğunu düşünürük. Bu gün biz Azərbaycanla Birgə Bəyanatı, strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Memorandumu imzaladıq. Biz bu əməkdaşlığı yeni müstəviyə qaldırdıq. Bu gün biz bütün vacib məsələləri müzakirə etdik. Bu məsələlər arasında enerji sahəsində əməkdaşlığın necə aparılması məsələsi də yer almışdır. Qazın istehsalı və ixracına gəldikdə, Azərbaycan qüdrətli ölkədir, 7-8-10 ildən sonra Azərbaycan 35 milyard kubmetrdən daha çox qaz ixrac edəcəkdir. Bu gün qaz ixracı təxminən 22 milyard kubmetr təşkil edir. Bu həcmin yarısından çoxu Avropa ölkələrinə nəql olunur. Məhz buna görə biz Serbiya və Bolqarıstan arasında interkonnektorun yaradılması üzərində çalışırıq ki, Bakıdakı dostlarımızın ixrac etdiyi əhəmiyyətli qaz həcmlərini təchiz edə bilək. Biz elektrik enerji verilişini müzakirə etdik. Çünki Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən böyük bir Avropa layihəsi vardır. Biz Avropadan olan tərəfdaşlarımızın bu layihəyə qoşulmasını müzakirə

edəcəyik. Çünki burada elektrik xətti suyun altından çəkiləcək. Xətt Qara dənizin altından keçir ki, bizim paylayıcı şəbəkə Rumıniya və Macarıstanın paylayıcı şəbəkəsinə müvəffəqiyyətlə qoşula bilsin, nəticədə biz gələcəkdə təhlükəsiz şəkildə elektrik enerjisini ala bilək və ölkəmizin elektrik enerjisi ilə bağlı tam təhlükəsizliyini təmin edək. Bu həmçinin ölkəmizdə sənaye istehsalının genişlənməsi və vətəndaşlarımızın artan ehtiyacları ilə bağlıdır. Bizə bu enerji təhlükəsizliyi lazım olacaq və Azərbaycandan olan dostlarımıza, xüsusilə Prezident Əliyevə buna görə minnətdarıq.

Serbiya etibarlı tərəfdaşdır və mən bir az bundan əvvəl bir zarafat etdim. Prezident Əliyev bizim ərazimizdən Tartak, Prelinaya yolun çəkildiyini gördükdə buna inana bilmədi. Prelina hissəsi onlar tərəfindən tikilmişdir. Bu həqiqətən də çətin hissə idi və onlar işi vaxtında, heç bir gün də gecikmə olmadan təhvil verdilər. Bu da bizim üçün qəribədir. Onlar bir il yarım bundan əvvəl 2011-ci ildə götürdüyümüz bütün borcu geri ödədiyimizə görə təəccübləndilər. Biz bu borcu tam şəkildə əvvəlcədən ödədik, çünki ölkələr, adətən, bunu etmirlər. Lakin Serbiya borcları ödəmək üçün imkanımız olduqda belə məsələlərə alışıb. Mən bunu nəyə görə deyirəm, çünki bu baxımdan bizim də bildiyimiz kimi, Azərbaycan Serbiyanın etibarlı tərəfdaş olduğunu bilir. Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır.

Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa

da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu belə də olacaq. Bu bizim üçün həqiqətən də vacibdir.

Biz bir çox başqa mühüm məsələləri də müzakirə etdik, gübrə çatışmazlığı, neft-kimya müəssisələrinin fəaliyyəti barədə danışdıq, bir çox başqa məsələləri – hərbi-texniki əməkdaşlığı, nazirliklər arasında bir çox başqa məsələləri, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələləri müzakirə etdik. Bütün səviyyələrdə əməkdaşlıq, kənd təsərrüfatı sahəsində, iki ölkənin nazirlikləri tərəfindən bu gün imzalanmış əmək, sosial müdafiə sahəsində mühüm razılaşmalar vardır. Biz müzakirələri davam etdirəcəyik. Bizim üçün olduqca əhəmiyyət kəsb edən bir neçə məsələni müzakirə etmək üçün qarşıdakı 20 gündə mənim Bakıya, Azərbaycana qeyri-rəsmi, lakin mühüm səfərim gözlənilir. Bu gün əsası qoyulmuş strateji tərəfdaşlığı çox konkret razılaşmalar və əməli addımlarla dərinləşdirmək üçün məni Serbiya hökumətinin bir neçə naziri müşayiət edəcək. Görürəm ki, bu, zarafat deyil, baxmayaraq ki, kiməsə zarafat kimi görünə bilər, İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Avropada hansı dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən, onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm.

Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, Kosovo ilə bağlı nəyə isə ehtiyacları olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Ondan hər şeyi xahiş edirlər. Mən həqiqətən, şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib, o hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin edib, ona hörmət edilməsinə nail olub, öz ölkəsinin qayğısına qalır və öz ölkəsinin maraqlarını müdafiə edir. Qoy başqaları düşünsünlər ki, onlar dəyişiblər ya yox, yanaşma və prinsiplərini dəyişiblər ya yox.

Serbiya kiçik ölkədir. Bizim qazımız yoxdur. Bizim litiumumuz var. Lakin biz yeganə ölkəyik ki, dünya miqyasında litium istehsalını əldən vermişik, daha ağıllı insanlar hakimiyyətə gəldikdə bu işi yerinə qoyacaqlar. Ölkəmizin təhlükəsizliyini təmin edəcəyik, ən azı cənab Əliyevin Azərbaycan üçün etdiklərinin yarısını edəcəyik. Biz ölkəmizin həqiqi dostunun kim olduğunu hər zaman görmüşük və onlarla əməkdaşlığımızı inkişaf etdirmək üçün əlimizdən gələni edəcəyik. Mən çox şadam və günün qalan hissəsini, həmçinin Azərbaycandakı görüşlərimizi səbirsizliklə gözləyirəm. Burada, Belqradda daha bir görüşü səbirsizliklə gözləyirəm. O zaman mən Azərbaycan Prezidentindən ölkəmizdə daha çox qalmağı xahiş edəcəyəm, çünki ölkəmizdə ən azı bir gecə qalmasanız bizim xətrimizə dəyər. İnanırıq ki, qonaqpərvərliyimizi nümayiş etdirə bilərik. Özünüzü Avropada heç yerdə olmadığı kimi, Serbiyada evi-

nizdəki kimi hiss edəcəksiniz. Bir daha təşəkkür edirəm, xalqınıza ən xoş arzularımı çatdırıram.

Qarşıda bizi çox işlər gözləyir. Mən bu gün imzaladığımız bütün sənədlərə görə çox xoşbəxtəm və bilirəm ki, hələ çox işlər görüləcək. Biz Azərbaycan və Serbiya xalqlarının, vətəndaşlarının maraqları və rifahı naminə daha çox iş görə biləcəyik. Bir daha təşəkkür edirəm.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Gözəl ölkənizə dəvətə görə Sizə minnətdaram. Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə də Sizə təşəkkürümü bildirirəm. Bu, əsl dostun sözləridir. Bizi Prezident Vuçiç ilə dostluq əlaqələri bağlayır və hesab edirəm ki, Serbiya–Azərbaycan əlaqələrinin sürətli inkişafında bu amil önəmli rol oynamışdır.

Aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur. Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri vardır. Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir. Prezident Vuçiçin dediyi kimi, ölkələrimizin suve-

renliyi, ərazi bütövlüyü qarşılıqlı surətdə dəstəklənir və bu mövqe birmənalıdır, dəyişməzdir və dəyişməz olaraq qalacaqdır. Eyni zamanda, Prezident Vuçiçin beynəlxalq təşkilatlarla bağlı dediyi sözlərə də şərh verərək, bir neçə kəlmə demək istərdim. Bizim torpaqlarımız uzun illər işğal altında idi. Dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər. Onların arasında BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılması tələb edilirdi. BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı», Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqemizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmırdı. Bu nəyi göstərir? Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri, onların icrası selektiv xarakter daşıyır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir, bəzi hallarda isə bir neçə saat ərzində icra edilir. Amma bizim məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözlədik və buna nail ola bilmədik. Ona görə dünya ictimaiyyəti beynəlxalq təşkilatların gələcək fəaliyyəti ilə bağlı öz təkliflərini verməlidir. Biz də Azərbaycan olaraq buna hazırıq. Çünki qəbul edilmiş qərarlar həyatda öz əksini tapmırsa, yerinə yetirilmirsə, əlbəttə, bu çox düşündürücüdür.

Biz nəticə etibarilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi, BMT Nizamnaməsi bu imkanı bizə verirdi. Özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik və artıq iki ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini – 10000 $km^2$-dən böyük olan ərazini yenidən qurur.

Biz bu və digər məsələləri ölkələrimizin maraqları prizmasından təhlil edirik və bu gün ikitərəfli formatda bir çox beynəlxalq məsələlərə də toxunduq. Eyni zamanda, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Mənim dostum Aleksandrın dediyi kimi, energetika sahəsindəki əməkdaşlığı müzakirə etdik və bu gün bu müzakirələr davam edəcəkdir. Təbii qaz, elektrik enerjisi sahələrində əməkdaşlıq üçün yeni imkanlar vardır. Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaqdır. İlk növbədə, biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik. O cümlədən hərbi-texniki sahədə əməkdaşlıq aparılır və bu əməkdaşlığın daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımlar atılacaqdır.

Bir sözlə, biz bu gün növbəti illər üçün bir gündəlik tərtib etdik. Prezidentlər bu gündəliyi diqqətdə saxlayacaq, bu məsələlərin icrasına nəzarət edəcək-

lər. Bunu daha operativ və səmərəli şəkildə etmək üçün biz tez-tez görüşməliyik. Mən əziz dostumu, Prezident Vuçiçi Azərbaycana səfərə dəvət etdim. Hesab edirəm ki, ilin sonuna qədər bu səfər gerçəkləşə bilər və ondan sonra mən də yenidən gələcəyəm. Mənim Serbiyaya səfərim bir qədər gecikdi. Çünki Prezident Vuçiç üç il yarım bundan əvvəl Azərbaycanda olub. Mən də cavab səfəri etməli idim. Amma COVID-in müdaxiləsi nəticəsində bu, bir qədər ertələndi. Yenidən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Belə səfərlərimiz çox olacaq. Bizim dostluğumuz da əbədi olacaq. Qonaqpərvərliyə və diqqətə görə bir daha təşəkkürümü bildirirəm.

## SERBİYA RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM ANA BRNABİÇ İLƏ GÖRÜŞ

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 23-də Belqradda Serbiya Respublikasının Baş Naziri xanım Ana Brnabiç ilə geniş tərkibdə görüşü olmuşdur.*

**A n a B r n a b i ç:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi bu gün Belqradda görməkdən olduqca məmnunam. Bizim bir çox məsələlərə nəzər salmaq imkanımız oldu. Sizin bizim Prezidentlə məhsuldar müzakirələriniz olub. Sizi əmin etmək istərdim ki, Serbiya hökumətinə arxalana bilərsiniz. Siyasi və iqtisadi əlaqələrimiz inkişaf edir. Azərbaycanın bizim üçün çox böyük əhəmiyyəti vardır. Ölkəniz bizim əsl dostumuzdur. Artıq qeyd etdiyim kimi, Sizinlə görüşməkdən və məsələləri müzakirə etməkdən məmnunam və şərəf duyuram. Özünüzü burada öz evinizdəki kimi hiss edin. Mən Sizinlə birgə işləməyi səmimiyyətlə arzulayıram.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, hörmətli Baş Nazir. Sizi görməyimə çox şadam. Haqlı olaraq

qeyd etdiniz ki, Prezidentlə bizim çox konstruktiv görüşümüz oldu, biz qarşılıqlı maraq doğuran bir çox məsələləri müzakirə etdik. Hazırda biz həmin məsələləri davamlı şəkildə nəzərdən keçirəcəyik. Ölkələrimiz strateji tərəfdaşdır və biz Serbiyanı Avropada özümüzün ən yaxşı dostlarımızdan biri hesab edirik. Əməkdaşlığımızın mahiyyəti onun formalarını özündə əks etdirir. Biz bu gün bir neçə mühüm sənəd imzaladıq və onlar işbirliyimizin hüquqi əsaslarını genişləndirir. Lakin, əlbəttə ki, strateji tərəfdaşlığa aid sənəd xüsusi əhəmiyyət kəsb edir.

Təbii ki, qlobal gündəlikdə mühüm məsələlərdən biri enerji təhlükəsizliyidir və biz cənab Prezidentlə bu məsələni müzakirə etdik. İndi isə işimizi davam etdiririk. Eyni zamanda, düşünürəm ki, biz daşımalarla bağlı infrastrukturumuzun birləşdirilməsi üzərində çalışmalıyıq. Çünki Serbiya və Azərbaycan Avropanı Asiya ilə birləşdirən enerji marşrutunun üzərində yerləşir. Fikrimcə, bu sahədə əməkdaşlığın əhatə dairəsi daha geniş olmalıdır. Həmçinin mən ikitərəfli ticarətə aid bəzi məlumatlara baxdım. Rəqəmlər çox kiçikdir. Bu il dövriyyə artımına baxmayaraq, yenə də hesab edirəm ki, bunun üzərində işləmək imkanları vardır. Əlbəttə, bütün bu və digər məsələlər nəzərdən keçiriləcəkdir. Ümid edirik ki, səfərdən sonra əməkdaşlığımızda yeni dinamikanı görəcəyik.

## TAŞMAYDAN PARKINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏ GÖRKƏMLİ SERB YAZIÇISI MİLORAD PAVİÇİN ABİDƏLƏRİNİ ZİYARƏT

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Belqradın Taşmaydan parkında ümummilli lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət etmişdir.*

*Dövlət başçısı abidələrin önünə əklil qoydu.*

*Ulu öndər Heydər Əliyevin Taşmaydan parkında ucaldılmış abidəsinin açılışı Prezident İlham Əliyevin iştirakı ilə 2011-ci ildə olub.*

*Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin abidəsinin paytaxt Belqradın Taşmaydan parkında ucaldılması ölkələrimiz arasındakı əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ TƏRƏFİNDƏN VERİLMİŞ RƏSMİ LANÇDA İŞTİRAK

*Belqrad*

*23 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə noyabrın 23-də Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç tərəfindən rəsmi lanç verilmişdir.*

*Dövlət başçımız rəsmi lançda iştirak etdi.*

**Səfər başa çatdı**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri noyabrın 23-də başa çatdı.*

*Belqrad şəhərinin Nikola Tesla Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçımızı Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç yola saldı.*

## MOLDOVA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ALEKSANDR ESAULENKO İLƏ GÖRÜŞ

*24 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Moldova Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Aleksandr Esaulenkonun etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməsini dövlət başçısına təqdim edən səfir Aleksandr Esaulenko Azərbaycan dilində müraciət etdi:*

– Hörmətli cənab Prezident, icazə verin, Sizi, burada olanların hamısını və bütün Azərbaycan xalqını Vətən müharibəsində qazandığı Zəfərin ikinci ildönümü münasibətilə şəxsən Azərbaycan dilində təbrik edim.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm.

*Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı ikitərəfli əlaqələrimizin çox yaxşı səviyyədə olduğunu vurğuladı və konkret sahələr üzrə əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Siyasi sahədə yaxşı qarşılıqlı fəaliyyətin olduğunu qeyd edən dövlət başçımız yüksək səviyyədə təmasla-*

*rın əhəmiyyətini və ticarət mübadiləsinin artırılmasının vacibliyini vurğuladı, nəqliyyat, energetika, investisiya qoyuluşu sahələrində əlaqələrin dərinləşdirilməsi üçün imkanların olduğunu diqqətə çatdırdı.*

*Beynəlxalq səviyyədə ölkələrimizin qarşılıqlı dəstəyinə toxunan Prezident İlham Əliyev Azərbaycanın və Moldovanın ikitərəfli formatda da həmrəylik nümayiş etdirdiklərini vurğuladı.*

*Dövlət başçısı səfir Aleksandr Esaulenkonun fəaliyyəti dövründə əlaqələrimizin möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Aleksandr Esaulenko Moldova Prezidenti Maya Sandunun dövlət başçımıza salamlarını və Azərbaycan xalqına ən xoş arzularını çatdırdı. Qeyd etdi ki, Moldova Respublikasının rəhbərliyi Moldova–Azərbaycan dövlətlərarası münasibətlərin dərinləşdirilməsi və genişləndirilməsinə çox böyük diqqətlə yanaşır.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Moldovanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Səfir əlaqələrimizin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu nəzərə çatdırdı, ikitərəfli əlaqələrin inkişafında qarşılıqlı təmasların rolunu vurğuladı. Bu xüsusda, Moldovanın Baş Naziri, Parlament Sədri və digər rəsmi şəxslərinin ölkəmizə səfərlərinin əhəmiyyətinə toxundu. Aleksandr Esaulenko vurğuladı ki, Moldova siyasi, iqtisadi və digər sahələrdə Azərbaycanla əlaqələrin bundan sonra da genişləndirilməsində maraqlıdır.*

## LİVİYA DÖVLƏTİNİN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ALİ SALEM NASER İLƏ GÖRÜŞ

*24 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Liviya Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Ali Salem Naserin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Ali Salem Naser etimadnaməsini dövlət başçımıza təqdim etdi.*

*Sonra səfirlə söhbət edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan və Liviya həmişə bir-birinə dost olub və maraqlarını müdafiə ediblər. Hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində bütün məsələlərlə bağlı qarşılıqlı dəstək nümayiş etdirir. Prezident İlham Əliyev vurğuladı ki, həm işğal dövründə, həm də işğaldan sonra Ermənistan–Azərbaycan məsələsi ilə bağlı ölkəmiz həmişə Liviyanın dəstəyini görüb. Bu dəstəyin «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də olduğunu qeyd edən dövlət başçımız buna görə Liviya tərəfinə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev bu yaxınlarda Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilmiş 31-ci Zirvə toplantısında iştirakını məmnunluqla xatırladaraq, bu tədbirdə çıxışında ərəb dövlətləri ilə Azərbaycan*

*arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə danışdığını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın bu Zirvə toplantısına fəxri qonaq qismində dəvət olunması ərəb dünyasının ölkəmizə münasibətini bir daha nümayiş etdirdi.*

*Azərbaycan Prezidenti dostluq əlaqələri nəzərə alınmaqla ikitərəfli münasibətlərimizin, xüsusilə də iqtisadiyyat, ticarət və energetika sahələrində əməkdaşlığımızın fəallaşdırılmasının zəruriliyini vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Liviya Prezident Şurasının Sədri Məhəmməd Yunis əl-Mənfinin salamlarını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məhəmməd Yunis əl-Mənfiyə çatdırmağı xahiş etdi.*

*Ali Salem Naser səfir kimi fəaliyyəti dövründə ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini nəzərə çatdırdı. Səfir dövlətlərimizin və xalqlarımızın maraqları naminə həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələndirmənin və əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğuladı.*

## MÜQƏDDƏS TAXT-TACIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ APOSTOL NUNSİSİ ARXİYEPİSKOP MAREK SOLÇİNSKİ İLƏ GÖRÜŞ

*24 noyabr 2022-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Müqəddəs Taxt-tacın ölkəmizdə yeni təyin olunmuş apostol nunsisi arxiyepiskop Marek Solçinskinin etimadnaməsini qəbul etmişdir.*

*Müqəddəs Taxt-tacın apostol nunsisi etimadnaməsini dövlət başçısına təqdim etməkdən şərəf hissi duyduğunu söylədi. Marek Solçinski bildirdi ki, Roma Papası Fransisk Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya onun salamlarını çatdırmağı xahiş edib. O, nəzərə çatdırdı ki, Roma Papası dövlət başçımıza xalqa şərəflə rəhbərlik missiyasının uğur qazanması üçün dualar edir.*

*Sonra Marek Solçinski etimadnaməsini dövlət başçısına təqdim etdi.*

*Apostol nunsisi ilə söhbət edən Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda və Vatikanda Roma Papası ilə görüşlərini məmnunluqla xatırladaraq, onun ölkəmizə səmimi münasibətini hə-*

*mişə hiss etdiyimizi vurğuladı. Dövlət başçımız Roma Papasının Azərbaycana rəsmi səfərini tarixi səfər kimi qiymətləndirərək, bunun ikitərəfli münasibətlərimizi, eyni zamanda, bizim tərəfdaşlıq ruhunun, multikulturalizm, sülh və tolerantlıq dəyərlərinin təşviqinin zəruriliyini nümayiş etdirdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanın Vatikanda ayrıca səfirliyinin fəaliyyətə başlayacağını deyərək, bunun əməkdaşlığın dinamizminə xidmət göstərəcəyinə əminliyini ifadə etdi.*

*Dövlət başçısı Azərbaycanın Vatikanın tarixi yerlərinin bərpasında iştirakından məmnunluq duyduğunu bildirdi və bunu mədəniyyətlərarası dialoqa bir töhfə kimi qiymətləndirərək, Azərbaycan tərəfinin bu işi davam etdirməyə hazır olduğunu söylədi.*

*Prezident İlham Əliyev ölkəmizdə mütəmadi keçirilən mədəniyyətlərarası dialoq forumunun bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı.*

*Bakıda yenidən olmasından çox xoş təəssürat hissi keçirdiyini bildirən Marek Solçinski Azərbaycanla Müqəddəs Taxt-tac arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafından məmnunluğunu ifadə etdi.*

## QEYDLƏR

**1. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 5, 8, 9, 13, 14, 17–20, 25, 33, 34, 118, 119, 208, 210, 259, 260, 283.

**2. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 5, 24–26, 33, 34, 271.

**3. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın birinci Prezidenti – elbası, Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər isə Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 34.

**4. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 6,7.

**5. Şahbaz Şərif** (d.1951) – Pakistanın dövlət xadimi və siyasətçisi. 11 aprel 2022-ci ildən Pakistan İslam Respublikasının Baş Naziridir. – 6, 7.

**6. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 84,34 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 7, 13, 18, 20, 35, 40, 43–45, 70–72, 75–77, 79, 81–91, 94–97, 133–135, 162–167, 169, 202, 203, 205, 208, 210–212, 221, 233, 275, 276, 279.

**7. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 8, 9, 14, 17, 18, 25, 26, 32, 118, 208, 210, 259, 283.

**8. Küveyt,** K ü v e y t D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min $km^2$, əhalisi 4,6 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Qanunverici orqan və hökumət Əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 8.

**9. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 8, 211, 216.

**10. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərar-

gahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 9, 12, 26, 127, 130, 131, 147, 158, 160, 181, 229, 299, 307.

**11. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət və siyasi xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların işi üzrə baş komissar olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 9.

**12. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilmiş humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə

minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 9, 10, 26, 29, 87, 89, 90, 134, 183, 186–189, 208, 209, 270, 285.

**13. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə ma-

likdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 9, 159, 207, 228–230, 272, 285, 306.

**14. Birinci Qarabağ müharibəsi** – keçən əsrin 80-ci illərinin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər əsasən 1992-ci ildə başlanmışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, keçmiş Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 10, 88, 179.

**15. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 11, 30, 31, 127, 238, 239, 245, 247.

**16. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 12, 37, 44, 74, 75, 87, 94, 164, 179, 185, 209.

**17. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 12, 130, 137, 157–159, 161, 181, 182, 272, 306, 315.

**18. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 12, 130, 158, 273, 308.

**19. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 13, 21, 27, 29, 31, 132, 136, 140, 141, 143–148, 163, 245, 247, 249, 253–258, 276, 280.

**20. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 13, 127, 276.

**21. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə

seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 13, 15, 16, 43.

**22. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qaraqalpaqıstan Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 13, 194–198, 205, 208, 209, 211, 212, 217, 277, 282.

**23. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6,7 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 13, 210.

**24. İraq,** İraq Respublikası – Qərbi Asiyada dövlət. Şimalda Türkiyə, şərqdə İran, cənubda Səudiyyə Ərəbistanı və Küveyt, qərbdə isə Suriya və İordaniya ilə həmsərhəddir. Ərazisi 435 km$^2$, əhalisi 43,8 milyon nəfərdir. Paytaxtı Bağdad şəhəridir. – 13, 161.

**25. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9,3 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayət və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 13.

**26. Qətər,** Q ə t ə r D ö v l ə t i – Qərbi Asiyada dövlət. Ümumi sahəsi 11,5 km$^2$, əhalisi 2,5 milyon nəfərdir. Qətər konstitusiyalı monarxiyadır. Paytaxtı Doha şəhəridir. – 13.

**27. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən, Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin Ərəb Dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin Muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir. – 13, 221.

**28. İbrahim Rəisi** (d.1960) – İran siyasətçisi və dövlət xadimi. 2021-ci ildən İran İslam Respublikasının Prezidentidir. – 15.

**29. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamış-

dır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin

fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 18, 19, 32, 59, 63, 95, 131, 141, 195, 210, 256, 261–267, 273, 276–278, 311.

**30. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır.

1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci illərdə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 21, 22, 140–142, 144, 146, 148, 249, 253, 255, 257.

**31. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, həmçinin ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 26, 28, 91, 181, 229, 306.

**32. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 68 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şura-

sına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 27–31, 150–154, 156, 220, 273.

**33. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 27, 28, 91, 103, 125, 181, 182, 220, 233, 240–243, 247, 248.

**34. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 27, 45, 48, 66, 73, 74, 87, 178, 179, 187, 263.

**35. Livan,** L i v a n  R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 8,8 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Beyrut şəhəridir. – 30, 161.

**36. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 32, 43, 188.

**37. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 35, 70–77, 79, 81, 83–87, 90, 91,

95, 96, 133, 163, 164, 202–204, 208, 211, 212, 221, 276, 279.

**38. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları –** 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilmişdir. – 38, 43, 82, 86, 123, 134, 207, 208, 268, 275.

**39. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər

Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 39, 40, 48, 52–56, 58, 59, 65–69, 194, 195, 317.

**40. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 39–44, 48, 61, 79, 81, 82, 84–88, 91, 94, 164, 176, 178, 208.

**41. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Ərazisi 802 $km^2$, əhalisi 40,2 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 39, 42, 45–51, 178.

**42. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsəbə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 39, 82, 178.

**43. Saleh Məmmədov,** Saleh Ərşad oğlu (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni və «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 39.

**44. Muxtar Babayev,** Muxtar Bahadur oğlu (d.1967) – dövlət xadimi və siyasətçi. 2010–2018-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin IV və V çağırış üzvü olmuşdur. 23 aprel 2018-ci ildən Azər-

baycan Respublikası Ekologiya və Təbii Sərvətlər naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni və «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 40, 81.

**45. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasının subyekti. Sahəsi 50,2 min km$^2$, əhalisi 3,4 milyon nəfərdir. Dağıstan Respublikası inzibati cəhətdən 42 rayona bölünür. Paytaxtı Mahaçqala şəhəridir. – 41, 83.

**46. «Azərişıq» –** Bakı elektrik şəbəkəsinin operatoru. «Azərişıq» ASC-nin tarixi eyni zamanda, Bakıda elektrikin tarixi ilə birgə formalaşıb. 1901-ci ilin iyul ayının əvvəlində Bibiheybət elektrik stansiyası sınaqdan keçirildi, bir həftə sonra isə stansiya daimi istifadəyə verildi. Bakı elektrik şəbəkəsi 1920-ci ildən etibarən müxtəlif qurumların tərkibində fəaliyyət göstərib. Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2006-cı il tarixli Sərəncamı ilə «Bakıelektrikşəbəkə» ASC-nin fəaliyyəti bərpa edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamına əsasən, «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti adlandırıldı. – 41, 47.

**47. Baba Rzayev,** B a b a H ü s e y n a ğ a o ğ l u (d.1957) – Əməkdar mühəndis. 2006–2015-ci illərdə «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin, 2015–2018-ci illərdə «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri olmuşdur. 2018-ci ildən «Azərener-

ji» Açıq Səhmdar Cəmiyyətinin Prezidentidir. – 42, 43.

**48. «Azərenerji»** – dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisinin ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 42, 44.

**49. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 km$^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 43, 44, 80, 94, 195, 206, 262, 264, 265, 277.

**50. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 km$^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 45, 46, 48, 53, 54, 55, 57, 65, 66, 67, 68, 69, 70, 71, 72, 76, 82, 86, 87, 92, 96, 134, 164, 178, 208.

**51. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı Prezidentdir, Prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 48.

**52. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 km$^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişlər. – 48, 178, 187, 263.

**53. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – texniki elmlər namizədi, Beynəlxalq Mühəndislik Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Əməkdar pilotu. 1 may 2008-ci il-

dən «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidentidir. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 65, 71.

**54. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 66, 67.

**55. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 66, 82, 86, 172, 178, 208.

**56. İnam Kərimov,** İnam İmdad oğlu (d.1977) – hüquqşünas. 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri olmuşdur. 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 67.

**57. Emin Əmrullayev,** E m i n  E l d a r  o ğ l u (d.1982) – 2015–2020-ci illərdə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri, 2020-ci ilin yanvar–iyul aylarında Azərbaycan Respublikası Təhsil İnstitutunun direktoru vəzifələrində çalışmışdır. 2020-ci ilin iyul ayından Azərbaycan Respublikasının Təhsil naziridir. – 69.

**58. Rəşad Nəbiyev,** R ə ş a d  N ə b i  o ğ l u (d.1977) – iqtisadçı. 2004–2011-ci illərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində şöbə müdiri işləmişdir. 2011–2021-ci illərdə «Azərkosmos» ASC-nin sədri olmuşdur. 2021-ci ildən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziridir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 79, 298.

**59. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə

yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 87, 107, 165, 176–179, 208, 263, 275.

**60. Binəli Yıldırım** (d.1955) – Türkiyə siyasətçisi və dövlət xadimi. 2015–2016-cı illərdə Türkiyə Respublikasının Nəqliyyat naziri, 2016–2018-ci illərdə Baş Naziri, 2018–2019-cu illərdə isə Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 97.

**61. Türk Dövlətləri Təşkilatı,** T ü r k d i l l i D ö v l ə t l ə r i n Ə m ə k d a ş l ı q Ş u r a s ı – 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanmış Naxçıvan müqaviləsi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulmuş beynəlxalq təşkilat. 14 sentyabr 2019-cu ildə Özbəkistan quruma üzv olmuşdur. – 98, 100, 101, 119, 194, 199–201, 203, 205, 206, 209, 210, 212, 214, 215.

**62. Bağdad Amreyev** (d.1959) – qazax bürokrat, diplomat, Qazaxıstan Baş Nazirinin müşaviri. 2018–2022-ci illərdə Türk Dövlətləri Təşkilatının baş katibi olmuşdur. Azərbaycan Respublikasının

«Dostluq» ordeni ilə təltif edilmişdir. – 98, 101, 102, 209, 210.

**63. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 103, 210, 301, 302.

**64. Katalin Novak** (d.1977) – Macarıstan siyasətçisi və dövlət xadimi. 10 mart 2022-ci ildən Macarıstanın Prezidentidir. – 103.

**65. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 104–115, 117, 210, 251, 252.

**66. İrakli Qaribaşvili** (d.1982) – Gürcüstan dövlət xadimi və siyasətçisi. 2013–2015-ci illərdə Gürcüstanın Baş Naziri olmuşdur. 2021-ci ildə yenidən Baş Nazir seçilmişdir. – 105–107, 109, 111, 117, 251.

**67. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 110, 228.

**68. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–

Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1768 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 111, 114, 204, 270.

**69. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 111.

**70. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 111, 114, 115.

**71. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 113, 232, 243, 245.

**72. Bakı–Supsa** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan 4 terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılışı mərasimi olmuşdur. – 114.

**73. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 122.

**74. Rişi Sunak** (d.1980) – Britaniya dövlət və siyasi xadim. 24 oktyabr 2022-ci ildən Britaniya Mühafizəkarlar Partiyasının rəhbəri, 25 oktyabr 2022-ci ildən isə Birləşmiş Krallığın Baş Naziridir. – 122.

**75. *bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çı-

xarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 122.

**76. Ciorcia Meloni** (d.1977) – italyan dövlət xadimi və siyasətçisi. 22 oktyabr 2022-ci ildən İtaliyanın Baş Naziridir. – 124.

**77. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Roma şəhəridir. – 124, 125, 166, 169, 170.

**78. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 126, 127.

**79. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya Baş Assambleyanın sessiyalararası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 127, 158, 306.

**80. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 127, 130.

**81. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 125,9 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 127.

**82. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESCO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 131, 168.

**83. Aleksey Overçuk** (d.1964) – Rusiyanın dövlət və siyasi xadimi. Rusiya Federasiyası Hökumətinin Sədr müavini. – 132.

**84. 10 noyabr Bəyanatı** – Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin keçmiş Dağlıq Qarabağın ətrafında Ermənistanın nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi haqqında bəyanat. – 132, 146, 187.

